Xalqın qəzeti!

# Xalq qəzeti

№ 222 (30338) 12 oktyabr 2023-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

**Günün sözü**

**Prezident İlham Əliyev:**

**ABŞ prezidentliyinə namizəd Azərbaycanı ittiham edərək, ermənilərin Gəncəyə və Bərdəyə hücumlarının kadrlarını nümayiş etdirir. İndi bu insanlarla necə danışmaq olar, onlara nəyi izah etmək olar? Onlar heç nə eşitmək istəmirlər. Onlar mərkəzdən verilən təlimata uyğun hərəkət edirlər..**

# Regionda və dünyada təhlükəsizliyin alternativi yoxdur

## Prezident İlham Əliyev MDB-yə üzv dövlətlərin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri şurasının 53-cü iclasının iştirakçılarını qəbul edib



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 11-də MDB-yə üzv dövlətlərin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri Şurasının 53-cü iclasının iştirakçılarını – Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidmətinin direktoru, MDB dövlətlərinin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri şurasının sədri Aleksandr Bortnikovu, Rusiya Federasiyası Xarici Kəşfiyyat Xidmətinin direktoru Sergey Narışkini, Belarusun Dövlət Təhlükəsizlik Komitəsinin sədri İvan Tertelli, Qazaxıstanın Milli Təhlükəsizlik Komitəsinin sədri Yermek Sagimbayevi, Qırğızıstanın Baş nazirinin müavini, Dövlət Milli Təhlükəsizlik Komitəsinin sədri Kamçıbek Taşiyevi, Özbəkistanın Dövlət Təhlükəsizlik Xidmətinin sədri Abdusalom Azizovu, Tacikistanın Dövlət Milli Təhlükəsizlik Komitəsinin sədri Saymumin Yatimovu və MDB-yə üzv dövlətlərin Antiterror Mərkəzinin rəhbəri Yevgeniy Sısoyevi qəbul edib.*

*Dövlətimizin başçısı görüşdə çıxış etdi.*

*(ardı 2-ci səhifədə)*

# Xalqın zəfər və tərəqqi ünvanı



**Tarix ənənələrin davamı üzərində qurulan zəruri proseslər ardıcıllığıdır. Bu baxımdan 1993-2003-cü illər ulu öndər Heydər Əliyevin gerçəkləşdirdiyi müstəsna xilaskarlıq missiyası mütləq inkişaf və tərəqqi dönəmi ilə əvəzlənməli idi.**

Tarixin və dünya siyasi düzəninin gedişinə mükəmməl bələd olan ümummilli liderin 2003-cü ilin oktyabrında xalqa müraciətində "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" – fikri də bu həqiqətin ifadəsi idi. Bu gün ümummilli liderimiz Heydər Əliyevin ideyaları, müəyyənləşdirdiyi prioritetlər, dövlətçiliyimizin hərtərəfli inkişaf konsepsiyası onun layiqli davamçısı, möhtərəm Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

*(ardı 5-ci səhifədə)*

# Paşinyan Qranada eyforiyasından hələ də ayılmayıb

## *İrəvanın yeni illüziyası – Brüssel gözləntisi*

**Baş nazir Nikol Paşinyanın Ermənistanın İctimai televiziyasına müsahibəsi bir neçə cəhətdən maraq doğurmaqdadır. Müsahibə ilk baxışdan Ermənistanın Azərbaycanla sülh sazişi bağlamağa hazır olması üzərində köklənsə də, vurğulanmalı bəzi məqamlar var ki, onlara nəzərən ümumən Cənubi Qafqazdakı barış mühitinin qərarlaşmasına doğru gedən yolun heç də asan olmayacağını söyləmək mümkündür. Biz deyək ki, Ermənistan, indiki halda baş nazir Paşinyan səmimi deyil. Yazımızda həm də Nikolun, habelə onun küröyini söykədiyi Qərbin qeyri-səmimiliyinə aydınlıq gətirməyə çalışacağıq.**



### Zəngəzur dəhlizi: Paşinyan gah "hə" deyir, gah da "yox"

N.Paşinyan yenə Zəngəzur dəhlizi mövzusuna qayıdıb. Çünki Zəngəzur dəhlizi məntiqinə qarşı çıxmaqdadır. O, müsahibəsində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın fikirlərinə münasibətdə əks mövqe ortaya qoyurmuş kimi səslənib. Nikol həm Türkiyənin, həm də Azərbaycanın işlətdiyi siyasi leksikonu beynəlmədiyini dilə gətirib. Yeni, Zəngəzur dəhlizi ifadəsi ilə razılaşmadığını deyib ki, əslində, bu mövqeyini əvvəllər də bəyan etmişdi. Belə görünür ki, Nikol məsələni Ermənistana qarşı ərazi iddiası kontekstində dəyərləndirməkdə israrlıdır. Ona görə də bildirir ki, ölkəsi regional kommunikasiyaların açılmasına ancaq özünün suverenliyini və yurisdiksiyasını, habelə bərabərlik və qarşılıqlılıq prinsipini nəzərə alan şərtlərlə hazırdır. Ən əsas məqam isə erməni baş nazirin mövcud müstəvidə heç bir üçüncü tərəfin Ermənistan ərazisinə nəzarətinə yol verilməyəcəyini vurğulamasıdır. Bu deyim onun imza atdığı 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata ziddir.

Bəli, Paşinyan həmin bəyanatın 9-cu maddəsini qəbul etmir. Özü də bunu son dərəcə həyasız formada. Sanki üzə durur: "Bizə deyirlər üçtərəfli Bəyanata görə təhlükəsizliyi Rusiya təmin etməlidir. Biz isə bunun doğru olmadığını deyirik. Bu, ictimai qaydada açıqlanmış sənəddir. Sənədi açıb oxuyaq, orda elə bir maddə yoxdur".

*(ardı 4-cü səhifədə)*

# "Liderin ürəyi" filmi Heydər Əliyev Mərkəzində təqdim olunub




**Dünən Heydər Əliyev Mərkəzində "TASS" informasiya agentliyinin baş direktorunun birinci müavini, Rusiyanın Əməkdar jurnalisti Mixail Qusmanın "Liderin ürəyi" sənədli filminin təqdimatı keçirilib.**

Ekran əsəri ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr edilib.

Baş direktorun birinci müavini Mixail Qusman filmin nümayişindən əvvəl çıxışında bu ilin dahi Heydər Əliyevin adı, yüzilliyi ilə ayrılmaz şəkildə əlaqəli olduğunu vurğulayıb. O, filmin niyə belə adlandırıldığı barədə də danışıb: "Ekran əsəri "Liderin ürəyi" adlandırılıb, çünki Heydər Əliyev bütün həyatı boyu ürəyini qorumadan işləyib, özünü bütövlükdə doğma xalqına həsr edib".

Əməkdar jurnalist qeyd edib ki, Heydər Əliyevin böyük arzusu idi ki, Azərbaycan torpaqlarını işğaldan azad etsin və bayrağı azad edilmiş Şuşada, bütün Qarabağda dalğalansın. "2020–ci il noyabrın 8-də Azərbaycan Bayrağı Şuşada, bu il sentyabrın 20-də isə bütün Qarabağda ucaldılıb", - deyə o bildirib.

Sonra "Liderin ürəyi" i filmi nümayiş olunub.

Xatırladaq ki, "Liderin ürəyi" sənədli filminin rejissoru Valeri Spirin, ssenari müəllifi Marina Denisevіçdir.

**XQ**

# Vergi islahatları milli iqtisadiyyatı gücləndirir

Səhifə ⇨ 7

# HƏMAS–İsrail savaşı: qlobal maraqların kəsişmə nöqtəsi

**Son şənbə günü HƏMAS-ın İsrail ərazisinə qəfil hücumu, başa verən ağır zorakılıqlar, əhalidə yaranan qorxu və dəhşət, eləcə də bu ağır terror aktının yeni dünya müharibəsinə çevrilmə ehtimalı böyük dövlətləri, həmçinin onların diplomatlarını hərəkətə gətirib.**

Qlobal medianın gündəmini İsrail ordusunun Qəzza zolağında apardığı antiterror əməliyyatları ilə yanaşı, dünyanın siyasi və hərbi güc mərkəzlərinin hadisələrin gedişatı ilə bağlı açıqlamaları, münaqişənin mümkün ssenarisi və s. məsələlər zəbt edib.



*(ardı 11-ci səhifədə)*

# Füzuli şəhərinə köçən daha 22 ailə mənzillərinin açarlarını təhvil alıb

**Füzuliyə qayıdan daha 22 ailə Azərbaycan dövləti tərəfindən tikilən mənzillərinin açarlarını təhvil alıblar.**

Bununla da Füzuli şəhərində 187 ailə olmaqla, 661 nəfərin daimi məskunlaşması təmin edilib. Qarşıdakı günlərdə Füzuli şəhərinə ailələrin köçürülməsi davam edəcək.

**XQ**



# Prezident İlham Əliyev MDB-yə üzv dövlətlərin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri şurasının 53-cü iclasının iştirakçılarını qəbul edib

*(əvvəli 1-ci səhifədə)*



## Prezident İlham Əliyevin çıxışı

– Hörmətli qonaqlarımızı, dost ölkələrin xüsusi xidmət orqanlarının rəhbərlərini salamlamağa şadam.

Əminəm ki, Bakıda keçirilən tədbir qarşılıqlı fəaliyyətimizin möhkəmlənməsi işinə xidmət edəcək və gələcək əməkdaşlığa daha bir töhfə olacaq. Əlamətdar haldır ki, sizin iclasınız dövlət başçılarının da ünsiyyətinə və qarşılıqlı fəaliyyətimizin çox mühüm məsələlərinin müzakirəsinə kömək edəcək MDB-nin növbəti sammiti ərəfəsində keçirilir. Azərbaycan MDB-nin işində iştirak etməyə həmişə böyük əhəmiyyət verib. Bütün istiqamətlər üzrə və əlbəttə, təhlükəsizliyin möhkəmləndirilməsi sahəsində sıx təmaslar mövcuddur. Sizin işiniz, həmçinin həmkarlar arasında qarşılıqlı fəaliyyət hazırkı mürəkkəb beynəlxalq şəraitdə xüsusi əhəmiyyətə malikdir, çünki təhdidlər artır, yeni qeyri-sabitlik ocaqları yaranır və ölkələrimizin sabitliyi və təhlükəsizliyi bir çox hallarda sizin strukturların operativ işindən asılıdır.

Düşünürəm ki, siz bugünkü iclasda da əməkdaşlığın möhkəmləndirilməsi məsələlərini müzakirə edəcəksiniz. Əlbəttə, daim operativ informasiya mübadiləsi aparmaq zəruridir. Siz hamıdan yaxşı bilirsiniz ki, informasiya, o cümlədən onun qəbul edilməsi və ona reaksiya verilməsi baxımından böyük əhəmiyyətə malikdir. Əlbəttə ki, ölkələrimiz arasında sıx qarşılıqlı fəaliyyət əməkdaşlığın səmimi, məqsədyönlü, nəticəyə və mümkün təhdidlərin profilaktikasına və ya aradan qaldırılmasına yönəlmiş əməkdaşlıq üçün gözəl imkanlar yaradır.

Ölkələrimizin yerləşdiyi regionlarda, əlbəttə, xarici təhdidlər də mövcuddur və bu istiqamətdə operativ iş riskləri minimuma endirməyə imkan verir. Bizim ölkələrin yerləşdiyi məkanda ictimai-siyasi sabitliyin möhkəmləndiyini görmək sevindiricidir və dövlətlərimiz bir çox çağırışların öhdəsindən uğurla gəlir.

Azərbaycana gəldikdə, artıq bizim daxili təhdidlərimiz yoxdur. Üç həftə əvvəl həyata keçirilən tədbirlər nəticəsində Azərbaycanın suverenliyi tam bərpa olunub. Əlbəttə, bu, regionumuzda təhlükəsizliyin möhkəmlənməsi və sülhə nail olunması üçün imkanlar yaradır. Biz buna çalışırıq və hesab edirik ki, başqa alternativ yoxdur. Son həftələrdə baş verən hadisələrin mətbuatda, ilk növbədə, Qərb mediasında müxtəlif cür, deyərdim ki, birtərəfli, qərəzli və nə məsələnin tarixini, nə də bugünkü reallıqları tamamilə əks etdirmədən təqdim olunduğunu nəzərə alaraq, son üç ildə baş verənlər barədə sizi qısaca məlumatlandırmaq istəyirəm. Amma mənim informasiyamın, necə deyərlər, daha dolğun olması üçün tarixə qısa ekskursiya etmək istəyirəm.

Ondan başlayım ki, Dağlıq Qarabağ adlı qurum tarixdə heç vaxt mövcud olmayıb. 1805-ci ildə Rusiya imperiyasının tərkibinə daxil olmuş Qarabağ xanlığı olub. Kürəkçay sülh müqaviləsi imzalanıb, onu Azərbaycan tərəfindən Qarabağ xanı İbrahim Xəlil xan,- o, Qarabağın və Şuşanın xanı idi,- Rusiya tərəfindən isə çar generalı Sisianov imzalayıblar. Kürəkçay müqaviləsinin mətni internetdə var və hər kəs tanış ola bilər. Orada erməni əhalisi və ya erməni əhalisinin hansısa xüsusi hüquqları haqqında heç bir xatırlatma yoxdur. Yəni, bu, bir daha aydın şəkildə ondan xəbər verir və tarixçilər də yaxşı bilirlər ki, Qarabağ əsrlər boyu, minilliklərlə bu ərazidə yaşamış azərbaycanlıların məskunlaşdığı qədim torpaqdır. Kürəkçay sülh müqaviləsindən sonra Azərbaycan xanlıqları ilə Rusiya arasında digər Azərbaycan xanlıqlarının, o cümlədən İrəvan xanlığının da Rusiyanın tərkibinə daxil olduğu daha iki – 1813-cü ildə Gülüstan sülh müqaviləsi və 1828-ci ildə Türkmənçay müqaviləsi olub. Həmçinin bu sənədlərdə, təbii ki, söhbət Azərbaycan torpaqlarından gedirdi. Cənubi Qafqazın sovetləşdirilməsindən sonra Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldı. O nə üçün yaradıldı? Çünki XIX əsrin həmin sənədlərindən sonra erməni əhalisinin İrandan və Şərqi Anadoludan Azərbaycan ərazilərinə kütləvi köçü başlandı. Artıq sovetləşdirmə məqamında Azərbaycanın Qarabağ regionunun milli tərkibi XIX əsrin əvvəlində olduğundan fərqli idi. Bunları nəzərə alaraq, ola bilər ki, daha hansısa səbəblərdən sovet hakimiyyəti, Sovet İttifaqı artıq həmin vaxt Dağlıq Qarabağ Muxtar Vilayətini, hətta respublika deyil, Azərbaycan SSR-in tərkibində vilayət yaratdı. Bu, tam yüz il əvvəl baş verib. Artıq Sovet İttifaqında mərkəzdənqaçma meyilləri başlayan vaxtda, erməni separatçılığının və təcavüzkar ekstremizmin baş qaldırdığı 1980-ci illərin sonunda qeyri-rəsmi ekstremist təşkilatları yaradıldı, təəssüf ki, mərkəzi sovet rəhbərliyi tərəfindən buna lazımi qiymət verilmədi, bir çox hallarda isə onları dəstəklədilər.

Hamımız 1980-ci illərin sonunda Sovet İttifaqına kimin başçılıq etdiyini xatırlayırıq və təbii ki, başqa nə isə gözləmək mümkün deyildi. Bütün bunlar ona gətirib çıxardı ki, Azərbaycan və erməni xalqları arasında ənənəvi sülh, dostluq və qarşılıqlı anlaşma münasibətləri pozuldu, zərərli milli müstəsnalıq, üstünlük ideologiyası ortaya atıldı və Azərbaycanın Qarabağ torpağına iddiaları əsaslandırmaq üçün cəhdlər edilməyə başlandı. Bu tendensiyalar artıq Sovet İttifaqının süqutundan sonra açıq təcavüz və Azərbaycan torpaqlarının işğalı ilə davam etdi. Nəticədə Azərbaycan ərazisinin təxminən 20 faizi – həm Qarabağ bölgəsi, həm keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti, həm də həmin muxtar quruma heç bir aidiyyəti olmayan yeddi rayon işğal edildi. Etnik təmizləmə həyata keçirildi, bir milyondan çox azərbaycanlı öz doğma torpaqlarından qovuldu və 2020-ci ilin payızına qədər vəziyyət belə olaraq qaldı. Azərbaycan bütün vasitələrlə məsələni sülh yolu ilə həll etməyə çalışdı. Biz ATƏT-in himayəsi altında uzunmüddətli və nəticəsiz danışıqlar prosesində iştirak etdik. Yeri gəlmişkən, bu münaqişənin nizama salınmaması bir daha göstərir ki, ATƏT-də böyük dəyişiklik olmalıdır. Bu münaqişənin timsalında biz həm də Birləşmiş Millətlər Təşkilatının öz nüfuzundan və öz rıçaqlarından istifadə edə bilməməsinin şahidi olduq. Belə ki, BMT Təhlükəsizlik Şurasının erməni qüvvələrinin Azərbaycan ərazilərindən dərhal çıxarılmasını tələb edən dörd qətnamə qəbul etməsinə baxmayaraq, onlar əməldə yerinə yetirilmədi. Biz uzun müddət gözlədik, bizim ümidlərimiz var idi. Mən 2004-cü ildən müxtəlif mərhələlərdə danışıqlarda iştirak etdim, lakin təəssüf ki, 2019-cu ildə bütün ümidlər puça çıxdı. O vaxt Ermənistanın baş naziri bəyan etdi ki, "Qarabağ Ermənistandır və nöqtə". O, bununla bütün danışıqlara son qoydu və onları tamamilə mənasız etdi. Onu demək lazımdır ki, bu, suveren Azərbaycan dövlətinə qarşı açıq ərazi iddiası idi, çünki dünyanın heç bir ölkəsi, o cümlədən Ermənistan qondarma "Dağlıq Qarabağ respublikasını" tanımırdı. Yəni, erməni rəhbərliyinin bu təxribatçı, düşünülməmiş, deyərdim ki, aydın olduğu kimi, özünə qarşı sui-qəsdçi addımı və digər, o cümlədən hərbi xarakterli təxribat fəaliyyətləri, 2020-ci ilin sentyabrında 44 gün davam edən, Ermənistan ordusunun tamamilə darmadağın olması və Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi ilə nəticələnən İkinci Qarabağ müharibəsinin başlanmasına gətirib çıxardı. Rusiya Federasiyasının və şəxsən Prezident Vladimir Vladimiroviç Putinin vasitəçiliyi ilə 2020-ci il noyabrın 9-dan 10-na keçən gecə keçmiş Dağlıq Qarabağ regionunun ətrafındakı rayonların hələ də işğal altında olan ərazilərinin də Azərbaycana qaytarılmasını, regiona isə Rusiya sülhməramlı kontingentinin yeridilməsini nəzərdə tutan üçtərəfli Bəyanat imzalandı.

Məsələnin qısa tarixçəsi budur. Belə bir sual yarana bilər: bəs, üç həftə əvvəl nə baş verib? Belə ki, barəsində danışdığım Bəyannamənin imzalanmasına baxmayaraq, Ermənistan onun bəndlərini yerinə yetirmirdi, halbuki ən vacib bəndlərdən birində deyilirdi ki, bütün erməni silahlı qüvvələri Qarabağ ərazisindən çıxarılmalıdır. Buna əməl edilmədi, həm də nümayişkaranə şəkildə edilmədi. Hətta iki il ərzində - 2020-ci ildən 2023-cü ilin əvvəlinədək, Azərbaycanın Laçın rayonunda sərhədə nəzarət etmədiyi bir vaxtda, oraya sayı milyonlarla ölçülən nəhəng döyüş silah-sursatları daşınıb, bu isə tamamilə yaxın vaxtlarda aşkara çıxarılıb. Minalar gətirilib, ərazi əlavə olaraq minalanıb. Bütün bunların hamısı ona gətirib çıxarıb ki, azərbaycanlılar öz torpaqlarında həlak olmağa davam ediblər. İkinci Qarabağ müharibəsi başa çatandan sonra bizim 315 nəfər hərbi və mülki vətəndaşlarımız həlak olmuş və ağır şəkildə yaralanmışlar. Təəssüf ki, onların sayı hər həftə artır.

Azərbaycana qarşı ərazi iddialarına son qoymaqla bağlı Ermənistana edilən çoxsaylı çağırışlar qəribə reaksiyaya səbəb olub ki, həm də bununla bağlı sizi məlumatlandırmaq istərdim. Bir il əvvəl - ötən ilin oktyabr ayında Ermənistan və Azərbaycan rəhbərlərinin beynəlxalq tərəfdaşlarla görüşündə Bəyanat qəbul edildi. Bu sənədə əsasən hər iki ölkə bir-birinin ərazi bütövlüyünü tanıdıqlarını və ölkələrimizin ərazi bütövlüyünü təsdiqləyən 1991-ci il Alma-Ata bəyannaməsinin tərəfdarı olduqlarını bəyan etdilər. Biz bunu Ermənistan tərəfindən atılan mühüm addım hesab etdik, Azərbaycana qarşı ərazi iddialarından nəhayət əl çəkəcəyini zənn etdik. Lakin təəssüf ki, ümidlərimiz doğrulmadı. Azərbaycanın ərazi bütövlüyünü sözdə və kağız üzərində tanıyan Ermənistan rəhbərliyi əməldə hər şeyin əksini edirdi. Təxribat hərəkətlərinə son qoymaqla bağlı Azərbaycanın etdiyi çoxsaylı çağırışlar təəssüf ki, bütün ciddiliyi ilə qəbul edilmədi. Vəziyyət daha da gərginləşdi, çünki bu il sentyabrın 2-də Ermənistanın baş naziri qondarma "Dağlıq Qarabağ respublikasının" yaradılmasının ildönümü ilə bağlı təbrik məktubu göndərdi. Bu, qırmızı xətti keçmək demək idi və təbii ki, Azərbaycan buna dözə bilməzdi. Bu, bizim ərazimizə qarşı açıq-aşkar iddia irəli sürülməsi idi. Sentyabrın 9-da qondarma "Dağlıq Qarabağ"ın qondarma hakimiyyət orqanları "seçki" keçirdilər, özlərinə yeni başçı seçdilər, bu isə mövcud reallıqların tam şəkildə inkar edilməsi demək idi və sentyabrın 19-da Azərbaycana antiterror tədbirləri keçirmək və öz suverenliyini tam şəkildə bərpa etmək üçün başqa seçim yolu qoymadı. Bir sutkadan da az davam edən tədbirlər nəticəsində Ermənistanın Qarabağdakı ordusu tamamilə tərk-silah edildi, 10-15 min nəfərlik çoxminli kontingent silahsızlaşdırıldı və ərazimizin üzərində tam nəzarət bərpa olundu. Buna paralel olaraq, biz artıq Qarabağın erməni əhalisinin reinteqrasiya planını açıq şəkildə dərc etdik, bu plan internetdə də mövcuddur. Erməni əhalisinə öz evlərində qalmaqla bağlı çağırış edildi, çünki bizim tədbirlərin hədəfləri dəqiq xarakter daşıyırdı. Mülki infrastruktur, mülki obyektlər və mülki şəxslər zərər çəkmədilər. Artıq dediyim kimi, bütün tədbirlər 24 saatdan da az davam etdi. Bu müddət Ermənistanın qanunsuz hərbi birləşmələrinin tam şəkildə demoralizasiyası və mahiyyət etibarilə, təslim olması üçün kifayət etdi. Bu gün ərazilərin quldur dəstələrindən təmizlənməsi prosesi gedir. Bizdə olan məlumatlara görə, hələ ərazimizdə gizlənməyə davam edən müəyyən qruplar mövcuddur. Sentyabrın 20-dən sonra Qarabağda hərbi təxribatlar törədildi. Ərazi kifayət qədər böyükdür, dağlıqdır, meşəlikdir, buna görə də bizə ərazini quldur birləşmələrindən tamamilə təmizləmək üçün vaxt lazım olacaq. Bax, prinsip etibarilə, məsələnin tarixçəsi bundan ibarətdir.

Bəs ətrafda nə baş verir? Bunu da düşünürəm ki, ətrafda baş verənlər barədə verdiyimiz qiyməti bizdən eşitməyiniz sizin üçün maraqlı olar. Ondan başlayaq ki, Azərbaycan həm işğal müddətində, həm İkinci Qarabağ müharibəsində, həm də antiterror tədbirləri zamanı bütün humanitar normalara riayət edib. Beynəlxalq ekspertlər bunun şahididirlər. Yeri gəlmişkən, bu yaxınlarda azad edilmiş ərazilərdə səfərdə olan BMT missiyası dünən və bundan təxminən bir həftə əvvəl artıq iki dəfə məhz bunu vurğulayıb ki, bütün humanitar normalara əməl olunub. Bununla belə, Qərbdəki erməni havadarları Azərbaycana qarşı iyrənc təxribata və yalançı kampaniyaya əl ataraq hər şeydə bizi ittiham edirlər. Burada əsas skripkanı çalan Fransadır və bu, həm sözügedən ölkənin rəsmi şəxslərinin bəyanatlarında, həm Azərbaycanın diskreditasiya edilməsi cəhdlərində, həm də Azərbaycana qarşı aparılan və hər şeyin alt-üst şəkildə təqdim edildiyi media kampaniyasında özünü büruzə verir. Azərbaycan işğalçı kimi təqdim edilir, Ermənistan isə qurban kimi qələmə verilir. Otuzillik işğalın tarixi, bütün şəhər və kəndlərimizin yerlə-yeksan edilməsi, Xocalı soyqırımı – bütün bunların hamısı, təbii ki, inkar edilir, tamamilə yalanla dolu hekayələr uydurulur. Lakin yeri gəlmişkən, onu da deməliyəm ki, elə dünən mənə bir videosüjet təqdim etdilər. Həmin videoda ABŞ prezidentliyinə namizəd Azərbaycana qarşı ittihamlarla çıxış edir və bu zaman ermənilər tərəfindən Gəncə şəhərinin raket atəşinə tutulması ilə bağlı kadrları nümayiş etdirir. Belə saxtakarlığa və həyasızlığa yol verəcək qədər simasızlaşmaq qeyri-mümkündür. İkinci Qarabağ müharibəsi zamanı Ermənistan münaqişə zonasından yüz kilometrlərlə uzaqda yerləşən şəhərlərimizi uzaqmənzilli artilleriyadan, o cümlədən ballistik raketlərdən atəşə tutdu. Bunun nəticəsində bizim uşaqlar da daxil olmaqla, yüzdən artıq mülki vətəndaşımız həyatını itirdi. Məhz sözügedən həmin namizəd, Azərbaycanı ittiham edərək, ermənilərin Gəncəyə və Bərdəyə hücumlarının kadrlarını nümayiş etdirir. İndi bu insanlarla necə danışmaq olar, onlara nəyi izah etmək olar? Onlar heç nə eşitmək istəmirlər. Onlar mərkəzdən verilən təlimata uyğun hərəkət edirlər. Ona görə də biz indi Azərbaycana qarşı aparılan misli görünməmiş informasiya müharibəsi ilə üz-üzə qalmışıq. Biz, əlbəttə, öz gücümüzlə buna müqavimət göstəririk, baş verənlərlə bağlı həqiqətləri çatdırmağa çalışırıq və çatdırırıq. Ancaq başa düşmək lazımdır ki, güclər qeyri-bərabərdir. Çoxillik müstəmləkəçilik tarixinə malik Fransa kimi ölkələrin dünya üzrə media resursları bizdəkindən qat-qat çoxdur.

Lakin bununla belə, biz müxtəlif platformalardan və beynəlxalq təşkilatlardan, habelə digər formalardan istifadə edərək, baş verənlər barədə həqiqətləri çatdırırıq və bundan sonra da çatdıracağıq.

Fransadan danışanda, bu ölkənin rəhbərliyinin 2020-ci ilin bütün dövründən başlayan və indi də davam edən qeyri-konstruktiv və təxribatçı rolunu da qeyd etmək istərdim. Azərbaycanın ünvanına çoxsaylı ittihamlar, əsassız təhdidlər və şantaj heç bir səmərə vermədi. Fransa Prezidentinin bu yaxınlarda Azərbaycanın beynəlxalq hüquqla problemləri olduğuna dair verdiyi bəyanat yalnız gülüş doğura bilər. Çünki Azərbaycan beynəlxalq hüququ pozmayıb. Biz öz ərazimizdə döyüşmüşük, separatizmi aradan qaldırmışıq, bütün humanitar normalara, Cenevrə Konvensiyasına əməl etmişik. Beynəlxalq hüququ isə 30 il ərzində Fransanın əlaltısı, bu gün onun əsas müttəfiqi olan Ermənistan başqa dövlətin ərazisini işğal edərək pozub. Necə deyərlər, öz gözündə tiri görməyib başqasının gözündə tük axtarmaq lazım deyil. Fransız rejimi milyon yarım əlcəzairlini təkcə əlcəzairli və müsəlman olduğuna görə məhv edib. Bu, soyqırımıdır. Hələ Fransanın Afrikada, Afrikanın digər hissələrində və bütün dünyada qanlı cinayətlərini demirəm. Fransanın bu gün müstəmləkələr saxlaması da ağlasığmazdır. Azərbaycan və şəxsən mənim tərəfimdən bu məsələ Qoşulmama Hərəkatının sədri kimi dəfələrlə Qoşulmama Hərəkatının sammitlərində qaldırılıb və qanlı müstəmləkə keçmişi olan və hətta bu gün bəzi Afrika ölkələrinin nə qədər səy göstərsələr də, xilas ola bilmədikləri bu ölkə bizi beynəlxalq hüququ pozmaqda ittiham edir. Bu, absurddur.

Daha bir məsələ. İndi bəzi ölkələr və beynəlxalq təşkilatlar Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılmasında vasitəçilik xidmətləri göstərməyə çalışır. Mən bu yaxınlarda demişəm ki, əgər bu siyasət birtərəfli xarakter daşımırsa və qərəzli deyilsə, biz bu cəhdləri qəbul edirik. Amma Fransanın bir tərəfdən bütün diplomatik normaları pozduğunu, təhqirlərlə səciyyələnən bəyanatlarını, çirkin uydurmalarını, təxribat və yalanlarını görürüksə, digər tərəfdən onun vasitəçilik xidmətləri göstərmək cəhdləri heç bir məntiq çərçivəsinə sığmır. Bizə belə vasitəçilər lazım deyil. Bu birincisi. İkincisi, kimsə vasitəçilik etmək istəyirsə, bu, PR-aksiyası xarakteri daşımamalı, əməldə nəticəyə yönəlməlidir.

Həmçinin sizə məlumat vermək istəyirəm ki, oktyabrın 12-də, bir gün sonra Rusiya tərəfinin təklifi ilə Rusiya, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Bişkekdə görüşü olmalı idi. Biz Rusiya Federasiyasının vasitəçiliyini minnətdarlıqla qəbul edirik, çünki Rusiya bizim qonşumuz, müttəfiqimiz, həmçinin bizim regionda yerləşən, minlərlə kilometr uzaqda olan ölkələrdən fərqli olaraq qonşuluqda yerləşən Ermənistanın da müttəfiqidir. Təbii ki, ölkələrimiz arasında münasibətlərin tarixi, əlbəttə, Rusiya tərəfinin vasitəçiliyini nəzərdə tutur. Biz bu təklifi müsbət qarşıladıq və xarici işlər nazirimiz Rusiya və erməni həmkarları ilə görüşməyə hazır idi. Təəssüf ki, erməni tərəfi bu görüşdən imtina etdi. İndi sual yaranır: Ermənistan sülh istəyirmi? Zənnimcə, xeyr, çünki əgər sülh istəsəydi, bu imkandan imtina etməzdi. Ermənistanın baş naziri 6 saata Qranadaya uçur, orada Azərbaycansız Azərbaycanın müzakirə edildiyi mənasız görüşdə iştirak edir, amma 2-3 saata Bişkekə uça bilmir, onun mühüm işləri varmış. Bax, biz bütün bunları açıq deməliyik. Bütün bunları hamı görür, ancaq bunu danışmaq və nəzərə almaq lazımdır.

Öz şərhlərimə yekun vuraraq onu da demək istərdim ki, Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşmasına gəldikdə, biz buna hazırıq. Biz sülh sazişi üzərində işi davam etdirməyə hazırıq. Erməni tərəfinin Rusiya Federasiyasının vasitəçiliyindən imtina edəcəyi təqdirdə, düşünürəm ki, Azərbaycan ilə Ermənistanın xarici işlər nazirləri arasında birbaşa danışıqlar alternativ ola bilər. Hər hansı digər platformalar öz xidmətlərini təklif edən həmin ölkələrin Azərbaycana deyil, həqiqətə, haqlı mövqeyə və beynəlxalq hüquqa münasibəti nəzərə alınmaqla tərəfimizdən təhlil ediləcək.

Vaxt tapıb gəldiyinizə görə bir daha sizə təşəkkürümü bildirmək istərdim. İndi hər yerdə çətin zamandır, hamının işi çoxdur, amma bu gün sizin Bakıda olmağınız həm də ölkəmizə, dövlətlərimizin xüsusi xidmət orqanları arasında əməkdaşlığın səviyyəsinə münasibətinizi göstərir və keçmiş SSRİ məkanında mühüm təhlükəsizlik amilidir. Zənnimcə, biz əməkdaşlığımızı möhkəmləndirməliyik. Tarixi əlaqələr, ortaq keçmişimiz – bütün bu amillər MDB məkanında dostluğun möhkəmlənməsinə və qarşılıqlı dəstəyə kömək edəcək. Beləliklə, bir daha sizi salamlayır, bugünkü tədbirdə uğurlar diləyirəm.

***

**Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidmətinin direktoru, MDB dövlətlərinin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri şurasının sədri Aleksandr Bortnikov dedi:**

-Hörmətli İlham Heydər oğlu.

Əvvəlcə, MDB-yə üzv dövlətlərin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri Şurasının növbəti iclasının Azərbaycanda keçirilməsinə şərait yaratdığınız üçün Sizə təşəkkür etmək istəyirəm. Bu, artıq Şuramızın fəaliyyəti dövründə keçirdiyimiz beşinci iclasdır. Azərbaycan həmişə Şuranın işinin təşkili üçün əlverişli və gözəl şərait yaradır. Əlbəttə, biz bugünkü tədbirimizin hazırlanmasında aparılan ilkin işlərə görə Azərbaycan Təhlükəsizlik Xidmətinin rəhbərinə də minnətdarıq. Demək istəyirəm ki, fəaliyyət göstərdiyi bütün dövr ərzində Şura öz əhəmiyyətini sübut edib. Sizin bu gün xüsusi xidmət orqanlarının rəhbərlərinə çatdırdığınız məsələlərin əksəriyyəti Sovet İttifaqının süqutundan sonra qarşılaşdığımız problemlərin fonunda real olaraq mövcuddur.

Çox təəssüf ki, hər bir respublika, hər bir suveren dövlət bu və ya başqa dərəcədə bizim Şuranın tədbirlərində müzakirə etdiyimiz problemləri yaşayıb. Bunlar bizim son illər daim bəhs etdiyimiz separatçılıq və ekstremizm təzahürləridir. Biz bu və ya başqa dərəcədə bununla qarşılaşmışıq. Biz bilavasitə dövlətlərimizin təhlükəsizliyi, suverenliyi, konstitusiya quruluşu ilə bağlı məsələlərdən danışırıq, belə ki, həm ölkənin daxilində olan, həm də xarici amillərlə bağlı bəzi problemlərin hamısı ümumilikdə təhlükəsizlik məsələlərinə təsir göstərir.

Çox təəssüf ki, son vaxtlar MDB dövlətlərinin demək olar ki, hamısı Sizin indi söylədiyiniz bu və ya digər məsələlərlə qarşılaşır. Hesab edirəm ki, bugünkü iclasımız birgə işimizin bütün istiqamətləri üzrə irəliləməyə kömək edəcək.

İlham Heydər oğlu, yaradılan şəraitə və bugünkü görüşdə bizə verdiyiniz tövsiyələrə, tarixi arayışa, hazırda bizim içərisində olduğumuz MDB məkanında və regionda baş verən proseslərin əsaslandırılmasına görə bir daha Sizə təşəkkür etmək istəyirəm. Bu, baş verənlərin anlaşılması və obyektiv qiymətləndirilməsi baxımından çox əhəmiyyətlidir. Əlbəttə, bugünkü iclasın nəticələrindən gələcəkdə dövlətlərimizin təhlükəsizliyinin təmin edilməsi məsələlərinin həllində maksimum dərəcədə səmərəli və məhsuldar istifadə etmək üçün bizdən asılı olan hər şeyi edəcəyik.

Çox sağ olun.

***AZƏRTAC***

# Bir sıra birinci instansiya məhkəmələri hakimlərinin təyin edilməsi və bəzi birinci instansiya məhkəmələri hakimlərinin vəzifələrinin dəyişdirilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Məhkəmə-Hüquq Şurasının təkliflərini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü və 96-cı maddələrinə uyğun olaraq, hakim vəzifəsinə aşağıdakı namizədlər birinci instansiya məhkəmələrinin hakimləri təyin edilsinlər:

**Ağır cinayətlər məhkəmələri üzrə:**
**Lənkəran Ağır Cinayətlər Məhkəməsi**
Məmmədova Esmira Qərib qızı
Şəki Ağır Cinayətlər Məhkəməsi
Əfəndizadə Tural Qurbanəli oğlu
**İnzibati məhkəmələr üzrə:**
**Naxçıvan Muxtar Respublikasının İnzibati Məhkəməsi**
Əliyev Tural Yusif oğlu
**Gəncə İnzibati Məhkəməsi**
Əliyeva Leyla Kamil qızı
**Sumqayıt İnzibati Məhkəməsi**
Həbibova Könül Əbülfəz qızı
**Şirvan İnzibati Məhkəməsi**
Qurbanova Pərvanə Tahir qızı
kommersiya məhkəmələri üzrə:
**Gəncə Kommersiya Məhkəməsi**
Qələndərzadə Ramiq Ramis oğlu
**Sumqayıt Kommersiya Məhkəməsi**
Həmidli Fərman Fəzail oğlu
hərbi məhkəmələr üzrə:
**Gəncə Hərbi Məhkəməsi**
Beşirov Cəmil İsmayıl oğlu
Quliyev Tariyel Şirindil oğlu
Bakı şəhərinin rayon məhkəmələri üzrə:
**Bakı şəhəri Binəqədi Rayon Məhkəməsi**
Məmmədov Pərviz Şahin oğlu
**Bakı şəhəri Nəsimi Rayon Məhkəməsi**
Musayeva Vüsalə Vahid qızı
**Bakı şəhəri Nizami Rayon Məhkəməsi**
Əliyeva Starə Vidadil qızı
**Bakı şəhəri Suraxanı Rayon Məhkəməsi**
Muradov Pərviz Namiq oğlu
Rzayeva Fəridə İslam qızı
**Rayon (şəhər) məhkəmələri üzrə:**
**Abşeron Rayon Məhkəməsi**
Qasımov Abusət Sahib oğlu
Mirhəsənli Mirnəsir Mirfazil oğlu
**Ağdaş Rayon Məhkəməsi**
Mürsəlova Aygün Mayıl qızı
**Füzuli Rayon Məhkəməsi**
İsmayılov Elmir Akif oğlu
**Gəncə Şəhər Məhkəməsi**
Xanməmmədova Liza Əliəşrəf qızı
**Göyçay Rayon Məhkəməsi**
Qurbanova Gülnaz İntiqam qızı
**Hacıqabul Rayon Məhkəməsi**
Bayramov Orxan Telman oğlu
**Xaçmaz Rayon Məhkəməsi**
Abiyeva Nərmin Mirhəsən qızı
Əliyeva Aynur Məhəmməd qızı
**Mingəçevir Şəhər Məhkəməsi**
Quliyeva Güləndam Gündüz qızı
**Salyan Rayon Məhkəməsi**
Əliyeva Vəsilə Əlövsət qızı
**Sumqayıt Şəhər Məhkəməsi**
İsmayılov Samir Bəyistan oğlu
Şirəliyeva Vəfa Zavrulla qızı
**Şabran Rayon Məhkəməsi**
Mirzəfərova Könül Murtuz qızı
**Şəki Rayon Məhkəməsi**
Musayev Kamran İbrahim oğlu
**Şirvan Şəhər Məhkəməsi**
Məmmədli Aydan Zakir qızı
**Ucar Rayon Məhkəməsi**
Bədəlov Xəyal Natiq oğlu.

**2.** "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq aşağıdakı hakimlərin vəzifələri dəyişdirilsin:

Aytən Heydər qızı Əliyeva Bakı Kommersiya Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

Kamran Nüsrət oğlu Muxtarov Gəncə Hərbi Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

Elnur Aləm oğlu Nuriyev Bakı şəhəri Suraxanı Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

Anar Böyükkişi oğlu Sadıqov Xaçmaz Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

Azər Heydər oğlu Tağıyev Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

Nurəddin Nizami oğlu Hüseynli Gəncə Hərbi Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Sumqayıt Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

Elçin Qüdrət oğlu Məmmədov Sumqayıt Şəhər Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Sumqayıt Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

Nahid Namiq oğlu Mirzəyev Şəki Ağır Cinayətlər Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Sumqayıt Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

Kənan Zakir oğlu Hüseynov Gəncə Şəhər Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Kommersiya Məhkəməsinin hakimi təyin edilsin;

Fikrət Hüseyn oğlu Əliyev Sumqayıt Şəhər Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Hərbi Məhkəməsinin hakimi təyin edilsin.

**3.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 11 oktyabr 2023-cü il**

# İqtisadi Şuranın və Azərbaycan İnvestisiya Holdinqinin Müşahidə Şurasının növbəti iclası



**Oktyabrın 11-də İqtisadi Şuranın və Azərbaycan İnvestisiya Holdinqinin Müşahidə Şurasının növbəti iclası keçirilib.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun sədrliyi ilə keçirilən birgə iclasın gündəliyində ölkənin neft-qaz hasilatı sahəsində cari vəziyyət və perspektivlər, o cümlədən SOCAR-ın və ümumilikdə respublikanın neft-qaz sektorunun uzunmüddətli inkişaf planları, gələcək hasilat proqnozları, Heydər Əliyev adına Neft Emalı Zavodunun Yenidənqurma və Modernizasiya Layihəsinin icra vəziyyəti, həmçinin Layihənin icrası üçün tələb olunan əlavə işlər və digər cari məsələlər geniş müzakirə olunub.

Tədbirdə SOCAR-ın prezidenti Rövşən Nəcəfin məruzəsi və Azərbaycan İnvestisiya Holdinqinin Baş icraçı direktoru Ruslan Əlixanovun çıxışı dinlənilib.

İclasın yekununda müzakirə olunan məsələlər barədə Şuranın üzvlərinin təklifləri nəzərə alınmaqla AİH-nin İdarə Heyətinə və SOCAR-a müvafiq tapşırıqlar verilib.

# MDB ölkələrinin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərlərinin Bakı görüşü



**Oktyabrın 11-də Bakı şəhərində MDB-yə üzv dövlətlərin təhlükəsizlik orqanları rəhbərləri Şurasının (SORB) 53-cü iclası keçirilib.**

Əvvəlcə tədbir iştirakçıları Fəxri xiyabanda müasir Azərbaycanın banisi və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət edərək önünə gül dəstələri qoyub, Ulu Öndərin əziz xatirəsini dərin ehtiramla yad ediblər.

DTX-nin rəisi general-polkovnik Əli Nağıyev giriş nitqində qonaqları Azərbaycanda salamlamaqdan məmnun olduğunu bildirib, tədbirin Bakı şəhərində keçirilməsinin xüsusi əhəmiyyət daşıdığını diqqətə çatdırıb. Xidmət rəisi SORB-un Belarusun Minsk şəhərində keçirilən son iclasından ötən qısa zaman ərzində dünyada təhlükəsizlik və geosiyasi cəhətdən bir sıra köklü dəyişikliklərin baş verdiyini, bəzi ölkələrdə yeni münaqişə ocaqlarının yarandığını, beynəlxalq terrorçuluq, transmilli mütəşəkkil cinayətkarlıq, dini ekstremizm, narkotik vasitələrin qanunsuz dövriyyəsi hallarının artdığını və bu vəziyyətin ölkələrdə əməliyyat şəraitini xeyli mürəkkəbləşdirdiyini qeyd edib, tədbirin göstərilən istiqamətlərdə təcrübə və fikir mübadiləsi aparmağa, MDB dövlətlərinin mənfi təzahürlərə qarşı birgə mübarizə üsullarını və koordinasiyalı iş mexanizmini daha da təkmilləşdirməyə, gələcək fəaliyyətin konturlarını cızmağa əlavə imkanlar yaradacağına, mövcud ikitərəfli və çoxtərəfli əməkdaşlıq əlaqələrinin yeni mərhələyə yüksələcəyinə inandığını deyib. Əli Nağıyev iclasın gündəliyində həlli vacib məsələlərin durduğunu, tədbir çərçivəsində dövlətlərin təhlükəsizliyi baxımından mühüm qərarların qəbul ediləcəyinə, ümumilikdə iclasın məhsuldar keçəcəyinə ümidvar olduğunu bildirib.

Respublikamızda təhlükəsizliyə və sabitliyə əsas təhdidlərdən sayılan, Azərbaycanın Qarabağ bölgəsində fəaliyyət göstərmiş qanunsuz erməni silahlı birləşmələrinə qarşı həyata keçirilmiş antiterror tədbirləri barədə məlumat verən general-polkovnik Əli Nağıyev bildirmişdir ki, həmin cinayətkar birliklərin 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın ziddinə olaraq ərazilərimizdən çıxmaması, son zamanlar onlar tərəfindən yaşayış məntəqələrinin və kommunikasiyaların davamlı minalanması, ordumuzun mövqelərinin fasiləsiz atəş altında saxlanılması, mülki vətəndaşların və polis əməkdaşlarının həlak olması ilə nəticələnən terror aktlarının törədilməsi qısamüddətli antiterror tədbirlərinin keçirilməsini zəruri və təxirəsalınmaz edib, bununla da Azərbaycan Respublikası öz suverenliyini bərpa edib.

Sonra iclas birlik ölkələrinin təhlükəsizlik məsələləri üzrə, o cümlədən MDB məkanında sabitliyin pozulmasına yönələn destruktiv fəaliyyətə və yeni çağırışlara qarşı səylər birləşdirilməklə birgə mübarizəyə dair digər iştirakçıların çıxışları və qarşılıqlı müzakirələrlə davam etmiş, yekun sənədlərin imzalanması ilə başa çatıb.

Xatırladaq ki, tədbirdə Xarici Kəşfiyyat Xidmətinin rəisi general-polkovnik Orxan Sultanov və MDB ölkələrinin müvafiq orqanlarının rəhbərləri iştirak ediblər.

**XQ**

# Rumıniya Azərbaycanla strateji tərəfdaş olan ilk Avropa İttifaqı ölkəsidir

**Milli Məclisin Sədri Sahibə Qafarova Rumıniyaya rəsmi səfəri çərçivəsində bu ölkənin Baş naziri İon-Marçel Çolaku ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən qəzetimizə verilən məlumatda bildirilir ki, qonaqları salamlayan Rumıniyanın Baş naziri Azərbaycana səfərini və səfər çərçivəsində Prezident İlham Əliyevlə görüşünü xoş təəssüratlarla xatırlayıb. O, iki ölkə arasında strateji münasibətlərin uğurla inkişafını qeyd edərək, Azərbaycan və Rumıniyanın sadəcə tərəfdaş deyil, həm də dost ölkələr olduğunu vurğulayıb. Baş nazirin sözlərinə görə, Azərbaycanın dövlət müstəqilliyini Türkiyədən sonra dünyada ikinci tanıyan ölkə Rumıniyadır. Həmçinin, Rumıniya Azərbaycanla strateji tərəfdaşlığa dair saziş imzalayan ilk Avropa İttifaqı ölkəsidir. Azərbaycanın Rumıniyanın Cənubi Qafqazda birinci ticarət tərəfdaşı olduğunu diqqətə çatdıran İon-Marçel Çolaku ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişafı üçün daha böyük potensial olduğunu qeyd edib.

İ.Çolaku, həmçinin Azərbaycanın Avropa İttifaqının enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rolu barədə danışıb. O, avropalı həmkarları ilə də Cənub Qaz dəhlizini müzakirə etdiyini xatırladaraq deyib ki, nəqliyyat sahəsində də Azərbaycan mühüm rola malikdir. Onun sözlərinə görə, Qara dəniz və Xəzər dənizi arasında nəqliyyat bağlantısının gücləndirilməsi üçün yaxşı imkanlar mövcuddur. "Yaşıl enerji" layihələrinin vacibliyini vurğulayan İon-Marçel Çolaku deyib ki, Avropanın hazırda "yaşıl enerji"yə ciddi ehtiyacı var. Azərbaycandan "yaşıl enerji"-nin ixracı məsələsi əhəmiyyətlidir.

Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycan-Rumıniya dostluq münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsində uğurla inkişaf etdiyini deyərək, Baş nazirin Rumıniya Deputatlar Palatasının Sədri kimi cari ilin fevral ayında ölkəmizə səfərini və onunla görüşünü məmnunluqla xatırlayıb. O, ikitərəfli münasibətlərin inkişafında dövlət başçıları səviyyəsində qarşılıqlı səfərlər və görüşlərin müstəsna rolunu qeyd edərək, Azərbaycan və Rumıniya prezidentlərinin qarşılıqlı səfərlərini xatırladıb. S.Qafarova bu səfərlərin ölkələrimiz arasında yüksək səviyyəli fəal siyasi dialoqun mövcudluğunun göstəricisi olduğunu bildirib.

Parlamentinin rəhbəri iki ölkə arasında imzalanmış müqavilələrdən söhbət açıb və deyib ki, hüquqi baza kifayət qədər zəngindir. Qeyd olunub ki, bu günə qədər iki ölkə arasında 60-dan çox sənəd imzalanıb. Bu da ikitərəfli münasibətlər üçün mühüm hüquqi baza təşkil edir. Onun sözlərinə görə, hazıra ölkələrimiz arasında iqtisadiyyat, enerji sahəsində əlaqələr yaxşı səviyyədədir, ticarət dövriyyəsi getdikcə artmaqdadır. Bununla yanaşı, müxtəlif sahələr üzrə əməkdaşlığın genişləndirilməsi üçün əlverişli potensial var.

S.Qafarovanın sözlərinə görə, hazırda enerji təhlükəsizliyi məsələsində yeni perspektivlər var. O cümlədən, "yaşıl enerji" sahəsində əməkdaşlığın gücləndirilməsi imkanları mövcuddur.

Sahibə xanım Ermənistanın işğalçılıq siyasətindən də söhbət açıb. O, BMT Təhlükəsizlik Şurası və digər beynəlxalq təşkilatlar tərəfindən qəbul olunmuş və ərazilərimizin Ermənistanın işğalından azad edilməsini nəzərdə tutan qətnamələrin 30 ilə yaxın icra olunmamasını diqqətə çatdırıb. 2020-ci ildə Azərbaycanın öz gücünə həmin qətnamələrin icrasını yerinə yetirib. Amma çox paradoksaldır ki, bu gün bəzi dairələr özünün beynəlxalq hüquqla tanınmış, təsdiq olunmuş ərazi bütövlüyünü və suverenliyini bərpa etdiyi üçün Azərbaycana qarşı qərəzli bəyanatlar səsləndirirlər.

Baz nazir İ.Çolaku Rumıniyanın hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini, tezliklə Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanmasını arzuladıqlarını diqqətə çatdırıb.

***

Rumıniyada rəsmi səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyəti Buxarestdəki "Tey" parkında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin abidəsini ziyarət edib və abidənin önünə əklil qoyub.

Xatırladaq ki, 2004-cü ildə Prezident İlham Əliyevin iştirakı ilə Buxarestdə ulu öndər Heydər Əliyevin abidəsinin açılışı olub. Dünya şöhrətli siyasi xadim Heydər Əliyevin Buxarestdə abidəsinin qoyulması Azərbaycan-Rumıniya əlaqələrinin inkişafının təzahürüdür.

**Əliqismət BƏDƏLOV**
**XQ**

# Nazir Masallıda vətəndaşlarla görüşüb



**Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov Masallı Rayon Polis Şöbəsində vətəndaşlarla görüşüb.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, nazir əvvəlcə Masallı rayonundakı ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla anıb.

Sonra rayon polis şöbəsinin inzibati binasında Masallı, Yardımlı, Lerik, Astara, Lənkəran şəhər və rayonlarından qəbula gələn 95 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Müraciətlərin əksəriyyəti yerindəcə həll edilib.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

Sıra baxışında ətraf rayonlarda yaşayan, polis orqanlarında xidmət etmək arzusunda olan gənclər iştirak edib. 18-i Vətən müharibəsi iştirakçısı olmaqla xidmətə qəbulun şərtlərinə uyğun gələn 71 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

**XQ**

# Sülhməramlıların ləğv edilən müşahidə məntəqələri

**Sentyabrın 19-dan Rusiya sülhməramlıları Qarabağda 6 daimi və 15 müvəqqəti müşahidə məntəqəsini bağlayıb.**

Bu barədə Rusiya Müdafiə Nazirliyi məlumat yayıb.

**XQ**



## Azərbycan XİN: açıqlama və müzakirələr

**Oktyabrın 10-da Ermənistanın baş naziri Nikol Paşinyan "Birinci kanal"a müsahibə zamanı Azərbaycana qarşı səsləndirdiyi bir sıra iddialar Ermənistan tərəfinin siyasi manipulyasiyalardan və təhrif olunmuş interpretasiyadan əl çəkmədiyini açıq-aşkar göstərir.**



Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin bununla bağlı açıqlamasında qeyd olunur: "Azərbaycanın "Avropa Siyasi Birliyi"nin Qranada görüşündə iştirakdan imtina etməsini, guya, ölkəmizin sülhə hər vəchlə mane olması kimi qələmə verən Ermənistan tərəfinə ötən ilin dekabrından etibarən bu ölkənin heç bir səbəb olmadan müxtəlif platformalarda iştirakdan yayındığı faktlarını xatırlatmaq istərdik".

Açıqlamada vurğulanır ki, sentyabrın 20-dən sonra bölgədə sülh üçün böyük imkanlar yarandığını dəfələrlə bəyan edən Azərbaycan, eyni zamanda, Ermənistanın ölkəmizə və digər qonşularına qarşı ərazi iddialarından və müdaxilədən çəkinəcəyini gözləyir: "Qranada görüşündə imzaladığı sənəddə müstəqillik, suverenlik, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı, güc tətbiq edilməməsi və güclə hədələməmək kimi prinsiplərə istinad edən baş nazir Nikol Paşinyan və onun ölkəsi həmin tələbləridaim bütün səyləri ilə pozur. Ermənistandan fərqli olaraq, Azərbaycan bu prinsipləri heç zaman təhrif etməyib".

Diqqətə çatdırılır ki, üçtərəfli Bəyanat çərçivəsində öhdəliklərini son üç il ərzində yerinə yetirməyən Ermənistan tərəfi göstərdiyi qeyri-konstruktiv mövqe ilə növbəti dəfə özünütəcrid siyasəti yeridir. Ərazi bütövlüyünə hörmətin və delimitasiyanın hər hansı bir kvadratkilometr ilə ölçülməsi və ya hər iki tərəfdən indiyə qədər təsdiq olunmamış xəritə əsasında müəyyən edilməsi təcrübəsinin mövcud olmadığı bir şəraitdə Ermənistan baş nazirinin yenidən bu məsələlərə istinad etməsi təəccüblüdür.

Eyni zamanda, qeyd olunur ki, Ermənistanın ölkəmizin 8 kəndini işğal altında saxlaması məsələsinə bəraət qazandırmaq məqsədilə, guya, Azərbaycanın hansısa erməni kəndlərinin ərazisini işğal etdiyi iddialarını səsləndirməsi tamamilə yalandır. Ermənistanın baş nazirinin sülh prosesində növbəti dəfə şərtlər irəli sürməsi bu ölkənin tarixdən dərs çıxarmadığını nümayiş etdirir.

### Katrin Kolonanın iddiaları qətiyyətlə pislənilir

**Oktyabrın 11-də Fransanın Avropa və xarici işlər naziri Katrin Kolonanın Fransa Senatında çıxışı zamanı Azərbaycana qarşı səsləndirdiyi əsassız iddialar qətiyyətlə pisləyir və rədd edirik.**

Bu barədə Azərbaycan XİN-in şərhində bildirilib.

Qeyd edilib ki, Fransa nazirinin Azərbaycanın Qarabağ bölgəsini heç bir güc tətbiq edilmədən, könüllü şəkildə tərk edən ermənilərin Ermənistanda yerləşməsinin guya Azərbaycan tərəfindən planlaşdırıldığı iddiasını səsləndirməsi Fransanın məkrli və xəyalpərəst siyasətlərini davam etdirmək marağından çıxış etdiyini göstərir.

"Öz qanlı müstəmləkəçiliyi və vasitəçiliyi dönəmində işğalçı tərəf olan Ermənistanı dəstəkləyən Fransanın indi ədalətdən və beynəlxalq hüquqdan danışması qəbuledilməzdir.

Fransa tərəfinə bir daha xatırladırıq ki, Azərbaycanla təhdid və təzyiq dili ilə danışmaq heç bir nəticə verə bilməz və bu kimi destruktiv əməllərə dərhal son qoyulmalıdır", - şərhdə vurğulanıb.

***

**Dünən Xarici işlər naziri Ceyhun Bayramov Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar ilə görüşüb.**

Söhbətdə tərəflər Azərbaycan ilə Ermənistan arasında sülh sazişi layihəsinin perspektivləri, iki ölkə arasında normallaşma məsələləri, bölgədəki son vəziyyət, Azərbaycanın Qarabağ bölgəsinin yerli erməni əhalisinin reinteqrasiyası istiqamətində atılan addımlar ətrafında fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov Azərbaycan tərəfinin sülh gündəliyi keçirilən görüşlərin müsbət nəticələnməsində maraqlı olduğunu, 30 il sonra bölgədə sülh və sabitliyin təmin edilməsi naminə tarixi imkanın yarandığını vurğulayıb. Azərbaycanın Qarabağ bölgəsinin yerli erməni sakinlərinin reinteqrasiyası istiqamətində aparılan işlər barədə qarşı tərəfi məlumatlandırılıb. Eyni zamanda, erməni sakinlərin Azərbaycan ərazisini tərk etməsinin hər hansı bir məcburi yerdəyişmə ilə əlaqədar olmadığı diqqətə çatdırılaraq BMT rəsmilərinin bölgəyə son səfərləri və səfər sonrası verilən açıqlamaları bunun bariz nümunəsi olduğu qeyd olunub.

***

**Xarici işlər naziri Ceyhun Bayramov İqtisadi Əməkdaşlıq Təşkilatının Nazirlər Şurasının 27-ci iclası çərçivəsində ölkəmizdə səfərdə olan Pakistanın xarici işlər naziri Cəlil Abbas Cilani ilə də görüşüb.**

Tərəflər Azərbaycan və Pakistan arasında qarşılıqlı etimad, həmrəylik və hörmətə əsaslanan strateji ikitərəfli münasibətlər, əməkdaşlıq perspektivləri ətrafında fikir mübadiləsi aparıb. Nazir Ceyhun Bayramov həmkarını Azərbaycanın qanunsuz erməni silahlı qüvvələrinin tərksilah edilməsi və qanunsuz rejimin buraxılması məqsədilə həyata keçirdiyi antiterror tədbirləri barədə məlumatlandırıb.

Pakistanın xarici işlər naziri Cəlil Abbas Cilani Pakistanın Azərbaycanın ərazi bütövlüyünü və suveren ərazilərində həyata keçirdiyi legitim addımları dəstəklədiyini vurğulayıb.

Görüşdə nazirlər, həmçinin qarşılıqlı maraq doğuran digər regional və beynəlxalq məsələlər ətrafında müzakirələr aparıblar.

XQ

# Paşinyan Qranada eyforiyasından hələ də ayılmayıb

## İrəvanın yeni illüziyası – Brüssel gözləntisi

(əvvəli 1-ci səhifədə)



Ancaq üçtərəfli bəyanatın 9-cu bəndində göstərilir: "Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanları həyata keçirir".

Haşiyə çıxaq ki, Paşinyan özünün anti-Rusiya xəttini yalnız üçtərəfli bəyanatın haqqında söz açdığımız 9-cu bəndinin inkarı üzərində qurmur. Məsələn, o, Ermənistan ərazisində – Gümrüdə yerləşən 102-ci hərbi bazanın orada qalma məsələsindən söz açarkən, həmin bazanın çıxarılmasının gündəlikdə dayanmadığını bildirir. Amma məsələnin İrəvan-Moskva əlaqələrinin qarşılıqlılıq səviyyəsindən asılılığını qabardır. Deməli, o, faktiki olaraq bildirir ki, əgər Rusiya Ermənistana qarşı hansısa yolverilməz addım atsa, 102-ci baza da qalmayacaq. Qarabağdakı Rusiya sülhməramlılarına gəlincə, məlumdur ki, indiki situasiyada onların bölgədə mövcudluğuna səbəb yoxdur. Çünki erməni sakinlər ərazini tərk ediblər. Nikol isə xüsusi olaraq, vurğulayır ki, Rusiya sülhməramlı hərbi kontingentinin Ermənistan ərazisində də mövcudluğuna ehtiyac duyulmur. Daha doğrusu, məsələnin hüquqi mexanizminin istisna təşkil etdiyini önə çəkir. Görünür, baş nazir Moskvaya münasibətdə hər cür psixoloji refleksləri diri saxlamağa çalışır. Çünki sonuncu məsələnin üzərində dayanmaya da bilərdi. Yəni, onsuz da Rusiya sülhməramlıları Ermənistanda qala bilməz.

Bəli, Zəngəzur dəhlizi məntiqinə qarşı demarş mövqeyi seçən və bu baxımdan Rusiyanın həmin yola nəzarətinin yolverilməzliyi üzərində dayanan N.Paşinyan dəhlizlər və yollar arasındakı məntiqi fərqlərə diqqət çəkərək vurğulayıb ki, regionda sülhün bərqərar olması üçün ərazi anlaşılmazlıqlarına yol verilməməlidir. Sırf Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirən yola – Rusiyanın xarici işlər nazirinin müavini Mixail Qaluzinin təbirincə desək, "Meğri marşrutu"na gəlincə, Zəngəzur dəhlizi ideyasını "süngü ilə qarşılayan" Nikol buna etiraz etmədiyini deyib və məsələnin Ermənistanın blokadasının aradan qaldırılmasına töhfə verə biləcəyini önə çəkib. Yeri gəlmişkən, M.Qaluzinin bir neçə gün əvvəl dediyi də bu idi ki, Ermənistan gələcəkdə, "Meğri marşrutu"ndan faydalanaraq, loru dildə desək, gün görsün. ...Eyni zamanda, erməni baş nazir əmin edib ki, yolların açılması bütün region ölkələri üçün faydalıdır və bu, şübhə və qeyri-müəyyənliklərin olmaması şərti ilə, Cənubi Qafqazda sülh mühitinin qərarlaşmasına dəstəkdir.

Göründüyü kimi, Paşinyan ifadə tərzi kimi qəbul etməsə də, Zəngəzur dəhlizinin əhəmiyyətini anlayır. Burada onun üçün iki məqam var. İlk növbədə söhbət dəhliz məntiqindən gedir. Nikol yaxşı anlayır ki, ölkəsindəki müxalif kəsim bu məntiqi Ermənistan ərazilərinin işğalı kontekstində görür və həmin kəsimi qıcıqlandırmaqdan, ona diskussiya mövzusu verməkdən uzaq durur. İkinci məqamı isə vurğuladıq. Nikol istəmir ki, dəhliz üçtərəfli Bəyanatda əksini tapdığı kimi fəaliyyət göstərsin. Yəni, Rusiyanın onun üzərindəki jandarm missiyasına qarşı çıxır. Ancaq onun unutduğu bir şey var. O məqam da bundan ibarətdir ki, Zəngəzur dəhlizi kifayət qədər böyük layihədir. Bu layihədə əsas məqam heç də təkcə Azərbaycanın digər ərazilərinin Naxçıvanla quru əlaqəsinin mövcudluğuna bağlı deyil. Başlıca motiv geosiyasi və geoiqtisadi anlama söykənir. Nə Azərbaycan, nə Türkiyə, nə də layihənin reallaşmasında maraqlı olan Rusiyanın özü belə bir taleyüklü məsələdə Ermənistanın "təhlükəsizlik çətiri"nə bel bağlamayacaq. Digər tərəfdən, ortada Paşinyanın qarşı çıxdığı üçtərəfli Bəyanat var. Bəyanatda Rusiya Prezidentinin imzasını heçə saymaq ən azından etik deyil. Çox güman, həm də buna görə Türkiyə Prezidenti Ərdoğan bildirir ki, Ermənistan üzərinə düşən öhdəliyi yerinə yetirməsə, dəhliz üçün İran ərazisindən istifadə ediləcək. Bu ssenari isə Ermənistanın təcrid vəziyyətində qalması deməkdir. Yəni, Paşinyan Türkiyə liderinin fikirlərinə münasibət bildirib əks mövqe ortaya qoyanda, ikincinin haqqında söz açdığımız alternativlik yüklü açıqlamasına diqqət yetirməli və nəticə çıxarmalıdır. Nəticə çıxaracaqmı? Bunu zaman göstərəcək.

### Baş nazirin çin olmayan yuxuları

N.Paşinyanın müsahibəsində üzərində dayandığı növbəti məqam Avropa Siyasi Birliyinin oktyabrın 5-də keçirilmiş üçüncü Zirvə toplantısı çərçivəsində keçirilmiş dördtərəfli görüşdür. Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin, Fransa Prezidenti Emmanuel Makronun və Almaniya Kansleri Olaf Şoltsun da iştirak etdiyi həmin görüşdə Paşinyan Azərbaycanın ərazi bütövlüyünü tanıyan sənəd imzalayıb.

Məlum olduğu kimi, əvvəldə nəzərdə tutulsa da, son anda Prezident İlham Əliyev Qranada sammitində iştirakdan imtina etdi. Səbəb Fransanın Ermənistanın tərəfində durması və buna qarşılıq Bakının beştərəfli görüşə Türkiyənin də qatılması tələbi idi. Ankaranın iştirakçılığına razılıq verilmədi. Nəticə etibarilə Nikol Qranadada Azərbaycanın 86,6 min kvadratkilometr ərazidə suveren hüquqlarını tanısa da, Azərbaycan Ermənistanın ərazisinin 29,8 min kvadratkilometr göstərildiyi bəyannaməyə imza atmamış durumdadır və məsələ həm rəsmi İrəvanı, həm erməni siyasi dairələrini, həm də xaricdəki ermənipərəstləri narahat etməkdədir. Görünür, Aİ Şurasının prezidenti də narahatdır və buna görə oktyabrda tərəfləri üçtərəfli formatda Brüsseldə görüşdürmək niyyətini ortaya qoyub.

N.Paşinyan isə Qranadadakı dördtərəfli görüşü şərh edərkən bildirib ki, toplantının əhəmiyyəti iki mühüm bəyanatla səciyyələndirilə bilər. Onun sözlərinə görə, ilk bəyanatı prezident Makron, Kansler Şolts, Ş.Mişel və onun özü imzalayıb. Sənəd Aİ-nin Ermənistanla münasibətlərin dərinləşməsinə dair konsensusunu vurğulayır. Avropa Komissiyasının sədri Ursula von der Leyen tərəfindən də imzalanmış ikinci bəyanat isə özündə regiondakı sülhün əsas sütunlarını ehtiva edir. Hər halda Ermənistan baş naziri belə deyir. Onun söylədiklərindən anlaşılır ki, bu sütunlara Ermənistanın və Azərbaycanın ərazi bütövlüyünün qarşılıqlı tanınması, 1991-ci il Alma-Ata sazişi əsasında sərhədlərin delimitasiyası, suverenliyə hörmətlə yanaşılmaqla, regional kommunikasiyaların açılması daxildir. Əsas məsələlərdən biri də budur ki, ikinci sənəddə Qarabağa qarşı güc tətbiqi pislənilib, region əhalisinin məcburi köçürüldüyü vurğulanıb, həmçinin humanitar vəziyyətin idarə olunmasında Aİ və ABŞ-ın Ermənistanı dəstəkləməyə hazır olduğu bildirilib. Bəyanatda, eyni zamanda, Qarabağ ermənilərinin ilkin şərt olmadan geri qayıtmaq hüququ da diqqətə çatdırılıb. Paşinyanın sözlərinə görə, sənədin məxsusiliyi onun dördtərəfliliyidir, lakin Azərbaycanın imzasının olmaması ilin sonuna qədər sülh sazişinin imzalanması ehtimalı ilə bağlı suallar yaradır. Baş nazir bildirib ki, Bakı bu bəyanatı imzalasaydı, sülh sazişi ehtimalı 70 faizdən çox olardı.

Ermənistanın baş nazirinin bildirdiklərindən belə qənaətə gəlmək mümkündür ki, Qranadada Azərbaycana qarşı tam bir oyun qurulmuşdu. Səndemə, Nikol avropalılarla birləşib Qarabağ avantürasının davamına imza atıb. Hər halda bölgənin erməni əhalisinin məcburən köçürüldüyünün vurğulanmasını, üstəlik, məsələnin imza ilə təsdiqlənməsini başqa cür qiymətləndirmək mümkünsüzdür. Əlbəttə, Azərbaycanın belə bir sənədə imza atması da mümkün deyil. Belə çıxır ki, ölkəmizin Qarabağ erməniləri ilə bağlı konstitusion əsasda verdiyi təminatlar nəzərə alınmır.

Bəli, Qranadada imzalanmış sənəd ölkəmizin ərazi bütövlüyünü açıq şəkildə şübhələndirir. Birincisi, Bakı Qarabağ ermənilərinə zor tətbiq etməyib. İkincisi, bu əhali kateqoriyasının ərazidən çıxmasını istəməyib, əksinə qalmasında maraqlı olduğunu dəfələrlə vurğulayıb. Belə bir məqamda erməni köçkünlərin geri qayıtmaq hüququnun hansısa sənəddə yer alması məcburi köçürülmə halının mövcudluğunun təsdiqlənməsi kimi interpretasiya oluna bilər ki, Azərbaycanın məsələnin qoyuluşu ilə əsla razılaşmayacağı şübhəsizdir. Deməli, bu qənaətə gəlmək olar ki, erməni sakinlərin tez bir zamanda Qarabağdan çıxarılmaları məqsədli imiş və bölgə üzrə avantürist planların gündəmdə saxlanılmasına xidmət edirmiş. Onların ərazıyə qayıtmaq hüquqlarına gəldikdə, son günlər BMT sülhməramlıları məsələsi üzərində dayanılır. Ş.Mişel də bildirib ki, əgər Azərbaycan məcburi köçürülmənin olmadığını sübuta yetirmək istəyirsə, qurumun sülhməramlı missiyasının əraziyə gəlməsinə razılıq verməlidir. Yəni, yalnız bu şərtlə Qarabağ erməniləri geri qayıda, onların hüquqları təmin oluna bilər. Ortaya qəribə məntiq çıxır. Deməli, Qarabağın erməni sakinlərinin geri qayıtmaq hüququ var və bu hüququn reallaşmasına təminatçı BMT sülhməramlılarıdır. O zaman sual olunur: bəs, Azərbaycanın suverenliyi? Bəli, Nikol və avropalılar ölkəmizin ərazi bütövlüyünü tanıdıqlarını bildirsələr də, bu tanınmanı şübhələndirəcək məqamları da dövriyyəyə buraxırlar. Hələ, üstəlik, Paşinyan, bir növ, minnət qoyurmuş kimi deyir ki, bütün bunlar reallaşdıqdan sonra sülhə 70 faiz nail olunacaq. Görəsən, onun və qərbli tərəfdaşlarının danışmağa başqa yuxuları qaldımı?

Suala cavab vermək çətin olsa da, belə görünür, Nikol yuxusunu reallıq kimi təqdim etməyə girişib. O deyir ki, Qranadada görüş keçirildi və Aİ-nin saytında prinsiplər açıqlandı. Brüsseldə düzənlənəcək növbəti görüş zamanı isə prinsiplərin artıq mövcudluğundan və onlarla Ermənistanın razılaşdığından çıxış edilməlidir. Ən acınacaqlısı budur ki, Paşinyan yuxusunu bir qədər də reallıq kimi göstərərək, yuxarıda sadaladığımız cəfəng məqamların özünü də prinsip olaraq təsdiqləyir. Deyəsən ona hansısa fövqəltəbii qüvvə həmin "prinsipləri" Azərbaycanın da qəbul etdiyini deyib. "Azərbaycan indi başqa platforma təklif edəndə biz başa düşməliyik ki, biz başqa dialoqların əleyhinə deyilik. Lakin başqa görüşlərdə artıq qəbul edilmiş prinsiplərin revizionizminin əleyhinəyik", – deyən erməni baş nazirin Qranada görüşünü ehkamlaşdırmasının faydasızlığı aşkardır. Ən azından ona görə ki, görüşdə Azərbaycan iştirak etməyib və ölkəmizin iştirakı olmadan imzalanmış hər hansı regional əhəmiyyətli sənəd prinsipial əhəmiyyət daşımır.

### Anklavlar və sülhün imitasiyası

N.Paşinyanın haqqında söz açacağımız məsələyə dair fikirlərini şərh etmədən əvvəl bildirək ki, Azərbaycan Prezidenti İlham Əliyev Aİ Şurasının prezidenti Ş.Mişellə sonuncu telefon danışığı zamanı Ermənistanın nəzarətində ölkəmizə məxsus kəndlərin qaldığını vurğulamışdı. Bu fikir onu deməyə əsas verir ki, dövlətimizin başçısı bütün məsələlərdə olduğu kimi, mövcud istiqamətdə də prinsipialdır. Nikol isə müsahibəsində bildirib ki, Ermənistan ərazi idarəçiliyinin vacibliyinə əsaslanaraq, anklavlar məsələsini qaçılmaz hesab edir. O, ölkəsinin 29,8 min kvadratkilometrlik ərazisində hazırda Azərbaycanın nəzarətində olan bölgələrin də yer aldığını diqqətə çəkib. Ermənistanın heç bir orqanının və ya nümayəndəsinin suveren ərazidən imtina etmək hüququnun olmadığından söz açan baş nazir anklavlarla əlaqədar problemin həllini sərhədlərin delimitasiyası, təhlükəsizlik məsələləri ilə əlaqələndirib.

N.Paşinyanın mövcud xüsusda bildirdiklərindən belə nəticə hasil olur ki, Ermənistan anklavlar məsələsini Bakı–İrəvan sülh razılaşmasının mühüm komponenti kimi irəli sürməkdədir. Əslində, bunu komponent yox, daha çox şərt kimi də qiymətləndirmək mümkündür. Belə yanaşma isə əsla yolverilməzdir. Həm Nikol, həm də onun xaricdəki dostları anlamalıdırlar ki, Azərbaycanla şərt dili ilə danışmaq ən azından ziyanlıdır. Özü də bunu nə qədər tez dərk etsələr, bir o qədər yaxşıdır.

Əlbəttə, Paşinyan o anlamda haqlıdır ki, həm anklavların, həm də daha geniş spektrli durumun əsaslı şəkildə müzakirəsi, sonradan vəziyyətin gərginləşməməsi baxımından vacibdir. Ancaq yuxarıda diqqətə çatdırdığımız xüsusları nəzərə alsaq, hazırda Ermənistanın Cənubi Qafqazla bağlı sülh gündəliyinin başlıca komponentlərindən yayındığını vurğulamaq yerinə düşər. Onun "təsdiq olunmuş xəritə" məntiqi də manipulyasiya və birtərəfli təqdimatdan başqa bir şey deyil. Söhbət hansı xəritədən gedir? 1975-ci ilin xəritəsindənmi? Nikol hansı səbəbdən məhz həmin xəritəni əsas götürür? Həmin xəritənin əsas götürülmə meyarı nədir? Nəhayət, Alma-Ata Bəyannaməsini əsas götürmək hara, xəritə söhbəti elə mək hara? Bütün bu kimi suallara cavab yoxdur. Daha doğrusu, Paşinyan yalnız öz ölkəsinin mənafeyini hesablayır. Elə sanır ki, əksini düşünən olmamalıdır. Baş nazirin "kimin nə qədər qoşunlarını geri çəkməlidir" deyimi də buna hesablanıb. Aydındır ki, Azərbaycan Ordusunun birləşmələrinin geri çəkilməsini nəzərdə tutur. Diqqət yetirək, o deyir ki, Azərbaycan Ermənistan Respublikasının ərazi bütövlüyünü tanıdığını açıqlayanda, konkret hansı ərazidən söhbətin getdiyini başa düşməyə ehtiyac var.

***

Sonda onu da deyək ki, Azərbaycan–Ermənistan sülh gündəliyi ilə bağlı məsələlər bir-biri ilə sıx surətdə əlaqəlidir. Paşinyan və onun qərbli dostları Qarabağ üzərində manipulyasiya baxımından, belə demək mümkünsə, əl yeri qoyurlarsa, deməli, bu, istər-istəməz sülhün digər məqamlarına da mənfi təsirini göstərəcək. Paşinyanın Ermənistanın İctimai televiziyasına müsahibəsində səsləndirdiyi fikirlər həmin təsirlərin qaçılmazlığını göstərməkdədir. Bütün bunlar isə qarşıda nəzərdə tutulan Brüssel görüşünün nikbinlik aurasına bəri başdan xələl gətirməkdədir. Ancaq dəqiq tarixi bilinməyən Brüssel raunduna hələ var. O vaxtadək Paşinyan və komandası düşünməlidir ki, Qranada Sammitinin gətirdiyi mənasız eyforiyadan daşınmaq lazımdır. Orada imzalanmış hansısa sənədə əsasən illüziyalara qapılmaq yolverilməzdir. İrəvanda nəzərə almalıdır ki, Qərbin lakmus kağızlarına güvənib hansısa prinsiplər uydurmağa ehtiyac yoxdur. İlk növbədə ona görə ki, Azərbaycanın öz hərəkət trayektoriyası var. Buna kimsənin şübhəsi olmamalıdır.

*Əvəz CAHANGİROĞLU*
XQ



# Xalqın zəfər və tərəqqi ünvanı

(əvvəli 1-ci səhifədə)

Hər bir xalqın tarixi inkişafına nəzər salsaq görərik ki, böyük uğurların əldə olunmasında, dünyada gedən intibah prosesində ölkələrin qabaqcıl pillələrdə qərarlaşmasında liderlərin rolu həlledicidir. İlham Əliyev bir daha sübut etdi ki, liderlik bacarığı elə siyasətçilərə məxsusdur ki, onlar xalqının, dövlətinin milli maraqlarını qorumaqla yanaşı, həm də öz ölkəsini davamlı şəkildə inkişaf etdirir, yorulmadan irəliyə doğru apara bilirlər.

15 oktyabr 2003-cü ildə Azərbaycan xalqı İlham Əliyevi Prezident seçməklə Heydər Əliyevin siyasi kursuna səs verdi. Azərbaycan xalqı sülhün, əmin-amanlığın, tərəqqinin, inkişafın, quruculuğun və sabitliyin tərəfində olduğunu nümayiş etdirdi, ölkədə bu siyasətə alternativin olmadığını göstərdi. İlham Əliyev təkcə əsl siyasi varis olduğunu sübut etmədi. Eyni zamanda, ona qədər başlanan yolun davamı kimi ölkəni daha da inkişaf etdirdi, onun nüfuzunu artırdı, sabitliyi möhkəmləndirdi.

Prezident İlham Əliyev anti-Türk, anti-Azərbaycan mövqeyində dayanan dünya güclərinin ölkəmizə qarşı istismarçı siyasi planlarının gerçəkləşməsinə imkan verməyərək, demokratiyanın milli kimliyimizlə, eyni zamanda, müsəlman-türk mental mühiti ilə uzlaşan bir sistem olduğunu sübut etdi və intellektual əsaslara söykənən modernist cəmiyyət formalaşdırdı. Bu, müasir dünya siyasi sisteminə möhür vuran inkişafın Azərbaycan modelidir. Artıq dünya birliyi – beynəlxalq ictimaiyyət "inkişafın milli – Azərbaycan modeli" adlı siyasi-iqtisadi möcüzədən, inkaredilməz reallıqdan bəhs edir. Bu gün Azərbaycanın müxtəlif sahələrdə təcrübəsi hətta inkişaf etmiş ölkələr üçün nümunə göstərilir. Genişmiqyaslı islahatların aparılması, makroiqtisadi sabitliyin, idarəetmədə effektivliyin təmin olunması, nümunəvi sosial siyasətin həyata keçirilməsi, ölkənin maliyyə gücünün – valyuta ehtiyatlarının artırılması, dünya iqtisadiyyatına uğurlu inteqrasiyanın reallaşdırılması və digər mühüm faktlar sosial-iqtisadi inkişafın Azərbaycan nümunəsinin mühüm cizgilərini təşkil edir.

Məhz 2003-cü ildən isə ölkəmiz Prezident İlham Əliyevin uğurla həyata keçirdiyi mütərəqqi islahatlarla inkişafın və tərəqqinin yeni mərhələsinə qədəm qoyaraq, regional güc mərkəzinə çevrilmiş, dünyada öz layiqli yerini tutmuşdur. O, xalqa ilk müraciətində "Mən hər bir azərbaycanlının prezidenti olacağam!" – demişdi. Bu gün həmin ifadənin həqiqətə çevrildiyi tarixə şahidlik etmək hər bir azərbaycanlıya yalnız qürur hissləri yaşadır.

İndi, üzərindən 20 il keçdikdən sonra həmin dövrə boylananda, təkcə ölkəmizdə deyil, bütün dünyada müasir lider obrazı yaratmış Prezident İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli inkişaf strategiyalarının praktiki nəticələrini nəzərdən keçirəndə və təhlil edəndə tarixən zəngin dövlətçilik ənənəsinə malik Azərbaycan xalqının nə qədər doğru seçim etdiyi bir daha təsdiqlənir. Azərbaycan bu illər ərzində özünü müstəqil dövlət kimi təsdiq edə bildi. Prezident İlham Əliyevin siyasi müdrikliyi nəticəsində Azərbaycan hazırda bütün maraqların kəsişdiyi və milli maraqlarımızın öndə tutulduğu geopolitik məkana çevrilib. Bu gün əksər regional və ya beynəlxalq layihələr Azərbaycanın iştirakı olmadan reallaşmır. Azərbaycanın rəhbəri Cənubi Qafqazda yeni siyasi və iqtisadi vəziyyət yarada bildi və bu, dünya dövlətləri tərəfindən də qəbul edilir.

Cənab İlham Əliyev həmişə qeyd edir ki, "bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşları, onların maraqları dayanır". Biz ölkə başçısının fəaliyyətində bunun əyani təsdiqini görürük. Vahid dövlətçilik siyasəti nəticəsində Azərbaycan iqtisadi, siyasi, mədəni, sosial, hərbi, idman sahələrində davamlı və dinamik sürətlə inkişaf edir.

İlham Əliyev rəhbərliyinin xüsusi diqqət çəkən məqamlarından biri də dövlətimizin beynəlxalq arenada tutduğu mövqedir. Azərbaycan Prezidentinin böyük siyasi bilikləri, təcrübəsi, diplomatiya elmini dərindən bilməsi ölkəmizin xarici siyasət kursunun uğurla həyata keçirilməsində mühüm rol oynayır. Ölkələrin bir-birinin suverenliyinə hörmət etmələrinin, əməkdaşlığı gücləndirməklə qarşılıqlı faydalı əlaqələrin qurulmasının vacibliyini bəyan edən Prezident İlham Əliyev xarici siyasət kursunu bu prinsiplər əsasında qurub. Azərbaycan beynəlxalq hüququn norma və prinsiplərinə, suverenlik, ərazi bütövlüyü və dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörmət və riayət edilməsi, həmçinin daxili işlərə qarışmama prinsipləri əsasında əməkdaşlığa hazır olduğunu praktikada təsdiqləyib. Ölkəmiz ən ziddiyyətli beynəlxalq münasibətlər fonunda da bu xəttə sadiqliyini nümayiş etdirərək müstəqil xarici siyasət yürüdür. Bu səbəbdəndir ki, dünya Azərbaycanın sözünü eşidir, Prezidentimizin irəli sürdüyü beynəlxalq və regional təşəbbüslərə dəstək verir.

Əlbəttə, Ermənistan istisna olmaqla, bütün qonşular, həmçinin digər xarici tərəfdaş ölkələrlə iqtisadi müstəvidə qurulan səmərəli əməkdaşlıq qarşılıqlı siyasi əlaqələrin formalaşmasında və möhkəmlənməsində mühüm rol oynayır. Bu gün həm də dünyada etibarlı tərəfdaş kimi tanınan Azərbaycan qonşu ölkələrlə müxtəlif platformalarda əməkdaşlıq əlaqələri quraraq, mövcud münasibətlərini daha da möhkəmləndirib. Bu illər ərzində beynəlxalq təsisatlarla da səmərəli əməkdaşlıq əlaqələri qurması ölkəmizin beynəlxalq imicinin formalaşmasında müstəsna əhəmiyyət kəsb edir. Azərbaycanın 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, həmçinin 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına sədrlik etməsi ölkəmizin beynəlxalq miqyasda nüfuzunu və qüdrətini göstərir. Azərbaycanın Müstəqil Dövlətlər Birliyi, ATƏT, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı ... kimi digər qurumlarla səmərəli əməkdaşlıq əlaqələri var. Bu gün dünyada yeni bir güc mərkəzinə çevrilməklə yanaşı, həm də regional iqtisadi-siyasi proseslərə ciddi təsir imkanlarına malik nüfuzlu bir quruma çevrilmiş Türk Dövlətləri Təşkilatı bu sırada xüsusi yer tutur.

Heç şübhəsiz, Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövrün və bütövlükdə, dövlətçilik tariximizin ən mühüm – Zirvə hadisəsi torpaqlarımızın işğaldan azad olunmasıdır. Dövlət başçısının rəhbərliyi ilə Azərbaycan öz hərbi qüdrətini və iqtisadi imkanlarını artıraraq və uğurlu diplomatik fəaliyyət həyata keçirərək münaqişənin həllinə nail olub – tarixi ədaləti, ərazi bütövlüyünü bərpa edib. 44 günlük Vətən müharibəsində dünyanın ən güclü 50 ordusu sırasında yer alan Azərbaycan Silahlı Qüvvələrinin şanlı Zəfər yürüşü, işğalçıları darmadağın etməsi xalqımızın qürur mənbəyi, dövlətimizin isə gücünün göstəricisidir.



Böyük Qələbəni qanı-canı hesabına yazan şəhidlərimizin intiqamının alınması ilə əldə edilən Zəfəri, qalibiyyəti Azərbaycan xalqına bəxş etməklə Ali Baş Komandanımız İlham Əliyev həm də həyatını xalqımızın xoşbəxtliyinə həsr edən, "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur" – deyən Ulu öndərin arzusunu reallaşdırmış oldu. Azərbaycan Qarabağa qovuşdu, tarixi Zəfərə imza atdı, şəhidlərimizin, Xocalı qurbanlarının, Gəncə, Bərdə digər şəhər və rayonlarımızda həyata keçirilən qətliamlar zamanı həlak olan günahsız insanların qisası döyüş meydanında alındı. İşğalçı Ermənistana layiq olduğu yer göstərildi. 44 günlük Zəfər "Qarabağ Azərbaycandır və nida işarəsi" – söyləyən Prezidentimizin son 20 ildə – hər zaman olduğu kimi bu dəfə də vədinə əməl etdiyinin sübutudur.

Zəfər savaşında məğlub olaraq 10 noyabr 2020-ci ildə kapitulyasiya aktına bənzər üçtərəfli Bəyanata imza atmış Ermənistanın həmin sənədin müddəalarına zidd olaraq, Azərbaycanın Qarabağ bölgəsində silahlı birləşmələrinin mövcudluğunu davam etdirməsi regional sülh və sabitlik üçün ciddi təhlükə mənbəyi olaraq qalırdı. Vətən müharibəsindən sonra Ermənistan, eləcə də onun dəstəyi ilə ərazilərimizdə qurulan xunta rejimi Azərbaycanın sülhsevər siyasətini adekvat dəyərləndirmədi. Bununla da, əslində, ciddi bir fürsəti əldən vermiş oldu. Azərbaycan Prezidentinin də xalqa müraciətində qeyd etdiyi kimi, vəziyyəti gərginlik həddinə çatdıran Ermənistan tərəfi və artıq ləğv edilmiş xunta rejiminin addımları oldu. Halbuki əgər Ermənistan tərəfi üzərinə götürdüyü öhdəliklərə əməl etsəydi, indiki nəticəyə danışıqlar yolu ilə də çatmaq mümkün idi. Amma Azərbaycan dövlətinin bütün sülhpərvər çağırışlarına baxmayaraq, Qarabağda yaşayan ermənilər və dəstəkçiləri hər vəchlə reinteqrasiya prosesindən qaçır və Azərbaycan dövlətinə tabe olmurdular. Hətta yenidən özlərinin qondarma idarəçilik qurumlarını yaratmağa cəhd göstərirdilər. Dövlət nümayəndələrimizlə görüşlərində isə qəbulolunmaz şərtlər irəli sürürdülər.

Təbii ki, bu prosesin sonu olmalı idi və oldu. Azərbaycan dövləti 24 saat belə çəkməyən antiterror tədbirləri ilə erməni xuntasının, Ermənistan dövlətinin və imperialist maraqlarını həyata keçirmək istəyən beynəlxalq güclərin belini qırdı. Dünənədək ipə-sapa yatmayan separatçılar ağ bayraq qaldıraraq, təslim oldular və Azərbaycan dövlətinin bütün şərtlərini qəbul edərək, tələblərimizi yerinə yetirmək üçün Yevlax şəhərinə gəldilər. Qısası, az qala əsrə bərabər olan bir gün bölgəmizdə mənafelərimizə zidd bütün maraqları alt-üst etdi və Xankəndi başda olmaqla yerdə qalan, nəzarətimizdə olmayan ərazilərdə bayrağımızın dalğalanması nı mütləqləşdirdi.

Zəfər savaşında və ondan sonra İlham Əliyev Ali Baş Komandan kimi, qətiyyətini tam ortaya qoymaqla yanaşı, həm də peşəkar diplomat olaraq dünyaya Azərbaycan reallığını qəbul etdirdi. Düşmənin bu reallığı qəbul etməməsinin cavabı isə 19 sentyabrda ildırımsürətli antiterror tədbirləri ilə verildi. "Nəyi nə zaman etməyi hamıdan yaxşı bilən" İlham Əliyevin rəhbərliyi altında Qarabağda suveren hüquqlarımız tam bərpa edildi. Bu, bir tərəfdən, yüksək hərbi peşəkarlıq nümunəsi idi, digər tərəfdən Azərbaycan xalqının, dövlətinin humanist mahiyyətini ifadə edirdi. Azərbaycanın Müdafiə Nazirliyi Ermənistan silahlı qüvvələrinin yaşayış yerlərinin yaxınlığında atəş vasitələri yerləşdirdiyini nəzərə alaraq, dinc sakinlərə mümkün olan bütün vasitələrlə xəbərdarlıq etdi. Azərbaycan zəmanət verdi ki, qanunlara və beynəlxalq humanitar hüquq normalarına uyğun olaraq, inzibati, sosial, təhsil, tibbi, dini və digər obyektlərin mühafizə və müdafiəsi üçün zəruri tədbirlər görüləcək. Uşaqlara, qadınlara, yaşlılara, əlillərə, yardıma ehtiyacı olan bütün insanlara müvafiq dəstək göstəriləcək. Həmişə olduğu kimi, Azərbaycan dövləti öz sözünün üstündə durdu. Separatçı xunta rejimi məhv oldu. Xocalı qatilləri, şovinist hərbi cinayətkarlar indi qoluqandallı Azərbaycan qanunları qarşısında cavab verirlər.

Regionda ədalətin bərpa olunması üçün torpaqlarımızın işğaldan azad edilməsi ilə yanaşı, 35 ildir Azərbaycan xalqına qarşı cinayətlər törədən şəxslərin də cinayət məsuliyyətinə cəlb edilməsi vacibdir. Ona görə Qarabağda separatizmin başını əzən dövlətimiz insanlıq əleyhinə, müharibə və soyqırımı cinayətləri törətmiş separatçı qüvvələrin rəhbərləri – nə, Xocalıda, Ballıqayada, Başlıbeldə, Gəncədə, Bərdədə, Tərtərdə və daha sadalamadığımız neçə-neçə ərazidə xalqımıza qarşı soyqırımı, qətliamlar törədən, əsirlikdə, girovluqda olan azərbaycanlılara olmazın işgəncələr verərək, öldürən erməni qatillərinə də bir-bir layiqli cəzalarını verəcək. Bu şəhidlərin ruhunun şad olduğu, xalqın 30 illik qisas və kədər hissinin qürur və sevinclə əvəzlənmə tarixidir ki, bu tarixi yazan şəxsiyyət də cənab Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevdir!

Artıq ölkəmizin qarşısında yeni perspektivlər açılıb – Azərbaycan milli inkişafın yeni mərhələsinə qədəm qoyub. İşğaldan azad edilmiş ərazilərdə nəhəng bərpa-quruculuq işlərinin aparılması, regionda kommunikasiyaların yaradılması, o cümlədən Zəngəzur dəhlizinin açılması, yeni əməkdaşlıq platformalarında ikitərəfli və çoxtərəfli münasibətlərin inkişafı, milli həmrəyliyin gücləndirilməsi, sosial, iqtisadi, siyasi və hüquqi islahatların dərinləşdirilməsi və digər mühüm amillər Azərbaycanın Heydər Əliyev ideyaları əsasında və Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni zirvələr fəth etməsinə imkan verəcək. Bəli, bütün dünya dövlətləri və xalqları bir daha gördü ki, 2003-cü il 15 oktyabr prezident seçkisi xalqımızın öz liderinə sevgisinin, inamının nümayişi oldu. Xalqımızın cənab İlham Əliyevə, onun siyasətinə inamı tükənməzdir.

Bir sözlə, bütün bunlar onun göstəricisidir ki, Prezident İlham Əliyevin fəaliyyəti hər sahədə əhəmiyyətli və kompleks səciyyə daşıyan uğurların qazanılmasını şərtləndirib. Məhz bunun nəticəsidir ki, beynəlxalq leksikonda "milli inkişafın Azərbaycan modeli" anlayışı meydana çıxıb. Dövlət başçısının xalqı qarşısında verdiyi bütün vədləri uğurla yerinə yetirməsi, hər bir azərbaycanlıya və ölkəmizin problemlərinə böyük həssaslıqla yanaşması isə Prezident İlham Əliyevin "Mən hər bir azərbaycanlının Prezidenti olacağam" vədinin mütləq surətdə reallaşdığını bir daha təsdiqləyir. Bu reallıq isə öz əbədiliyi ilə xalqımız tərəfindən qorunur, dəyərləndirilir və sevilir!

Beləliklə güclü xalq, dövlət başçımız İlham Əliyev hər dəfə Prezident seçilməklə güclü dövlət, güclü lider vəhdəti müstəqil və müasir Azərbaycanın qüdrətinə çevrildi. 2003-cü il 15 oktyabr prezident seçkilərindən start götürən və zamanın axarında öz layiqli yerini tutan Azərbaycan dövləti bundan sonra da möhtərəm Prezidentimiz İlham Əliyevin uzaqgörən siyasəti və müdrik rəhbərliyi sayəsində inkişaf edəcək və çiçəklənəcək.

*Fəzail İBRAHİMLİ,*
*Milli Məclis Sədrinin müavini*

# Paşinyan gözdən pərdə asır

## Baş nazir Qranada sammitinə qatılsa da, Bişkekdə MDB zirvə görüşünə getmək istəmir

**Ermənistanın baş naziri Nikol Paşinyan Müstəqil Dövlətlər Birliyi (MDB) Dövlət Başçıları Şurasının oktyabrın 13-də Qırğızıstanın paytaxtı Bişkekdə keçiriləcək iclasında iştirak etməyəcək. Bu barədə N.Paşinyan oktyabrın 10-da Qırğızıstan Prezidenti Sadır Japarovla telefon danışığı zamanı məlumat verib. Qırğız liderin mətbuat xidmətinin yaydığı məlumatda qeyd edilib ki, N.Paşinyan telefon danışığı zamanı təəssüflə bir sıra səbəblərdən sammitdə iştirak edə bilməyəcəyini bildirib.**



Həmin “bir sıra səbəblərin” nələrdən ibarət olduğu isə açıqlanmayıb. Ancaq hazırda Ermənistanda hökm sürən anti-Rusiya, rusofob əhval-ruhiyyə fonunda hayların baş nazirinin Bişkekə hansı səbəbdən getmədiyini təxmin etmək çətin deyil.

Ermənistan mediasında səfərin baş tutmamasından bəhs edən yazıları oxuduqda da bu nəticəyə gəlmək olur ki, Paşinyan bununla Azərbaycanın sentyabrın 19-20-də Qarabağ iqtisadi rayonunun ermənilər yaşayan hissəsində keçirdiyi lokal xarakterli antiterror tədbirlərinə Rusiyanın münasibətindən narazılığını ifadə edir. Erməni baş nazir daha Rusiya ilə əməkdaşlığı davam etdirmək istəmir, getdikcə onunla məsafə saxlamağa çalışır.

Bu mövzuda “Armenian Report” saytında yerləşdirilən məqalə diqqəti cəlb edir. “Paşinyan Putinə və MDB-yə dirsək göstərdi” sərlövhəli məqalədə deyilir: “İki stulda oturmağa cəhd etməkdən əl çəkməyin vaxtı gəlib çatdı. Xüsusilə, stullardan birinin ayağı sındığı üçün… Qərb strukturları ilə inteqrasiya istiqamətində aydın kurs götürməyin vaxtıdır. “Xalqlar arasında dostluğun etibarlı qalası” başa çatmaq üzrədir. Daha doğrusu, Ermənistanın bu “qala” ilə “dostluğu”. Və burada kimin kimi tərk etməsi ilə bağlı heç bir açıq bəhanə yoxdur. Bu, KTMT ilə bağlı baş verənlərə bənzəyir. Paşinyan KTMT-yə münasibətdə heç vaxt izah edə bilmədi ki, biz “Putinin NATO-su”ndan gedirik, yoxsa o, bizi tərk edir. Xeyr, bu dəfə hər şey aydından daha aydındır”.

Məqalədə qeyd olunur ki, Rusiya və MDB ölkələrinin iştirakı ilə əsas toplantılar oktyabrın 12-13-də Bişkekdə planlaşdırılıb. Əvvəlcə, yəni ayın 12-də MDB ölkələrinin Xarici İşlər Nazirləri Şurasının, 13-də isə MDB Dövlət Başçıları Şurasının iclası olmalıdır: “Gözlənildiyi kimi, bunlarda Ermənistan da iştirak etməli idi. Amma əvvəlcə Ararat Mirzoyanın Bişkekə getməyəcəyi açıqlandı. Oktyabrın 10-da isə baş nazir Paşinyanın da getməyəcəyi məlum oldu. Ölkəmiz yalnız xarici işlər nazirinin müavini səviyyəsində təmsil olunacaq. Ermənistanın Kremlin kurasiya etdiyi tədbirdə iştirakının səviyyəsini bu dərəcədə aşağı salması Rusiyaya qarşı açıq-aşkar demarşdır. Nəzərə alsaq ki, İrəvan hələ də respublikanın KTMT-də daimi nümayəndəsi vəzifəsinə namizəd irəli sürməyib. KTMT Putinin daha bir sevimli “övladı”dır”. Şübhəsiz ki, İrəvanın bu istiqamətdə apardığı siyasət nəinki Rusiyanın hərəkətlərindən məyus olan, həm də Moskvanın erməni dövlətinə xəyanət etdiyini anlayan Ermənistan ictimaiyyətinin əksəriyyətinin rəğbətini qazanacaq”.

Sayt qeyd edir ki, bu mənada rusların təşkil etdiyi MDB tədbirlərində Paşinyanın və Mirzoyanın iştirakı tamamilə lazımsızdır: “Biz orada nə itirmişik? MDB ölkələri Ermənistana və “Artsaxa” dəstək ifadə etməkdən belə çəkindilər. Üstəlik, 120 min insanın (?), o cümlədən 30 min uşağın yaşadığı 9 aylıq blokada (?) nəticəsində “real humanitar fəlakətə” baxmayaraq, postsovet məkanında heç kim “Artsax xalqı”na heç bir yardım göstərmədi. Coğrafi baxımdan bizdən uzaq ölkələr – Fransa, ABŞ, Kanada, Hindistan diqqət və qayğı göstərsələr də, postsovet düşərgəsindəki qonşularımız kar, lal və kor oldular. Hətta, dərman və qida da göndərmədilər. Bütün MDB ölkələri “erməni faciəsinin” laqeyd seyrçisinə çevrilib. Hərçənd ki, yox, səhv edirəm. Onlar laqeyd deyildilər. Onların bir çoxu Azərbaycanın adına sevinir, hətta, bəlkə də ərazi bütövlüyünün bərpası münasibətilə Bakını qeyri-publik şəkildə təbrik edirdilər. Qazaxlar, özbəklər, qırğızlar, belaruslar mütləq təbrik ediblər. İndi belə bir qeyri-dost reaksiya fonunda bizim təmsilçilərimiz MDB sabantuyu (sabantuy tatar, başqırd, çuvaş və bəzi digər türk xalqlarının hər il qeyd etdikləri milli bayramdır – S.H.) üçün Bişkekə getməli idilər? Yox! İrəvanda tamamilə düzgün qərar verdilər”.

“Armenian Report” daha sonra yazır: “İndi isə başqa sual yaranır. Bizim hakimiyyət nə vaxt yetkinləşəcək ki, Ermənistanın MDB-dən de-yure çıxması təşəbbüsü ilə çıxış etsin? Məsələn, Moskvanın hərəkətlərindən böyük zərər çəkən Ermənistan kimi Moldova artıq MDB çərçivəsində silahlı qüvvələr və sərhəd qoşunları, eləcə də strateji təyinatlı silahlı qüvvələr haqqında sazişlərdən çıxır. Moldova haqlı olaraq bunu edir. Silahlı qüvvələrinizi özünüz idarə etməlisiniz və sonra öz barmağınızı dişləməmək üçün onu Rusiyanın nəzarəti altına verməməlisiniz. Bizim də Ermənistan–Rusiya Birgə Qoşunlar Qrupu ilə bağlı müqavilələrimiz var. Həmin müqavilələr 2021 və 2022-ci illərdə bizə çox kömək etdilər? Gümrüdəki Rusiya hərbi bazası bizə çox kömək etdi? Ümumiyyətlə, həmin baza orada nə üçündür? Ermənistanın, yoxsa Rusiyanın maraqlarını qorumaq üçün? Cavab aydındır”.

Qeyd olunur ki, bütün bunlara görə həm MDB-dən, həm KTMT-dən, həm də Avrasiya İqtisadi İttifaqından çıxmağın vaxtı çatıb: “Bu ölü doğulmuş təşkilatlara üzvlük Ermənistan dövlətinə yaxşı heç nə verməyib. Əksinə, xüsusilə KTMT-yə üzvlük NATO ilə, ümumiyyətlə, Qərblə hərbi-texniki əməkdaşlıq baxımından əl-qolumuzu bağlayır. İndi isə bizim üçün son dərəcə vacibdir ki, rusların əlinə keçəcəyindən qorxaraq heç kimin bizə vermədiyi Qərb silahlarının köməyi ilə dövlətin müdafiə qabiliyyətini gücləndirək. Buna görə də, iki stulda oturmağa cəhd etməməyin vaxtı gəlib çatıb, xüsusən də stullardan birinin ayağı sındığı üçün... Qərb strukturlarına inteqrasiya istiqamətində aydın kurs götürməyin vaxtı çatıb. Bizim gələcəyimiz oradadır. Paşinyan isə MDB-yə qarşı demarşı ilə hər şeyi düzgün etdi. O, Ermənistanı ölkəmizin bütün düşmənlərinin toplaşdığı bu absurd birlikdən çıxarsa, xalqın daha böyük rəğbətini qazanacaq. Görünür, son hadisələr fonunda o gün uzaqda deyil”.

Onu da qeyd edək ki, Ermənistan diplomatiyası nümayəndələrinin hansısa “bir sıra səbəblər” üzündən beynəlxalq tədbirlərə qatılmaması ilk dəfə deyil. Belə ki, bu ilin martında Ermənistanın “Civilnet” informasiya portalı Ararat Mirzoyanın 2022-ci ilin dekabrında rusiyalı və azərbaycanlı həmkarları Sergey Lavrov və Ceyhun Bayramovla görüşdənsə, ipoteka ilə mənzil almağa üstünlük verdiyini yazmışdı. Paşinyan isə mətbuat konfransında jurnalistləri inandırmağa çalışmışdı ki, Mirzoyan Laçın yolunun bağlanması (?) ilə bağlı yaranmış obyektiv şəraitə görə görüşə getməyib. Amma sonra məlum olmuşdu ki, Mirzoyan həmin gün ipoteka müqaviləsi imzalayıb. Sazişin bağlanma tarixi 2022-ci il dekabrın 23-də, yəni xarici işlər nazirlərinin Moskvada görüşünün keçirildiyi gündə baş verib.

İndi də Paşinyan hansısa “bir sıra səbəbləri” əsas gətirir. Ancaq onun uzaq Qranadada keçirilən Avropa Siyasi Birliyinin sammitinə qatıldığı halda, yaxın Bişkekdə baş tutacaq MDB Dövlət Başçıları Şurasının iclasına getməməsi gözdən pərdə asmaq üçün edilən uğursuz cəhddir.

***Səxavət HƏMİD***
***XQ***

### Ekspert rəyi



**Fərid ŞƏFİYEV,**
**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi İdarə Heyətinin sədri**

**– Bilirsiniz, Ermənistan indi Qərbə göstərmək istəyir ki, istiqaməti onlara doğrudur. Onlarla əməkdaşlığı inkişaf etdiməyə çalışır. Həmçinin, Ermənistan rəhbərliyi hazırda ruslardan incikdir. Halbuki, Paşinyan oktyabrın 10-da Ermənistanın İctimai Televiziyasına müsahibəsində qeyd edib ki, Rusiyanın hərbi bazası Gümrüdə qalır və KTMT ilə bağlı İrəvan tərəfindən hər hansı ciddi addım atılmayacaq. Bu, onların ruslara verdikləri strateji mesajdır ki, biz sizinlə bir yerdə qalırıq, amma sizdən narazıyıq. Narazılığı də müxtəlif formada ifadə edirlər.**

**Digər tərəfdən, hazırda sülh danışıqlarının yeni mərhələsi başlanmalı, növbəti görüş keçirilməlidir. Ermənistan növbəti görüşlərin Qərb platformasında keçirilməsini istəyir. Orada Fransanın və digər ölkənin dəstəyini alıblar. Fikirləşirlər ki, danışıqlar bu formatda getsə onlar öz niyyətlərinə nail olacaqlar. Amma Azərbaycan Prezidenti oktyabrın 8-də bəyan edib ki, Gürcüstanda da görüş keçirilə bilər. Ən əsası isə bizə heç bir vasitəçi lazım deyil. Artıq ikitərəfli formatda da görüşün keçirilməsi mümkündür. Fiziki yaxınlıq səbəbindən görüşün Gürcüstanda keçirilməsi daha məqbuldur. Amma vasitəçisiz. Bunu da ermənilər hələ müsbət cavablandırmayıblar. Söhbət ondan gedir ki, onlar həmişə kiminsə kənardan gəlib onların problemlərini həll etməyini gözləyirlər. Onların bütün siyasəti bundan ibarətdir. Bu, əvvəllər Rusiya idi. Otuz il ərzində Rusiyanın Cənubi Qafqazda güclənməsinə, hərbi, iqtisadi cəhətdən mövcudluğuna xidmət edən ölkə Ermənistan idi.**

**İndi isə Qərbdə yeni mif yaradırlar. Guya ki, onlar Qərblə əməkdaşlıq etmək istəyirlər, Azərbaycan isə Rusiya ilə birləşərək, yaxud rus sülhməramlılarının seyrçi nəzərləri altında Qarabağa hücum edib. Beləliklə də bizi ruslarla bağlayırlar.**

### Ekspert rəyi



**Fərhad MƏMMƏDOV,**
**Cənubi Qafqaz Tədqiqatlar Mərkəzinin direktoru**

**– Paşinyanın bu addımları gözə kül üfürməyə bənzəyir. Çünki MDB Sammitinə getməmək MDB-dən, KTMT-dəki Ermənistan nümayəndəsini geri çağırmaq həmin qurumdan çıxmaq demək deyil. Roma statutunu ratifikasiya etmək və paralel olaraq bundan irəli gələn Rusiya Prezidenti ilə bağlı həbs-qətimkan tədbirini inkar etmək də yarımçıq addımdır. Yəni, Paşinyan Qərbin dəstəyini almaq üçün və düşünürəm ki, Fransanın məsləhəti ilə maksimum bacardığını həyata keçirir. Lakin tam addımlar atmır.**

**Ermənistan-Rusiya münasibətlərinin hazırkı durumunu səciyyələndirəsi olsaq, deməliyik ki, bunlar elə əvvəlki münasibətlərdir. Onlar hərbi-siyasi müttəfiqlərdir. Rusiyanın orada hərbi hissəsi var. Ermənistan Rusiyanın iqtisadi-ticari tərəfdaşıdır. Ticarət dövriyyəsinin həcmi inanılmaz dərəcədə artmaqdadır. Ermənistan Avrasiya İqtisadi İttifaqının, KTMT-nin və Gömrük İttifaqının tamhüquqlu üzvüdür. İndiki yarımçıq addımlar isə ancaq informasiya kontekstində maraq doğurur. Həmin yarımçıq addımların sabun köpüyü kimi formalaşdığı, ancaq bazisinin olmadığı görünür. Bu da böyük ehtimalla Qərbin irəli sürdüyü tələblərə cavab olaraq, Fransanın məsləhəti ilə həyata keçirilən informasiya-təbliğat kampaniyasıdır.**

# Kiçik ölkələr vuruşur– böyük dövlətlər qazanır

## *İqtisadi prizmadan siyasi baxış*

**İsrail dövlətinin indiki torpaqlarda yaradıldığı vaxtdan bu günə qədər bu ölkənin Fələstinlə münaqişəsi bitmir. Əslində, bunun səbəbləri, kökləri bu iki xalq arasında anlaşılmazlıqlarla bağlı deyil. Münaqişənin bu qədər davam etməsinin əsl səbəbləri daha dərindədir–iqtisadi amillərdən qaynaqlanır.**



Tarix boyu bütün müharibələrin kökündə iqtisadi maraqlar dayanıb və bu gün də belədir. Dünya tarixinə nəzər salıb, indiyə qədər baş vermiş müharibələrin köklü səbəbini araşdırsaq, bunların hamısının məhz iqtisadi maraqlara söykəndiyinə bir daha əmin olarıq. Daha yaxşı yaşamaq, bunun üçün daha böyük torpaqlara, sərvətlərə sahib olmaq – budur hər bir müharibənin gerçək hədəfi.

Fələstin – İsrail müharibəsi bəzi məqamlarda dini motivlərlə izah edilsə də, əslində, iki tərəf arasında torpaqların və maddi nemətlərin ədalətli bölgüsünün olmaması on illər boyu gedən və həlli tapılmayan münaqişə ocağı yaradıb. Bu qanlı mübarizə zaman–zaman qızışıb pik həddə çatır və sonradan bir müddət sakitləşir. Lakin daim közərən müharibə ocağı sönmür. Çünki bu bölgədə iki dövlətin yaradılması söhbəti ortaya çıxarkən, böyük güclər biləkdən Fələstin tərəfinin maraqlarının təmin olunmasına imkan verməyib.

İndiyə qədər kiçik xalqlar arasında baş verən toqquşmaların həlli təcrübəsi göstərir ki, belə münaqişələr bir qayda olaraq həll olunmur və ya ən yaxşı halda yarımçıq qalır. Başqa sözlə, kiçik xalqlar arasında baş verən belə münaqişələrdə vasitəçilik edən nəhəng dövlətlər, necə deyərlər, odun tam söndürülməsində maraqlı olmurlar. Əksinə, imkan yarandıqca müxtəlif yollarla onu körükləyirlər. Buna dair onlarla misal gətirmək mümkündür. Uzağa getməyək, elə Qarabağ münaqişəsinin həllində Rusiya, ABŞ, Fransa, İran və digər ölkələr 30 ildən çoxdur ki, Ermənistanla Azərbaycan arasındakı münaqişə ocağının sönməsi, erməni və Azərbaycan xalqları arasında barışın yaranması üçün nə qədər “cəhdlər” ediblər.

Ötən illərdə belə vasitəçiliklərin nəticəsi olmadı. Azərbaycan sonda bütün bu oyunlardan bezib, nəticəni ordusunun gücü ilə özü əldə etdi. Problemin bu şəkildə həlli 30 ildən artıq “vasitəçilik” etmiş ölkələri və bütövlükdə, Qərbi əndişələndirdi.

Böyük güclər tərəfindən kiçik xalqlar arasında salınmış münaqişələrin ən yaxşı həlli yolu, onlar arasında düşmənçiliyin hansı səviyyəyə çatmasından asılı olmayaraq, ikilikdə danışıqlar masasına oturmaqdan keçir. Bunu Azərbaycan rəhbərliyi həmişə Ermənistan tərəfə təklif edib. Son dəfə Azərbaycan Prezidenti bu təklifi Gürcüstana səfəri zamanı yenidən səsləndirdi. Lakin əvvəl daha çox Rusiyadan, indi isə Fransadan asılı vəziyyətdə qalmış Ermənistan rəhbərliyi bu reallığı hələ ki, görmək istəmir... Əgər Ermənistan bu addımı atarsa, o halda münaqişəyə birdəfəlik nöqtə qoyular, sərhədlər tanınar, sülh müqaviləsi bağlanar və ermənilərin Qarabağa dönmək istəyən bölümü Azərbaycan qanunları əsasında normal yaşayar, Ermənistan isə bölgə layihələrində iştirak edib iqtisadiyyatının yüksək səviyyədə inkişafına nail olar.

Eyni mənzərə daha geniş miqyasda Yaxın Şərqdə baş verir. Fələstin – İsrail münaqişəsində maraqlı olan güclər onun sönməsini heç vaxt istəməyiblər. Əslində, on illərdir ki, bölgədə marağı olan dövlətlər İsrail və Fələstini toqquşdurub öz maraqlarını təmin etməyə çalışırlar. Belə münaqişələrdə itirən birbaşa vuruşanlar, qazanan isə onları qızışdıranlar olur. Ermənistan–Azərbaycan münaqişəsində marağı olan dövlətlər nə itiriblər? Heç nə! Qazancları isə hər iki tərəfə silah satmaq və regionda digər maraqlarını reallaşdırmaq olub.

HƏMAS-ın İsrailə hücumu ilə başlayan son hadisələr isə artıq həm İranı, həm də ABŞ-ı meydanda üz-üzə qoya biləcək qədər ciddi duruma səbəb olub. İsrail artıq illərdir ki, ABŞ və AB-ni İranın nüvə silahına sahiblənməyə yaxın olması təhlükəsi ilə bağlı xəbərdarlıq edir. Lakin Birləşmiş Ştatlar və Avropa Birliyi dolayı yolla İranla öz maraqlarını reallaşdırmaqdadırlar. Sual olunur, ciddi sanksiyalar altında olan İranın Rusiyaya satdığı dronların istehsalında Qərb texnologiyasından necə istifadə oluna bilərdi? Başqa bir sual. İran neftinin satışına embarqo qoyulduğu halda, Qərb İranın hər il bu qədər neft satıb böyük valyuta gəlirləri əldə etməsinə necə göz yumur? Axı İran bu pullarla öz hərbi gücünü durmadan artırır və ən müasir silahlara sahiblənir.



Belə suallar çoxdur. Gerçək olan isə budur ki, dövlətlər dost olmurlar, ən yaxşı halda onlar qarşılıqlı maraqlar müstəvisində tərəfdaş ola bilirlər.

**Fikrət YUSİFOV,**
**iqtisad elmləri doktoru,**
**professor**

# Gəncədə erməni terroru qurbanlarının xatirəsi anılıb



**Ermənistan silahlı qüvvələrinin Gəncəni növbəti dəfə raket atəşinə tutmasından üç il ötür. 2020-ci il oktyabrın 11-də erməni silahlı birləşmələrinin Gəncə şəhərini gecə saat 2-də “Elbrus” raketi ilə hədəf alması nəticəsində 10 nəfər mülki şəxs ölüb, 30-dan çox insan yaralanıb.**

Dünən rəsmi qurumların, ictimaiyyətin nümayəndələri və şəhər əhalisi Gəncənin Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə tutulması nəticəsində dağılan ərazini ziyarət edərək, şəhid olan mülki şəxslərin əziz xatirəsini ehtiramla yad edirlər.

**XQ**

# Vergi islahatları milli iqtisadiyyatı gücləndirir

## 9 ayda büdcə daxilolmaları 12 milyard manatı ötüb

**MDB vergi xidməti rəhbərlərinin Koordinasiya Şurasının bir neçə gün əvvəl keçirilən iclasında birlik ölkələrində aparılan vergi islahatları, vergi inzibatçılığının səmərəliliyinin artırılması istiqamətində həyata keçirilən layihələr, bu sahədə innovativ mexanizmlərin yaratdığı imkanlar, qanunvericilikdə dəyişikliklər, insan resurslarının təkmilləşdirilməsi ilə əlaqədar tədbirlər və digər məsələlər müzakirə edilib.**



İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəis müavini İlkin Vəliyev iclasda çıxış edərək respublikamızda vergi inzibatçılığının səmərəliliyinin artırılmasını şərtləndirən texnoloji (rəqəmsal) həllər və əldə olunan nailiyyətlər barədə məlumat verib. Rəis müavini sadalananlarla yanaşı, respublikamızda vergi sisteminin təkmilləşdirilməsi sahəsində mütərəqqi yanaşmaların daim diqqətdə saxlanıldığını da vurğulayıb.

Bütün bunlar ölkəmizdə vergi sisteminin təkmilləşdirilməsinə hər zaman prioritet istiqamət kimi yanaşıldığından xəbər verir. Vergi Məcəlləsində vergi ödəyicilərinin mənafelərinə xidmət edən dəyişikliklər edilməsi, sahibkarlıq fəaliyyəti və ya digər vergi tutulan əməliyyatı olmayan vergi ödəyicilərinə vergi hesabatlarının təqdim edilməməsinə görə maliyyə sanksiyasının ləğvi kimi tədbirlər bunun bariz ifadəsidir.

Respublikamızda vergi sisteminin davamlı şəkildə təkmilləşdirilməsi qeyri–neft sektorunun inkişafında da özünü qabarıq büruzə verib. Başqa sözlə, bu istiqamətdə icra olunan vergi islahatları yeni qurulan iqtisadi zonalarda əlverişli biznes şəraitinə müsbət təsir göstərib. Məsələn, son illərdə texnologiya və sənaye parklarının rezidentləri üçün səmərəli vergi mühiti yaradılıb. Hər bir startap üç il müddətinə gəlir vergisindən azad edilib. Həmçinin kənd təsərrüfatı sahəsində vergi dərəcələri azaldılıb və sahibkarlıq fəaliyyətinin təşviqi diqqət mərkəzində saxlanılıb. Biznes fəaliyyətinin inkişafında bütünlükdə rəqəmsallaşma böyük rol oynayıb. Şübhəsiz ki, bu məsələnin həllinə hər bir sahibkar üçün əlçatan dövlət vergi sisteminin yaradılması önəmli təsir göstərib.

Vergi qanunvericiliyinin beynəlxalq təcrübəyə uyğunlaşdırılaraq müasirləşdirilməsi, eyni zamanda, iqtisadiyyatın bütün sahələrində stimullaşdırıcı mexanizmlərin tətbiqi qeyri-neft sektoruna büdcə gəlirlərinin əsasını təşkil edən vergi daxilolmalarının dinamik artımını gerçəkləşdirib. Dövlət Vergi Xidmətindən aldığımız məlumata əsasən, dövriyyələrin şəffaflaşdırılması, gəlirlərin bəyanetmə səviyyəsinin yüksəldilməsi, eləcə də vergi inzibatçılığında ciddi islahatlar aparılması həm tədiyə növləri üzrə, həm də qeyri-neft sektorunda vergi daxilolmalarının artımını sürətləndirib.

Cari ilin yanvar-avqust aylarında ölkəmizin vergi xidmətinin xətti ilə dövlət büdcəsinə vergi daxilolmalarının həcminin 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 23,4 faiz artaraq 12 milyard 80 milyon manat təşkil etməsi, həmin müddətdə qeyri–neft–qaz sektorundan vergi daxilolmalarının ötən ilin eyni dövrü ilə müqayisədə 20,5 faiz artaraq 6 milyard 866 milyon manata çatması məhz yuxarıda vurğulanan tədbirlərin məntiqi nəticəsidir.

Vergi sisteminin indiki inkişaf dinamikasına nail olmaq üçün uzun bir yol keçilib, qeyd edildiyi kimi, vergi qanunvericiliyi müasir dövrün tələblərinə uyğun təkmilləşdirilib, "kölgə iqtisadiyyatı"na qarşı mübarizə metodları hazırlanaraq diqqət mərkəzində saxlanılıb, ən başlıcası dövlət–biznes münasibətlərində yeni bir transformasiyanın əsası qoyulub.

"Kölgə iqtisadiyyatı"na gəldikdə isə onun getdikcə "ağarması" dövriyyələrin, daxili istehsalın və ticarətin göstəricilərində, ticarət əməliyyatlarındakı sənədləşmələrdə, habelə bağlanmış əmək müqavilələrinin sayında özünü qabarıq büruzə verib. Məsələn, bu il oktyabrın 1-nə respublikamızda aktiv vergi ödəyicilərinin sayı ilin əvvəli ilə müqayisədə 5,7 faiz çox – 752 min olub. Dövlət Vergi Xidmətinin məlumatına görə, həmin göstəricinin 44,3 mini əlavə dəyər vergisi (ƏDV) ödəyicisi kimi qeydə alınıb. Bu isə ilin əvvəlinə nisbətən 11 faiz çoxdur. Hesabat dövründə aktiv obyektlərin (təsərrüfat subyektlərinin) sayı isə 6,8 faiz artaraq 202,1 minə çatıb.

Yeri gəlmişkən, "kölgə iqtisadiyyatı"nın qarşısının alınması "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın əsas istiqamətlərdən biri kimi müəyyənləşdirilib. Bu isə mövcud sahədə yüksək nəticələrin əldə edilməsinə şərait yaradıb. Xüsusilə son dövrlərdə yeni əmək müqavilələrinin bağlanmasına xüsusi diqqət yetirilməsi, bu sahədə şəffaflaşmaya üstünlük verilməsi ümumdaxili məhsulda artıma gətirib çıxarıb.

Ümumiyyətlə, ölkədə iş yerlərinin rəsmiləşdirilməsi, əməkhaqqı fondunun "ağardılması" və şəffaflığın diqqətdə saxlanılmasının nəticəsidir ki, bu il oktyabr ayının 1-nə bağlanan əmək müqavilələrinin sayı 1 milyon 770 minə çatıb. Qeyri–neft sektorunun özəl bölməsində isə həmin göstərici 341 min artaraq 881 min olub.

Burada onu da xatırladaq ki, haqqında bəhs olunan problemin həllinin gündəlikdə saxlanılması, xüsusən, kiçik və orta sahibkarlığın inkişafı üçün yeni imkanlar yaradıb. Bu, özəl bölmənin inkişafında, məşğulluğunun təmin edilməsində və sağlam rəqabətin gücləndirilməsində özünü göstərib.

***Vaqif BAYRAMOV***
***XQ***

**EKSPERT RƏYİ**



**Vəkil HÜSEYNOV,**
**iqtisadçı-ekspert**

Ölkədə reallaşdırılan genişmiqyaslı struktur–institusional islahatlar da sosial–iqtisadi göstəricilərin daha da yaxşılaşmasına, iqtisadiyyatda kiçik və orta biznesin dominantlığının yüksəlməsinə müsbət təsir göstərib.

Bu məqamda respublikada yaradılan biznes mühitinə də diqqət yetirək. Belə ki, hazırda hüquqi şəxsin qeydiyyatı prosedurlarının sayı 3-dən 1-ə, müddəti isə 20 dəqiqəyədək azaldılıb, biznesə başlamaq üçün maliyyə vəsaiti və sənəd sayı sıfıra endirilib. Bu sistemə əsasən, qeydiyyat sənədləri yalnız vergi ödəyicisinin elektron kabinetinə onlayn qaydada göndərilir və həmin sənədlərin kağız daşıyıcılarda təqdim edilməsinə zərurət olmur.

Elektron kabinetə göndərilən qeydiyyat sənədləri xüsusi barkodla şifrələnməklə onların rəsmi olaraq bütün dövlət qurumları, banklar, notariuslar və digər təşkilatlarda qəbulu üçün qanunvericilik bazası və inzibatçılıq da təkmilləşdirilib.

Yeni onlayn qeydiyyat sisteminin həyata keçirilməsində əsas məqsəd biznesə başlamaqla bağlı prosedurların sadələşdirilməsi, vaxta qənaət, əlverişli biznes mühiti, şəffaflığın təmin olunması, məmur-sahibkar ünsiyyətinin minimuma endirilməsi və vətəndaş məmnunluğunun artırılmasıdır. Bütün bunlar vergi qanunvericiliyində sahibkarlığın dəstəklənməsi ilə bağlı aparılan islahatların davamıdır və ölkədə biznes mühitinin əlverişliliyinin daha da yaxşılaşdırılmasına xidmət edir.

Nəhayət, onu da qeyd edək ki, vergi daxilolmalarında dinamik artıma ölkədə liberal biznes mühitinin formalaşdırılması mühüm təsir göstərib və bu, investisiya şəraitinin yaxşılaşmasına gətirib çıxarıb. Belə bir şəraitdə icra olunan layihələr isə iqtisadiyyatın genişlənməsinə və investisiyaların artımına yol açıb.



## Strateji valyuta ehtiyatlarımız 67,5 milyard dollara yüksəlib

**Mərkəzi Bankın sədri Taleh Kazımovun bildirdiyinə görə, bu ilin yanvar–sentyabr aylarında Azərbaycanın strateji valyuta ehtiyatları 14,9 faiz artaraq 67,5 milyard dollara çatıb.**

Qeyd edək ki, sentyabrın 23-də gələn il və sonrakı üç il üzrə sosial–iqtisadi inkişaf konsepsiyası, eyni zamanda, proqnoz göstəricilərinin müzakirəsinə həsr olunan Nazirlər Kabinetinin geniş iclasında hazırda ölkəmizin maliyyə vəziyyətinin əhəmiyyətli dərəcədə yaxşılaşdığı, strateji valyuta ehtiyatlarının 67 milyard dollara çatdığı və ilin əvvəlindən 14,5 faiz artdığı da qeyd edilib.

## Sosial sığorta daxilolmaları 14 faiz artıb

**2023-cü ilin yanvar–sentyabr ayları ərzində məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar 3,7 milyard manatdan çox olub.**



Dövlət Vergi Xidmətinin məlumatına görə, bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə 14 faiz və ya 462,4 milyon manat artıb.

Qeyd edək ki, qeyri–büdcə təşkilatları üzrə daxilolmalar ötən ilin eyni dövrü ilə müqayisədə 14,8 faiz artaraq 2,4 milyard manat təşkil edib. İşsizlikdən sığorta haqları üzrə daxilolmalar isə ötən ilin müvafiq dövrünə nisbətən 15,1 faiz artıb və 132,8 milyon manat olub. Qeyri–büdcə təşkilatları üzrə daxilolmalar da 15,1 faiz artaraq 98,2 milyon manata çatıb.

***XQ***

**Beynəlxalq Valyuta Fondunun (BVF) "Dünya iqtisadiyyatının inkişaf perspektivləri" hesabatının oktyabr sayına əsasən, Azərbaycan Cənubi Qafqazda ən aşağı işsizlik səviyyəsinə malik ölkədir.**

## Cənubi Qafqazda ən aşağı işsizlik ölkəmizdədir



BVF-in proqnozuna əsasən, cari il respublikamızda işsizlik səviyyəsi 2022-ci ildən etibarən dəyişməyərək 5,9 faiz təşkil edəcək, gələn il isə bu göstərici 5,8 faizə enəcək.

Regionun digər ölkələrinə gəlincə, BVF tərəfindən Ermənistada işsizlik səviyyəsinin 2023-cü ildə artaraq 12,5 faizdən 13,5 faizə çatacağı proqnozlaşdırılıb, gələn il üzrə proqnozlar isə 13 faizdən 14 faizədək qaldırılıb.

Gürcüstanda isə bu göstərici 2023 və 2024-cü illərin yekunlarına görə, müvafiq olaraq 18,4 və 18,6 faiz olaraq proqnozlaşdırılıb.

## "Azərkosmos" "Bayanat"la müqavilə imzalayıb

**"Azərkosmos" və Birləşmiş Ərəb Əmirliklərinin "Bayanat" şirkəti arasında əməkdaşlıq müqaviləsi imzalanıb.**



Müqaviləyə əsasən, hər iki tərəf coğrafi informasiya sistemləri üzrə birgə əməkdaşlıq edəcək.

Bura məsafədən müşahidə məlumatlarının əldə olunması, emalı və tətbiq edilməsinə dair potensial layihələr və imkanların təşviq edilməsi, geoməkan məlumatları və onların texniki imkanları, təcrübə və bilik mübadiləsi daxildir. Həmçinin "Azərkosmos" tərəfindən "Bayanat" şirkətinə məxsus geoməkan məlumat platformasının 1 il ərzində istifadəsi nəzərdə tutulub. Əməkdaşlıq çərçivəsində neft və qaz sahəsi üzrə xəritəçəkmə və tədqiqat zamanı Yer müşahidəsi həllərinin istifadəsinin genişləndirilməsi də nəzərə alınıb.

***XQ***

# BP "Şirin qızıl" layihəsini davam etdirir

## Şirkətin dəstəyi ilə Samuxda ilk bal ormanı yaradılıb

**Azərbaycanın neft-qaz sənayesində bir sıra dünya səviyyəli layihələrin operatoru olan BP şirkəti ölkəmizdə fəaliyyət göstərdiyi 31 il ərzində mühüm sosial proqramların təşəbbüskarı və iştirakçısı kimi çıxış edib. Ötən müddətdə şirkət özünün "Azəri-Çıraq-Günəşli", "Şahdəniz", eləcə də Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft və Cənubi Qafqaz qaz boru kəmərləri layihələri çərçivəsində ümumi dəyəri, təqribən, 109 milyon dollar olan çoxsaylı sosial proqramlar icra edib. Həmin layihələr yerli potensialın yaradılması, təhsil, icmaların inkişafı, yerli sahibkarlıq, ətraf mühit, eləcə də ölkənin zəngin mədəni irsinin tədqiqi və təbliği kimi sahələrə yönəldilməklə, həm də məşğulluğun təminatına mühüm töhfələr verir.**



Şirkətin tərəfdaşları ilə birlikdə Samux, Goranboy və Yevlax rayonlarında reallaşdırdığı "Şirin qızıl" layihəsi bu baxımdan xüsusi maraq doğurur. Xatırladaq ki, layihə ölkədə arıçılığın inkişafına dəstək vermək məqsədi daşıyır. Arıçılıq sahəsində ailə biznesi yaratmaqla və ölkədə ilk dəfə olaraq bal meşəsi salmaqla icmalarda dayanıqlı gəlir imkanlarının artırılmasını nəzərdə tutan layihə 2017–2021-ci illər ərzində iki mərhələdə həyata keçirilib. Sözügedən layihəyə, ümumilikdə, 2 milyon 798 min dollar vəsait xərclənib. Həmin vəsait hesabına Yevlax, Goranboy, Samux, Şəmkir, Ağstafa və Tovuz rayonlarında, ümumilikdə, 530 icma üzvü seçilib. Öz şəxsi arıçılıq biznesinə başlaması və onu idarə etməsi üçün arıçılar zəruri avadanlıqlarla təmin edilib, onlar təlim, bacarıqlar, davamlı məsləhət xidməti və monitorinq dəstəyi ilə əhatə olunublar.

Həmin arıçılara 6 mindən çox arı yeşiyi verilib. Arıçılara verilən hərtərəfli dəstək və arı ailələrinə göstərilən yüksək qulluq nəticəsiz qalmayıb. Çəkilən zəhmət öz bəhrəsini verib. Təkcə onu qeyd etmək kifayətdir ki, 2018-2020-ci illərdə yüksək məhsuldarlığa nail olan arıçılar təsərrüfatlardan 73 ton keyfiyyətli bal toplamağa nail olublar.

Nəbiağalı kənd sakini, təqaüdçü, 75 yaşlı Bəhram Xəlilov da BP və tərəfdaşlarının maliyyə dəstəyi ilə həyata keçirilən "Şirin qızıl" layihəsindən faydalana bilib. Əvvəllər kənd məktəbində müəllim kimi fəaliyyət göstərən ağsaqqal üçün bu layihə göydəndüşmə fürsət olub. 2018-ci ildə 10 arı yeşiyi alan B.Xəlilov artıq onların sayını 18-ə çatdırıb. Peşəsindən və güzəranından razı olan ağsaqqalın bal mövsümündə müştəriləri də bol olur. Deyir ki, ötən illərdə, bir dəfə də olsun, məhsulunu satmaq üçün dükan-bazara üz tutmayıb. Çünki keyfiyyətli balın müştərisi çox olduğundan alıcıların özləri qapısına gəlirlər...

Arıların qidalanmasını təmin etmək üçün yem bazasının yaradılmasının vacibliyi nəzərə alınaraq sonrakı mərhələdə Samux rayonunun Çobanabdallı və Füzuli kəndlərinin ərazilərində meşə massivlərinin salınması qərara alınıb. Beləliklə, "Şirin qızıl" layihəsinin növbəti, daha maraqlı bir mərhələsinə başlanılıb. Layihə meneceri Vüqar Bəşirov dedi: "Arıların qidalanması üçün nektar bazasının yaradılması son dərəcə vacib idi. Bunu nəzərə alaraq 2019-cu ilin ikinci yarısından etibarən arı ailələrinin saxlanıldığı ərazilərə yaxın yerlərdə ağaclar əkməyə başladıq. Bu, həm də "Şirin qızıl" layihəsinin növbəti mərhələsi idi. Bu məqsədlə uzun illər baxımsız vəziyyətdə qaldığından, demək olar ki, tamamilə sıradan çıxmış meşə massivlərini yenidən bərpa etdik. Arıçılığın yem bazasının yaradılması məqsədilə Çobanabdallı kəndində 65, qonşu Füzuli kəndində isə 50 hektar ərazidə yaşıllıqların salınmasına başladıq. 2021-ci ilin yanvarınadək iki meşə massivində, ümumilikdə, 110 min ağac əkdik. Arılar üçün yem bazası kimi nəzərdə tutulan meşə massivlərində əkilən ağacların hamısı nektarverən ağaclardır. Bir neçə sort akasiya, ağcaqayın, xarici ölkələrdə "bal ağacı" adlandırılan unikal evodiya, badam və s. olmaqla, bütövlükdə 7 növ ağac əkilmiş meşələr yaxınlıqda yerləşən digər arıçılar üçün də faydalıdır. Yeri gəlmişkən, evodiya ağacının çiçəklənmə prosesi avqust–sentyabr aylarınadək davam edir ki, bu da arıların qidalanma mövsümünü uzadır".

Rayonun torpaq və iqlim şərtlərinə uyğun olaraq əkilən bu ağacların suvarılması üçün lazımi infrastruktur yaradılıb, uzun illər istifadəsiz qalmış 3 artezian quyusu bərpa edilib. Beləliklə, 4 il ərzində boy ataraq böyüyən ağaclar ərazidə böyük bir meşə massivi yaranmasına səbəb olub. Bu, həm də BP və tərəfdaşları tərəfindən Azərbaycanda yaradılmış ilk arı, bal ormanı kimi diqqət çəkir. Eyni zamanda, arıçılığın yem bazası kimi yaradılan bu meşə massivləri bölgənin ekologiyasına şirkətin töhfəsi kimi də dəyərləndirilə bilər.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Brüsselə cəmi iki “bilet” var

## Bakının siyasi qətiyyəti Parisi oyundankənar vəziyyətdə qoydu



**Əgər oktyabrın sonlarında Brüssel görüşü baş tutacaqsa, bu, sadəcə üçtərəfli formatda sülh danışıqlarının növbəti raundu sayılacaq. Fransa və Almaniya rəhbərlərinin iştirak etməyəcəkləri bu zirvə görüşünə Bakıdan daha çox İrəvanın ehtiyac duyduğunu söyləyə bilərik. Azərbaycan Prezidenti İlham Əliyev Avropa Siyasi Birliyinin Qranada Sammitində iştirakdan imtina edəndən sonra Bakıya Brüsseldən, Berlindən zənglər edildi.**

Və Bakının artıq üçtərəfli formatda görüşə razılığı alındı. Əslində, dövlətimizin başçısının Qranadaya getməməsi İrəvan – Paris tandemi tərəfindən Azərbaycana qarşı sanksiya tətbiqi kimi siyasi təxribat və avantüralara verilən dəqiq və kəsərli cavab idi. Bununla da məlum “cüt bacılar tandemi”nin pozuculuq fəaliyyətinin tam fiaskoya uğramasının şahidi olduq. Yəni, Bakı sülh danışıqlarının Aİ platformasında nə Fransanın, nə də Almaniyanın tövsiyələrinə ehtiyacı olmadığını birmənalı şəkildə bəyan etdi.

Azərbaycan Prezidentinin Qranadaya getməməsinin əsas səbəblərdən biri məhz Parisin sərgilədiyi destruktiv mövqe oldu. Amma indi artıq sülh sazişinin imzalanması üçün münbit zəmin yarandığı məqamda BMT Təhlükəsizlik Şurasında ölkəmizə qarşı qətnamə qəbulu ilə bağlı hər iki cəhdinin uğursuzluğa düçar olduğu Fransa nəyin bahasına olursa-olsun, Cənubi Qafqazda mövcudluğunu isbatlamağa çalışır. Mövcud vəziyyətdə Ermənistan ona sadəcə Azərbaycana təzyiq aləti kimi lazımdır. Paris Brüssel siyasi platformasına daha çox bölgədə məkrli planlarını həyata keçirə biləcəyi müstəvi kimi baxırdı. Amma Emmanuel Makronun “saman altından Qafqaza su yeritmək” texnologiyası alınmadı. Özünüifşa göz qabağındadır. Azərbaycan isə sülhə töhfə verəcək bütün təşəbbüslərə və bu yöndə ədalətli aktorların səylərinə sadiq qaldığını, danışıqlara açıq olduğunu nümayiş etdirdi.

### İrəvan seçim qarşısında

“İndi Ermənistan regional əməkdaşlıq və qonşularına qarşı qanunsuz və əsassız ərazi iddiaları arasında seçim etməlidir. Əlbəttə, bu məsələdə beynəlxalq ictimaiyyətin də rolu əhəmiyyət kəsb edir. Ermənistanın revanşizm cəhdlərinin hər hansı şəkildə dəstəklənməməsi və bölgənin rifahı üçün sülhün alternativinin olmamasına dair çağırışların edilməsi son dərəcə vacibdir”.

Bu fikirləri Azərbaycan Xarici işlər naziri Ceyhun Bayramov rəsmi mətbuatda dərc olunan məqaləsində qeyd edib. Onun sözlərinə görə, Prezident İlham Əliyevin milli maraqlara söykənməklə beynəlxalq hüquq çərçivəsində apardığı xarici siyasət hər zaman özündə ədalət və humanizm prinsiplərini ehtiva edib: "Azərbaycan strateji səbir nümayiş etdirərək, onilliklər ərzində ərazilərinin işğalına son qoyulması, beynəlxalq təşkilatların qərarlarının yerinə yetirilməsi, beynəlxalq hüququn təmin edilməsi üçün danışıqlar aparıb. Məhz aparılan danışıqlar, diplomatiya cəbhəsində gərgin proseslər Azərbaycanın hərb meydanında gücünü birə yüz artırıb”.

Nazir, həmçinin qeyd edib ki, həm 44 günlük müharibədə əldə edilən böyük Qələbə, həm də antiterror tədbirləri çərçivəsində Qarabağ üzərində suverenliyimizin tam bərpa olunması Azərbaycan tarixinin şanlı səhifəsini təşkil etməklə yanaşı, bölgədə yeni reallıqlar yaradıb. Bu reallığın Ermənistan tərəfindən qəbul edilməsinin, onun Bakının və Ankaranın sülh və əməkdaşlıq çağırışlarını düzgün dəyərləndirməsinin əhəmiyyətini önə çəkən C.Bayramov İrəvana konkret təklifimizi çatdırır: “İndi Ermənistan regional əməkdaşlıq və qonşularına qarşı qanunsuz və əsassız ərazi iddiaları arasında seçim etməlidir. Əlbəttə, bu məsələdə beynəlxalq ictimaiyyətin də rolu əhəmiyyət kəsb edir. Ermənistanın revanşizm cəhdlərinin hər hansı şəkildə dəstəklənməməsi və bölgənin rifahı üçün sülhün alternativinin olmamasına dair çağırışların edilməsi olduqca vacibdir”.

### Qeyd-şərtsiz nə deməkdir?

Yaranmış indiki şəraitdə əgər söhbət sülh müqaviləsindən gedirsə, biz artıq istəyimizə nail olmuşuq. Bəli, Bakı bölgədə sülhün tam bərqərar olması, Azərbaycan və Ermənistan arasında normal münasibətlərin yaranması, regionda inteqrasiyanın başlaması üçün sülh müqaviləsinin imzalanmasında maraqlıdır. Dövlətimizn başçısının “Qafqaz evi” layihəsi reallaşmalı, eləcə də Türkiyə və Ermənistan arasında münasibətlər normallaşmalıdır. Yəni, Bakı bu məsələlərə daha geniş üfiqlərdən baxır.

**Mövzu ilə bağlı qəzetimizə açıqlama verən siyasi şərhçi Orxan Amaşov sülh danışıqlarında Paşinyanın heç də hər zaman öz iradəsi ilə hərəkət edə bilmədiyini, ona daxildən və xaricdən böyük təzyiqlərin olduğunu deyir:**



– Xüsusilə Fransadan Ermənistan baş nazirinə davamlı olaraq göstəriş və “məsləhətlər” ünvanlanır. Ümumiyyətlə, sülh müqaviləsinin hansı coğrafiyadakı platformada imzalanacağı, bu prosesdə kimlərin daha böyük rol oynayacağı mühüm məsələdir. Bəli, Bakı Fransanın nizamlamada rolunu rədd edir. Azərbaycan Prezidentinin Qranadaya getməməsinin əsas səbəblərdən biri məhz Parisin sərgilədiyi destruktiv mövqe oldu. Amma indi artıq sülh sazişinin imzalanması üçün münbit zəmin yarandığı məqamda Fransanın siyasi mövqeyində müəyyən korrektələr olmalı idi. Biz bunu görmədik. Ümumiyyətlə, Azərbaycan bu münaqişənin beynəlxalq platformalarda deyil, burada, region çərçivəsində həllində maraqlıdır.

Son vaxtlar sülh danışıqlarının məkanı kimi Tbilisi variantının gündəmə gətirildiyinə diqqəti yönəldən siyasi şərhçi bundan ötrü Brüsseldə də kifayət qədər geniş imkanların olduğunu, amma sonradan kənar müdaxilələrin prosesi dalana dirədiyini deyir: “Yadınıza salım ki, cənab Prezident 2022-ci ilin aprelində Brüsseldə Aİ-nin ikinci Sammitindən sonra bəyan etdi ki, bu görüş ikitərəfli formatın başlanğıcıdır. Əslində, elə də olmalı idi. Amma sonradan vəziyyət gərginləşdi. Məsələnin mahiyyəti “Dağlıq Qarabağ” komponentini dirçəltməkdən, diriltməkdən ibarət oldu. Qranada bəyannaməsində yer almış bir tezisi xatırlatmaq yerinə düşər: “Qarabağ ermənilərinin qeyd-şərtsiz özlərinin tarixi torpaqlarına geri dönmələri təmin edilməlidir”. “Qeyd-şərtsiz” ifadəsinin mənasını diplomatlar yaxşı bilirlər. Ermənilər əvvəlki mövqelərinə qayıtmaq üçün belə yollara əl atırlar. Bu, hansı mövqe idi? Onlar Qarabağda anklav formasında qalsınlar və Azərbaycanın digər hissələri ilə təmasları olmasın və izolə vəziyyətində yaşasınlar. Üstəlik, istədikləri vaxt Laçın yolu vasitəsilə Ermənistana gedib-gəlsinlər. Yəni, Azərbaycanın Qarabağ üzərində suverenliyi formal olaraq de-yure tanınsın, vəssalam! Amma biz bu konstruksiyanı qəbul edə bilməzdik və onu məhv etdik. İndi onlar qeyd-şərtsiz geri dönməyi düşünürlər. Bunun ardınca BMT-nin hansısa missiyasının bölgəyə təşrif gətirməsi və məsələnin uzun müddətə bu durumda saxlanılması gəlir. Neçə illərdən sonra isə onlar yenidən Azərbaycandan ayrılmaq məsələsini qaldıra bilərlər. Qeyd-şərtsiz geri dönməyin arxasında nələrin dayandığı açıq-aşkar görünür. Buna qətiyyən imkan verməyəcəyik. Düzdür, rəsmi Bakının reinteqrasiya proqramı olduğu kimi, şərti də var. İnanmırıq ki, Azərbaycanı qeyd-şərtsiz dönüşə məcbur edə biləcək qüvvə ortaya çıxsın”.

Deməli, İrəvanın “böyük bacısı” Aİ çərçivəsində beştərəfli görüşlərdə Qarabağ ermənilərinin “haqlarını” bu formada, yəni “qeyd-şərtsiz qorumağı” planlayırmış. Azərbaycan Prezidenti Parisin bu planının da üstündən qara xətt çəkdi.

### Üzünü Qərbdən Şərqə çevir, İrəvan

Qarabağ üzrə sülh danışıqlarının Qərb trendlərinə obyektiv və neytral nəzər yetirdikdə məlum olur ki, İrəvanı nə Avropa İttifaqına, nə də həmin NATO-ya çağıran yoxdur. Bu, heç mümkün də deyil. Axı Ermənistan SSRİ-dən miras qalmış KTMT kimi hərbi-siyasi blokun üzvüdür. Ekspertlərin qənaətincə, Hayastanın Avropanın maliyyə institutlarından istədiyi dəstəyi ala bilməməsinin əsas səbəbi də məhz budur. Ərazisi kiçik, təbii sərvətlərdən məhrum, özünütəcrid vəziyyətinə düşmüş Ermənistana sərmayə qoymaq istəyənlər də yox dərəcəsindədir. İrəvana Qarabağ ermənilərinin yerləşdirilməsi və təminatı üçün Avropa İttifaqından umduğu 2,6 milyard avro əvəzinə cəmi 10,45 milyon avronun ayrılması “qoca qitə”nin bu ölkəyə münasibətinin göstəricisidir. İrəvan, nəhayət, bir həqiqəti qəbul etməlidir. Nə qədər ki, yalnız yağlı vədlərini eşitdiyi Qərbin ətəyini buraxmayıb, yaxın qonşuları ilə əməkdaşlığa tələsmir, daha böyük problemlərlə üzləşməli olacaq. Ona görə, nə qədər gec deyil, üzünü Qərbdən Şərqə çevirmək barədə ciddi düşünməlidir. Bunu erməni ictimaiyyəti də artıq başa düşür. Ölkələrimiz arasında sülhün və əmin-amanlığını bərpası, ilk növbədə, Ermənistanın maraqlarına cavab verir. Azərbaycan hakimiyyəti və ictimaiyyəti sülhə hazır olduğunu bildirib.

**STATİSTİKA: Sosial Tədqiqatlar Mərkəzi (STM) əhali arasında maraqlı sorğu keçirib. “Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanmasını dəstəkləyirsinizmi?”– sualına verilən cavablara əsasən, cəmiyyətdə sülh müqaviləsinin imzalanmasına yüksək dəstək ifadə edilib. Sorğu iştirakçılarının mütləq əksəriyyəti – 80,9 faizi sülh müqaviləsinin imzalanmasını dəstəkləyib. Respondentlərin 18,3 faizi əks mövqedən çıxış edib. 0,8 faiz suala rəyini bildirməkdə çətinlik çəkib.**

Bəli, biz sülhə səs veririk. Bakı sülh sazişinin Avropada deyil, məhz Qafqazda imzalanmasını daha məqsədəuyğun sayır. Bunu Prezident İlham Əliyev Bakıda səfərdə olan Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevin diqqətinə çatdırıb. Kremlin rəsmisini qəbul edən dövlətimizin başçısı regional məsələlərin bölgə ölkələrinin iştirakı ilə, həm də “3+3” formatında həllinin vacibliyini vurğulayıb. İlham Əliyev bu formatda görüşlərin ən yüksək səviyyədə keçirilməsini münasib saydığını qeyd edib. Bu ideyaya İrəvanın reaksiyası özünü çox gözlətmədi. Ermənistan baş naziri Nikol Paşinyan “3+3” formatında görüşlərə hazır olduğunu bildirdi. Bu isə o deməkdir ki, vəziyyət Azərbaycan üçün faydalı sayıla biləcək ssenari üzrə inkişaf etməkdədir. Yəni regionun problemləri kənar güclərin iştirakı olmadan daxildə öz həllini tapmalıdır. Əgər bu format və ssenari Qərbdə, misal üçün, həmin Fransada kimdəsə narazılıq doğuracaqsa, bu, artıq onun öz problemidir.

Hələlik rəsmi Bakı Aİ prezidenti Şarl Mişelin xoşməramlı sülh təşəbbüsünə müsbət cavabını verib və oktyabrın sonlarında Brüsseldə Ermənistanla görüşməyə hazır olduğunu açıqlayıb. Amma o görüş-sammitə cəmi iki tərəf dəvətlidir. Bu dəfə üçüncü “bilet” heç kəsə göndərilməyəcək.

*İmran BƏDİRXANLI*
*XQ*

# Ermənistanda adambaşına bir Avropa missioneri düşsə də...

## Bəs Kanada nə vaxtdan Avropa ölkəsi olub?

**Son günlər region mətbuatında verilən “Avropa İttifaqı Ermənistana daha bir missiya göndərdi”, “Ermənistanın Gorus şəhərində də Avromissiyanın ofisi açıldı”, “Avropa mütəxəssisləri Ermənistanda fəaliyyətə başladılar” və sair bu kimi xəbər başlıqları oxucuların gözünü yağır etməkdədir. Əslində, bunun bizə elə bir ağır-yüngüllüyü yoxdur. Çünki Ermənistan pis-yaxşı, dövlətdir, kimi istəsə gətirib öz ərazisində saxlaya bilər. Onu da xatırladaq ki, işğalçı ölkədə hər adambaşına bir Avropa missioneri yerləşdirilsə də, heç kəs Azərbaycanı öz tutduğu yoldan döndərə bilməyəcək.**

Əksinə, orada Avropa təmsilçilərinin çox olması yaxşıdır. Çünki Ermənistan planetin ən qeyri-demokratik ölkəsidir. Parlamentin güllə-boran edilməsi də orada olub, prezidentliyə namizədə sui-qəsd edilməsi də, qonşu ölkədə Xocalı soyqırımının törədilməsi də. Üstəlik, Azərbaycan ərazilərinin 20 faizini işğal edərək yüzlərlə yaşayış məntəqəsinin Yer üzündən silinməsini də məhz bu ölkənin rəhbərləri törətmişdilər. Ona görə də Ermənistanda Avropa mütəxəssislərinin çox olması, əslində, müsbət hal ola bilərdi... Hərgah, ora gələnlərin hamısı sülh məramı ilə, xoş niyyətlə, humanitar məqsədlərlə gəlmiş olsaydı... Çox təəssüf ki, belə deyil.



Son zamanlar dəfələrlə sübut olunub ki, başda Fransa olmaqla, Avropanın bir neçə ölkəsi Cənubi Qafqazda sülhün bərpa edilməsini əngəlləmək məqsədilə Ermənistana öz təlimatçılarını göndərirlər. Bu, az imiş kimi, qonşu ölkənin ərazisini işğal etdiyinə görə Azərbaycan əsgəri tərəfindən burnu ovulmuş Ermənistanı daha bir müharibəyə ruhlandıran, hətta hazırlayan ölkələr də var. Bu isə bizi narahat etməyə bilməz. Odur ki, həm işğalçıya, həm də onu yeni avantüraya çağıranlara öz xəbərdarlığımızı etmişik.

“Avromissiya”lara gəlincə, Azərbaycan tərəfi haqlı olaraq soruşur ki, həmin qruplar Ermənistanda nə ilə məşğul olacaqlar? Axı keçmiş münaqişə artıq bitib, hər iki ölkə bir-birinin ərazi bütövlüyünü tanıyıb, Azərbaycan qalib olsa da, heç bir diktə irəli sürmədən sülh danışıqlarını təklif edir və sair. Yəni, region sülhün astanasındadır. Bəs elə isə Avropa nə üçün əl çəkmir?

Hamının yadındadır, ötən ilin oktyabrında keçirilən Praqa görüşü zamanı liderlərin razılığı ilə yaradılmış monitorinq missiyasının mandatı həmin il dekabrın 19-da başa çatmışdı. Razılaşmaya əsasən, 40 nəfərdən ibarət mülki missiya iki ay ərzində fəaliyyət göstərməli idi. Amma iki aylıq missiya başa çatandan sonra Ermənistan və Avropa İttifaqı 100 nəfərdən ibarət yeni missiyanın iki il müddətinə göndərilməsi barədə razılığa gəldilər. Bu ilin fevralında Avropa İttifaqı yeni missiya ilə bağlı qərar qəbul etdi, aprel ayında isə mülki missiya Ermənistan ərazisinə göndərildi. Xatırladaq ki, Aİ-nin növbəti missiyasının bölgəyə göndərilməsi ilə bağlı Azərbaycan tərəfi razılıq verməyib.

Bir məqamı yada salaq. Azərbaycan hələ əvvəldən bu missiyaların heç də xoşməramlı olmadığını bəyan etmiş və bununla bağlı narahatlığını bildirmişdi. Sonrakı dönəmdə baş verən proseslər, xüsusən də, törədilən təxribatlar Azərbaycanın haqlı olduğunu dəfələrlə göstərdi. Belə ki, Ermənistan Müdafiə Nazirliyi ənənəvi təxribat üsulundan istifadə edərək daim dezinformasiya yayır ki, guya, Azərbaycan Silahlı Qüvvələri Aİ müşahidəçilərinə atəş açır və sairə.

Xeyir ola, məqsəd nədir? Təbii ki, bu avantüranın “müəllifi” rəsmi İrəvandır. Ekspertlərin fikrincə, Ermənistan hakimiyyəti bu cür addımları ilə regionda prosesləri öz xeyrinə dəyişməyə çalışır. Amma, əbəs yerə. Daha Ermənistanın “qatarı gedib”. İndi gündəlikdə başqa qatarlar var – Zəngəzur dəhlizi vasitəsilə Avrasiya ölkələrinin iqtisadiyyatını bir-birinə qovuşduracaq qatarlar daha çox maraq kəsb edir.

Yuxarıda qeyd etdik ki, Ermənistanın öz yerində sakit oturmasını istəməyən siyasi dairələrin önündə Fransa gedir. Rəsmi Paris regiona ayaq açmaq və öz hərbi kontingentini bu ərazidə yerləşdirmək üçün yaranan fürsətdən istifadə etməyə çalışır. Azərbaycanın rəsmi mövqeyi isə bundan ibarətdir ki, missiya regionda sülh prosesinə xələl gətirməməli və birtərəfli mövqe nümayiş etdirməməlidir.

Onu da əlavə edək ki, ərazisində Rusiya Federasiyasının hərbi bazası olan bir ölkənin “həftə səkkiz, mən doqquz” Avropa təmsilçilərini dəvət etməsi Kremldə o qədər də sakitliklə qarşılanmır. Yəni İrəvan rəhbərliyinin gerizəkalılığı Cənubi Qafqazı növbəti bir qarşıdurmaya sürükləyir. Əvvəlki qarşıdurma Cənubi Qafqazın iki ölkəsi arasında olduğuna görə fəsadları o qədər də sarsıdıcı olmamışdı. Yəni müharibədən sonra hər iki ölkə ayaq üstədir. Böyük güclərin iştirakı ilə törədiləcək növbəti qarşıdurmadan sonra isə Ermənistan dövləti ayaq üstdə qalmaya bilər. Çox təəssüf ki, rəsmi İrəvan bunu anlamır.

Sonda sərlövhədə xatırlatdığımız başqa bir arqumentimizi əsaslandırmağa çalışaq. Azərbaycan Prezidenti 44 günlük müharibədən sonra demişdi: “Müharibə göstərdi ki, Azərbaycanın əsl dostları kimlərdir”. Həmin 44 gündə uzaq Kanada ölkəsi iki faktla yaddaşımıza yazılmışdı. Rəsmi Ottava həmin günlərdə Türkiyəyə hərbi texnika (“Bayraqdar” üçün müşahidə kameraları) ixracını dayandırmış, sonra isə Fransanın başladığı “Artsaxı tanı” kampaniyasını dəstəkləmişdi. Üstəlik, bu ölkə hələ 2004-cü ildə “erməni soyqırımını” tanımışdır.

Tarixi mənbələr göstərir ki, ermənilər Kanadaya son yüz ilə yaxın müddətdə gəliblər. İndi onların sayı 70 minə yaxındır. Bu faktları sadalamaqda məqsədimiz məhz həmin 70 min erməninin Kanada kimi iqtisadi imkanları olan Şimali Amerika ölkəsini riyakarcasına Avropa İttifaqına yamaq etməsini göstərməkdir. Belə ki, Kanada hələ 3 il əvvəl “Ermənistan demokratiyasına dəstək” adlı bədnam kampaniyaya qoşulub. Bu ölkənin xarici işlər naziri Melani Coli rəsmi açıqlamasında yazıb: “Kanada münaqişənin sülh yolu ilə dəstəkləməyə və Cənubi Qafqazda sabitliyin təmin edilməsinə sadiqdir. Regionda mövcudluğumuzu buna görə artırırıq. Bu gün Kanadanın Aİ-nin Ermənistandakı missiyasında iştirak edəcəyini bildiririk”.

Yəni ermənilərin murdar xisləti və onların havadarlarının bəd niyyəti üzündən Cənubi Qafqazda baş verən proseslər bir çox siyasi dairələrin “ağzını sulandırır”. Ancaq onlar unudurlar ki, regionda Türkiyə Cümhuriyyəti də var, Azərbaycan Respublikası da. Ona görə də bu torpaqlara əl uzadanların burnu Ermənistanın burnu kimi əzilə bilər. Ermənistanda hər nəfərə bir Avropa missioneri düşsə də, yanında bir kanadalı da dayansa belə, Azərbaycan öz haqq yolundan dönən deyil.

*İttifaq MİRZƏBƏYLİ*
*XQ*

# Azərbaycana qarşı mina terroru ATƏT müzakirəsində

**Oktyabrın 11-də ATƏT-in ənənəvi “İnsan ölçüsü” üzrə Varşava konfransında Azərbaycanın ATƏT yanında daimi nümayəndəliyinin təşkilatçılığı ilə mina təcavüzünün insan haqlarına təsiri mövzusunda tədbir keçirilib.**

Tədbirin moderatoru, Azərbaycan Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri Elşad İsgəndərov 30 ilə yaxın davam edən işğal nəticəsində ölkəmizin ərazisinin ondabir hissəsinin Ermənistan tərəfindən məqsədyönlü şəkildə minalarla çirkləndirildiyini, bu ərazilərdə 1,5 milyondan çox minanın basdırıldığını diqqətə çatdırıb. Qırx dörd günlük müharibənin bitməsindən sonra da Azərbaycan ərazilərində Ermənistan tərəfindən yeni minalar basdırıldığını qeyd edən səfir bunu rəsmi İrəvanın sülh ritorikasında riyakarlığının göstəricisi kimi dəyərləndirib. Ermənistanın bu qeyri-qanuni fəaliyyəti nəticəsində təkcə son iki ildə 300-dən çox azərbaycanlının mina terrorunun qurbanı olduğunu vurğulayan E.İsgəndərov yalnız lokal xarakterli antiterror tədbirləri nəticəsində Qarabağda mina terroruna son qoymaq üçün tam şərait yarandığını qeyd edib.




Tədbirdə “Minaların insan haqlarına dağıdıcı təsiri” mövzusunda ilkin tədqiqatın hesabatını təqdim edən İtaliya İnsan Haqları Federasiyasının prezidenti Antonio Stanqo Qarabağın minalarla çirkləndirilməsinin humanitar faciə miqyaslı olduğunu bildirərək, bunun nəticəsində Azərbaycanın Avropada mina ilə ən çox çirkləndirilmiş ikinci ölkə olduğunu diqqətə çatdırıb. Hesabatın təhlil hissəsində Ermənistanın apardığı 30 illik mina terroru nəticəsində beynəlxalq ədalətin və humanitar hüququn, həmçinin təməl insan hüquqlarını kobud şəkildə pozduğu bildirilib. 700 mindən çox keçmiş məcburi köçkünün vətənlərinə qayıtmasını əngəlləyən, onların sağlamlıq, iş və təhsil hüquqlarının kütləvi şəkildə pozulduğunu qeyd edən A.Stanqo beynəlxalq insan hüquqları mexanizminin işə salınmasını, minalardan zərər çəkmiş Azərbaycan vətəndaşlarına təzminatın ödənilməsinin təmin olunmasının vacibliyini vurğulayıb.

Tədbirdə çıxış edən ANAMA-nın idarə rəisi Ramil Əzizov işğaldan azad olunduqdan sonra Qarabağda görülən minatəmizləmə işlərindən danışıb, indiyədək 2636 hektar ərazidə piyada əleyhinə 30 minə yaxın, tank əleyhinə 17 mindən çox minanın aşkar edilərək zərərsizləşdirildiyini bildirib, bu irimiqyaslı minatəmizləmə əməliyyatlarının əsasən Azərbaycanın öz daxili imkanları hesabına həyata keçirildiyini deyib.

2018-ci ildə “Minadan azad Cənubi Qafqaz” regional kampaniyasını təsis etmiş, LİNKS Avropa Fondunun icraçı direktoru Denis Sammut çıxışında minatəmizləmə sahəsində regional əməkdaşlığın, qarşılıqlı etimadın yaranması üçün tarixi imkanın formalaşdığını qeyd edib. O, Avropa İttifaqını irimiqyaslı minatəmizləmə işində bölgəyə, xüsusilə Azərbaycana əməli dəstək göstərməyə çağıraraq, bunun beynəlxalq tərəfdaşların regionda dayanıqlı sülhün təmin edilməsinə xidmət göstərəcəyini diqqətə çatdırıb.

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 362** **Bakı şəhəri, 10 oktyabr 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 4 aprel tarixli 59 nömrəli Qərarı ilə təsdiq edilmiş "Gəmilərin nəzarət yoxlamasına dair Əsasnamə"də və 2020-ci il 30 aprel tarixli 155 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət ümumi təhsil müəssisələrində (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrində) işləyən təhsilverənlərin sertifikatlaşdırma Qaydası"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında", "Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında", "Sosial xidmət haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında", "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında", "İctimai iştirakçılıq haqqında", "Yaşıllıqların mühafizəsi haqqında", "Bələdiyyə qulluqçularının etik davranış qaydaları haqqında", "Qiymətli kağızlar bazarı haqqında" və "Azərbaycanın mədəniyyət paytaxtı – Şuşa şəhəri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 17 fevral tarixli 812-VIQD nömrəli Qanunun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 4 aprel tarixli 59 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 4, maddə 439; 2014, № 10, maddə 1320; 2019, № 5, maddə 948; 2022, № 5, maddə 555) ilə təsdiq edilmiş 3 nömrəli əlavə - "Gəmilərin nəzarət yoxlamasına dair Əsasnamə"nin 3.4-cü bəndində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 aprel tarixli 155 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 4, maddə 501; 2022, № 4, maddə 412, № 10, maddə 1221; 2023, № 3, maddə 435) ilə təsdiq edilmiş "Dövlət ümumi təhsil müəssisələrində (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrində) işləyən təhsilverənlərin sertifikatlaşdırma Qaydası"nın 2.7-ci bəndində "kütləvi informasiya vasitələrinin" sözləri "media" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 363** **Bakı şəhəri, 10 oktyabr 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 17 iyul tarixli 262 nömrəli Qərarı ilə təsdiq edilmiş "Sudan istifadə Qaydaları"nda, 2015-ci il 13 oktyabr tarixli 324 nömrəli Qərarı ilə təsdiq edilmiş "Bələdiyyə qulluğuna müsabiqənin elan edilməsi, sənədlərin qəbulu, müsabiqənin keçirilməsi və nəticələrinin qiymətləndirilməsi Qaydası"nda, 2020-ci il 5 fevral tarixli 31 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət ekoloji ekspertizasını həyata keçirən Ekspert Komissiyası haqqında Əsasnamə"də və 2020-ci il 21 may tarixli 184 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət və ictimai ekoloji ekspertizanın həyata keçirilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Yol hərəkəti haqqında", "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında", "Torpaq bazarı haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "Terrorçuluğa qarşı mübarizə haqqında", "Milli arxiv fondu haqqında", "Bələdiyyələrin statusu haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında", "Su təchizatı və tullantı suları haqqında" və "Taxıl haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 17 fevral tarixli 816-VIQD nömrəli Qanununun və "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 8 fevral tarixli 1589 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 17 iyul tarixli 262 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 7, maddə 950; 2017, № 7, maddə 1480; 2018, № 9, maddə 1939; 2020, № 2, maddə 186, № 6, maddə 815; 2022, № 2, maddələr 168, 185) ilə təsdiq edilmiş "Sudan istifadə Qaydaları"na 1 nömrəli əlavə - "Su təchizatı və tullantı sularının axıdılması xidmətlərinə dair əhali qrupuna aid olan fiziki şəxslərlə bağlanan Müqavilə"nin 2.4-cü bəndində "mətbuat, radio-televiziya və digər kütləvi informasiya vasitələri" sözləri "media" sözü ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 13 oktyabr tarixli 324 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1238; 2019, № 3, maddə 518) ilə təsdiq edilmiş "Bələdiyyə qulluğuna müsabiqənin elan edilməsi, sənədlərin qəbulu, müsabiqənin keçirilməsi və nəticələrinin qiymətləndirilməsi Qaydası"nın 2.1-ci və 5.2-ci bəndlərinin ikinci cümlələrində "digər kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 5 fevral tarixli 31 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 2, maddə 182; 2021, № 11, maddə 1296) ilə təsdiq edilmiş "Dövlət ekoloji ekspertizasını həyata keçirən Ekspert Komissiyası haqqında Əsasnamə"nin 3.4-cü bəndinin ikinci cümləsində "kütləvi informasiya vasitələrinin" sözləri "media subyektlərinin" sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 21 may tarixli 184 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 5, maddə 655; 2022, № 5, maddə 552; 2023, № 1, maddə 126) ilə təsdiq edilmiş "Dövlət və ictimai ekoloji ekspertizanın həyata keçirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 3.4-cü bənddə "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin;

4.2. 3.6-cı bəndin ikinci cümləsində "kütləvi informasiya vasitələri ilə" sözləri "mediada" sözü ilə əvəz edilsin;

4.3. 3.14-cü bənddə "kütləvi informasiya vasitələri" sözləri "media" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Qarabağda müasir rabitə şəbəkəsi qurulur

## Azad edilmiş ərazilər ölkənin informasiya-kommunikasiya sisteminə qoşulur

**Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpası, yenidən dirçəldilməsi, əhalinin tədricən geri qayıtması, eləcə də regionumuzun sülh və əməkdaşlıq məkanına çevrilməsi istiqamətində genişmiqyaslı işlər görülür. Bu ərazilərdə zəruri sosial-iqtisadi infrastruktur təminatı, iqtisadi canlanmanın sürətləndirilməsi, habelə nəqliyyat potensialının artırılması və yaşayış məntəqələrimizin "ağıllı kənd" və "ağıllı şəhər" konsepsiyaları əsasında yenidən qurulması yüksək templə davam etdirilir.**



Eyni zamanda, yaşayış sahələrində zəruri rabitə infrastrukturu qurulmaqla bu sahədə xidmətlər – mobil rabitə, radio-televiziya yayımı, xüsusi radiorabitə, poçt-maliyyə, internet və s. xidmətləri təşkil edilir. Şəbəkə və xidmətlərin əhatə dairəsi genişləndirilir. Efirə radionəzarətin və efir məkanının təhlükəsizliyinin təmin edilməsi ilə bağlı zəruri tədbirlər görülür. Bu barədə Texniki Universitetin professoru Güləhməd Talıbov dedi:

– Artıq "Aztelekom" MMC bərpa işlərinə başlanan şəhər və kəndlərdə, o cümlədən Şuşada, Ağdamda, Zəngilan rayonunun Ağalı kəndində, Tərtər rayonunun Talış kəndində telefon və internet xidmətləri göstərir.

"Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq Laçın şəhərində 800 evdə GPON texnologiyasının tətbiq olunması üçün layihə hazırlanıb, şəbəkə quraşdırılıb. Laçın şəhəri ilə yanaşı, rayonun Zabux və Sus kəndləri də GPON (Gigabit Passive Optical Networks) texnologiyası əsasında layihələndirilib. İşlər tamamlandıqdan sonra Zabux kəndində 250, Sus kəndində 75 ev təsərrüfatı xidmətlərdən yararlana biləcək.

Yeni GPON texnologiyasının tətbiqi ilə abunəçilərə yüksəksürətli (30 mbit/s-dən 100 mbit/s-dək) internet paketləri təklif olunur. Bu paketləri əldə edən abunəçilər tək internet xidməti deyil, "internet + telefoniya", "internet + televiziya (ikisi birində)" və "internet + telefoniya + televiziya (üçü birində)" paketlərini əldə edirlər. Bu məqsədlə ən yeni texnologiyalar tətbiq edilir.

Müsahibimizin dediklərinə əlavə olaraq bildirək ki, bu il sentyabrın 19-da başlayan, bir gün sonra başa çatan antiterror tədbirlərindən sonra isə Xankəndi və Xocalının da rabitə və rəqamsal imkanları artırılıb. İnternet infrastrukturu istismara verilib. Bu barədə "Bakı Telefon Rabitəsi" MMC-nin sözçüsü Alidə Mustafayeva məlumat verərək "Aztelekom" MMC-nin Xankəndi və Xocalı ərazilərində internet magistral xəttinin və genişzolaqlı internet şəbəkəsinin təmin edildiyini vurğulayıb. Eyni zamanda, "Aztelekom" MMC-nin işğaldan azad edilmiş torpaqlarda rabitə və rəqəmsal imkanların artırılması üçün tikintinin növbəti mərhələsinə keçməyə tam hazır olduğunu bəyan edib.

İnternet xidmətlərinin verilməsi imkanlarının hələ də mövcud olmadığı ərazilərdə isə paylayıcı şəbəkə yenidən qurulacaq. Orada məskunlaşan əhali dayanıqlı rabitə, yüksəksürətli internet və digər multimedia xidmətləri ilə təmin ediləcək. Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti (XRİTDX) tərəfindən isə Xankəndi şəhərində, eləcə də Ağdərə və Xocalı rayonlarında dövlət qurumlarının etibarlı idarə olunması və məlumat mübadiləsinin təşkili məqsədilə operativ olaraq TETRA radiorabitə şəbəkəsi qurularaq istifadəyə verilib. Hazırda həmin bölgədə "AzStateNet" şəbəkəsinin qurulması istiqamətində hazırlıq işləri davam etdirilir.

İşğaldan azad edilmiş ərazilərdə mobil operatorlardan "Azercell" də yaxından iştirak edir. İşğaldan azad olunmuş ərazilərdə ilk mobil infrastrukturu quran "Azercell" Ağdərə və Xocalıda baza stansiyalarını işə salıb. "Azercell"dən bildirilib ki, bu stansiyalar LTE texnologiyasına aiddir. Onların sayı isə 100-dən çoxdur. Şuşa, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Kəlbəcər rayonlarını, İstisu, Hadrut, Suqovuşan qəsəbələrini, həmçinin Xocavənd və digər rayonların kəndlərini əhatə edir. Təkcə Laçın rayonunda mobil operator 15-dən çox baza stansiyası quraşdırıb.

İnternet xidmətlərinin verilməsi imkanlarının hələ də mövcud olmadığı ərazilərdə əsas magistralların və paylayıcı şəbəkənin yenidən qurulması davam edəcək. Ora yerləşəcək əhali dayanıqlı rabitə, yüksəksürətli internet və digər multimedia xidmətləri ilə təmin ediləcək.

Məlumat üçün bildirək ki, işğal dövründə Qarabağda qeyri-qanuni fəaliyyətin miqyasına görə, dağ-mədən sahəsindən sonra ikinci yeri telekommunikasiya sektoru tuturdu. Rabitənin inkişafı və rouminq xidmətləri işğal olunan regionla ünsiyyəti asanlaşdırır, bu da həm Ermənistandan, həm də dünyanın müxtəlif ölkələrindən etnik ermənilərin qeyri-qanuni olaraq köçürülməsi prosesini gücləndirirdi.

Ermənilərin Qarabağda məskunlaşmasında və sərvətlərimizin talanmasında əsas rol oynayan şirkətlərdən biri "Qarabağ Telekom" idi. Şirkətin baş direktoru Qaregin Odabaşyanın erməni mətbuatına verdiyi məlumata görə, məskunlaşma prosesinin sürətlənməsinə milyardlarla dram yardım edib. Bu da özlüyündə beynəlxalq hüququn pozulması deməkdir. Azərbaycan Respublikası XİN-in hesabatında isə qeyd edilir ki, ayrılmış vəsait müxtəlif sahələrə – səhiyyə, təhsil, yeni kilsələrin inşası, təhlükəsizlik qüvvələri və digər sahələrə yönəldilib.

İşğal olunmuş ərazilərdə telekommunikasiya sektorunda erməni şirkətləri ilə yanaşı, müxtəlif vaxtlarda dünyanın onlarla tanınmış şirkəti də fəaliyyət göstərib. Onların arasında Böyük Britaniyanın "Vodafone", Fransanın "Orange", Rusiya və Niderlandın "VimpelCom" birgə şirkəti də olub.

Qarabağ işğaldan azad edildikdən sonra separatçıların qurduğu "Qarabağ Telekom" və digər telekommunikasiya şirkətləri fəaliyyətlərini dayandırdılar. İndi yuxarıda qeyd etdiyimiz kimi regionda zənglər və internet trafiki yalnız Azərbaycanın rabitə operatorları və provayderləri vasitəsilə həyata keçirilir. Tezliklə region müasir rabitə şəbəkəsinə çevriləcək.




Beləliklə, işğaldan azad edilmiş ərazilərin ölkənin vahid informasiya-kommunikasiya məkanına hərtərəfli inteqrasiyası üçün magistral və lokal telekommunikasiya şəbəkələrinin tikilməsi və alternativlik təmin edilməklə respublikanın ümumistifadəli telekommunikasiya şəbəkəsinə qoşulması həyata keçirilir. İşğaldan azad edilmiş ərazilərdə yaşayacaq və fəaliyyət göstərəcək əhaliyə və dövlət qurumlarına yeni texnologiyalar əsasında keyfiyyətli və fasiləsiz telefon, internet, radio-televiziya yayımı, poçt-maliyyə və s. xidmətləri təşkil edilir. Efirə radionəzarətin və efir məkanının təhlükəsizliyinin təmin edilməsi ilə bağlı zəruri tədbirlər görülür. Bunlar işğaldan azad edilmiş ərazilərin ölkə iqtisadiyyatına qısa müddətdə reinteqrasiyası baxımından önəmlidir. Bu sahədə regional əməkdaşlığın genişləndirilməsi və bölgənin telekommunikasiya potensialının gücləndirilməsi olduqca vacibdir. Qarabağda həyata keçirilən bərpa-quruculuq işləri də bu məqsədə xidmət edir. Görülən işlər yaxın illərdə Qarabağı telekommunikasiya sektorunda ölkənin qabaqcıl bölgəsinə çevirəcək.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

**Ağdam**

# Ölkəmiz Avropanın 5-ci qaz təchizatçısıdır

## Bu il "köhnə qitə"yə 12 milyard kubmetr qaz nəql ediləcək

**Avropa Komissiyasının Avropa Birliyi ölkələrinin qaz bazarında vəziyyətə dair rüblük hesabatında bildirilir ki, cari ilin ilk 3 ayında Azərbaycan Trans–Adriatik Boru Kəməri (TAP) ilə Avropa İttifaqına (Aİ) qaz tədarükünü ötən ilin eyni dövrü ilə müqayisədə 13 faiz və ya 2,8 milyard kubmetrədək artırıb. Cari ilin birinci rübündə Aİ-nin ümumi qaz idxalında (boru kəmərləri və mayeləşdirilmiş formada) Azərbaycanın payı əvvəlki rübdəki 3 faizdən 4 faizə yüksəlib.**

Yanvar-mart aylarında Avropaya boru kəməri ilə qaz tədarükçülərinin ilk beşliyinə Norveç–21,7 milyard kubmetr (53 faiz pay), Şimali Afrika (Əlcəzair və Liviya) – 7,3 milyard kubmetr (18 faiz), Rusiya – 5 milyard kubmetr (12 faiz), Böyük Britaniya – 4,4 milyard kubmetr (11 faiz) və Azərbaycan – 2,8 milyard kubmetr (7 faiz) daxil olub.

Keçən il Azərbaycan qaz ixracını 18 faizə – 22,3 milyard kubmetrə qədər artırıb, Avropaya 11,4 milyard kubmetr və ya 39 faizdən çox qaz ixrac edib. Bu il respublikamızdan təbii qazın ixracı 24,5 milyard kubmetr həcmində planlaşdırılıb, bunun isə 12-12,5 milyard kubmetrinin Avropaya nəql olunacağı nəzərdə tutulub.



"TAP AG" konsorsiumunun idarəedici direktoru Luka Skieppati İtaliyanın RCS Akademiyasında keçirilən "Xalis sıfıra keçid–innovativ enerji" adlı debatdakı çıxışında bildirib ki, TAP-ın kommersiya fəaliyyətinə başladığı vaxtdan Avropaya 28 milyard kubmetrdən çox Azərbaycan qazı ötürülüb ki, bunun da 23,5 milyard kubmetrdən çoxu İtaliyaya ixrac edilib.

L.Skieppatinin sözlərinə görə, "TAP AG" konsorsiumu əsasən, İtaliya və Balkan ölkələri bazarlarını "mavi yanacaq"la təmin edir. İtaliyada son aylar ərzində istehlakda bir qədər azalma nəzərə çarpıb, lakin bu ölkənin şaxələndirməni diqqətdə saxlaması vəziyyətin tezliklə normallaşmasına böyük ümid yaradıb.

TAP-ın gücünün iki dəfə artırılmasına gəlincə, L.Skieppati boru xəttinin artıq çəkildiyini və ötürücülük gücünün ikiqat artırılması üzrə işlərin, ən azı İtaliya hissəsində, çox vaxt aparmayacağını söyləyib.

Adıçəkilən konsorsiumun idarəedici direktoru, eyni zamanda, "TAP AG"nin qarşıya nəql imkanlarını və buna müvafiq olaraq qaz tədarükünü artırmaq, qaz turbinləri əvəzinə elektrik avadanlıqlarından istifadə etmək və nəhayət, gələcəkdə "yaşıl molekullar"ın nəqlini reallaşdırmaq kimi üç mühüm vəzifə qoyduğunu bildirib.

Xatırladaq ki, Azərbaycan 2020-ci il dekabrın 31-də Cənub Qaz Dəhlizinin (CQD) tərkib hissəsi olan TAP vasitəsilə Avropaya kommersiya qazının tədarükünə başlayıb. 25 il müddətinə nəzərdə tutulan tədarüklər Avropa bazarına illik 10 milyard kubmetrdən çox qazın ixracını nəzərdə tutur ki, bunun da 8 milyard kubmetri İtaliyanın, 2 milyard kubmetri isə hər birinə 1 milyard kubmetr olmaqla Yunanıstan və Bolqarıstanın payına düşür. Gürcüstan, Türkiyə, Yunanıstan və Albaniyadan keçməklə respublikamızdan İtaliyanın cənubuna qədər 3,5 min kilometr məsafədə uzanan CQD inteqrasiya olunmuş boru kəməri sistemidir. Onun ötürmə qabiliyyəti 16 milyard kubmetrdir. CQD-nin əsas xammal mənbəyi ehtiyatı 1,2 trilyon kubmetr olan "Şahdəniz" yatağıdır.

Qeyd edək ki, 2022-ci ildə Azərbaycan qaz ixracını 18 faiz artıraraq 22,3 milyard kubmetrə çatdırıb, Avropaya təchizat 11,4 milyard kubmetr (39 faiz artım ilə) təşkil edib. 2022-ci ildə TAP vasitəsilə İtaliyaya qaz təchizatı 10 milyon, 325 milyon kubmetr (43,1 faiz artım ilə) təşkil edib.

Bu il ərzində Azərbaycandan 24,5 milyard kubmetr qaz ixracı planlaşdırılır ki, bunun da təxminən 12-12,5 milyard kubmetri Avropaya göndəriləcək.

***XQ***

# HƏMAS–İsrail savaşı: qlobal maraqların kəsişmə nöqtəsi

(əvvəli 1-ci səhifədə)



Yaxın Şərqdə HƏMAS-İsrail münaqişəsinin alovu genişlənərək daha böyük ərazilərə yayıla bilərmi? Bu gün bu sual çoxlarını narahat edir. Dünyanın diqqəti, əlbəttə, daha çox Vaşinqtona yönəlib. Axı okeanın o tayında qəbul ediləcək qərarlardan çox şey asılıdır.

ABŞ Prezidenti Co Bayden dünən Ağ evdə HƏMAS-ın İsrailə qarşı hücumları ilə bağlı açıqlamasında bölgədə baş verənləri "xalis şər əməli" adlandırıb. Bu, Baydenin İsraildəki vəziyyətlə bağlı ikinci çıxışı olub.

ABŞ lideri bir daha Birləşmiş Ştatların İsrailə dəstəyini ifadə edib və HƏMAS-ın hücumlarını kəskin şəkildə pisləyib. Co Bayden hücumlar zamanı 14 amerikalının həyatını itirdiyini deyib. Əlavə edib ki, Vaşinqton HƏMAS tərəfindən hazırda ABŞ vətəndaşlarının girov götürülməsindən xəbərdardır.

Co Bayden İsrailin özünü müdafiə etmək hüququnun olduğunu vurğulayaraq deyib ki, o, ABŞ Konqresini İsrailə dəstək üçün "hərəkətə keçməyə" çağıracaq. Bir çox siyasi təhlilçilər bu qənaətdədirlər ki, ABŞ hökuməti vəziyyətdən istifadə edərək Yaxın Şərqdə siyasi və hərbi təsirini daha da genişləndirməyə çalışır.

ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Ceyk Sallivan isə deyib ki, İsrailə yardım paketi yaxın vaxtlarda ABŞ Konqresinə təqdim ediləcək. Onun sözlərinə görə, Amerikanın həm Ukraynaya, həm də İsrailə eyni vaxtda yardım göstərmək üçün kifayət qədər resursu mövcuddur: "Biz ABŞ-ın eyni vaxtda həm Ukraynanı, həm də İsraili dəstəkləyə bilməyəcəyi barədə iddiaları qəti şəkildə rədd edirik. Bunu effektiv şəkildə etmək üçün kifayət qədər imkanımız var".

Prezident Co Bayden Britaniya, Almaniya, İtaliya və Fransa liderləri ilə birgə HƏMAS və onun yaraqlılarının dəhşətli terror aktlarını pisləyən birgə bəyanat yayıb. Prezident Bayden və vitse-prezident Kamala Harris İsrailin Baş naziri Benyamin Netanyahu ilə telefon danışığı zamanı ABŞ-ın İsrailə hərtərəfli dəstəyini müzakirə ediblər.

Müdafiə naziri Lloyd Ostin isə bildirib ki, ABŞ İsrail ordusunu əlavə avadanlıq və resurslar, o cümlədən sursatla təmin edəcək. O həmçinin Aralıq dənizinin şərqinə aviadaşıyıcı zərbə qrupunun yerləşdiriləcəyini söyləyib.

İsrail Müdafiə Qüvvələrinə görə, HƏMAS-ın hücumları 1200-ə yaxın israillinin ölümünə səbəb olub, təxminən 2700 nəfər yaralanıb; 100-dən çox insan HƏMAS-ın əsirliyindədir. HƏMAS uzun müddətdir ki, ABŞ-ın terror təşkilatları siyahısına daxil edilib. Fələstin Administrasiyasının məlumatına görə, HƏMAS-ın idarə etdiyi Qəzza zolağında ölənlərin sayı ən azı 765 nəfərdir, lakin rəqəmlərin artacağı gözlənilir.

Bu arada qlobal mediada İran ilə HƏMAS arasındakı əlaqələr barədə çox sayda şərhlər yayılır. İran HƏMAS-ın hərəkətlərini "müqavimətin təzahürü" kimi qiymətləndirib, ancaq məsuliyyət daşıdığını inkar edib.

Bu arada Rusiyanın xarici işlər naziri Sergey Lavrovun iranlı həmkarı Hüseyn Əmir Abdullahian ilə Yaxın Şərqdəki vəziyyəti müzakirə etdiyi barədə xəbər yayılıb. Diplomatlar silahlı qarşıdurmanın tezliklə dayandırılmasının vacibliyini vurğulayıblar.

Türkiyə dövləti regionda sülhün və təhlükəsizliyin təmin olunması üçün vasitəçilik missiyası yerinə yetirməyə hazır olduğunu bildirib. Prezident Rəcəb Tayyib Ərdoğan bir çox dövlət və hökumət başçıları ilə bu məsələ ilə bağlı müzakirələr aparıb.

Türkiyənin xarici işlər naziri Hakan Fidan jurnalistlərə bildirib ki, Ankara problemin beynəlxalq hüquq normaları çərçivəsində həllini vacib sayır. Onun sözlərinə görə, Yaxın Şərqdə davamlı sülhə nail olmaq üçün problem köklü və ədalətli şəkildə çözülməlidir.

Sosial şəbəkələrdə Talibanın HƏMAS-a dəstək verə biləcəyi barədə də saxta xəbərlər yayılıb. Talibanın Qətərin paytaxtı Dohadakı siyasi ofisinin rəhbəri Məhəmməd Suhail Şahin "xəbərin qeyri-dəqiq olduğunu bildirib.

Qəzza zolağında humanitar vəziyyət günbəgün pisləşir. İsrail silahlı qüvvələrinin hədəfində HƏMAS yaraqlıları olsa da, əraziyə atılan raket zərbələri nəticəsində hər gün onlarla sakin həlak olur. Ölənlər arasında beynəlxalq təşkilatların əməkdaşları da var.

Dünən məlum olub ki, ölənlərin doqquzu BMT əməkdaşıdır. Yeri gəlmişkən, hücumlar nəticəsində BMT-nin 18 məktəbi və qərargahı dağıdılıb. HƏMAS-İsrail savaşının nə vaxt başa çatacağı isə bəlli deyil.

***Məsaim ABDULLAYEV***
**XQ**

İdmandan həyata

**Ağ təmizlik, məsumluq, təravətin rəmzidir. "Qızlara ağ yaraşır", – deyəndə isə hamımızın ağlına nədənsə yalnız bəyaz gəlinlik gəlir. Bu, bəlkə də ona görədir ki, ağ rəngin daha bir gizli mənası "başlanğıc"dır. Adət-ənənəyə görə, qızlar üçün bəyaz gəlinlik xoşbəxt bir başlanğıcdır.**




# "Qızlara ağ yaraşır"

## Bu milli layihə beynəlxalq dəyər qazanır




Azərbaycan Cüdo Federasiyasının "Azercell Telekom"la birgə "Qızlara ağ yaraşır" layihəsi çərçivəsində yayımlanan sosial çarxa baxanda isə gözümün önündə adət-ənənələrin təsiri altında yetkinlik yaşına çatmayan qızlara belə anaların həvəslə geyindirmək istədiyi ağ gəlinlik və bu məsumların sonrakı iztirabları və qırılan taleləri gəldi. Nəzərə alsaq ki, federasiyanın bu uğurlu layihəsi həm qlobal, həm də ölkə səviyyəsində aktual olan erkən nikah mövzusuna əsaslanıb, onun cəmiyyətimizə bu sahədə verdiyi töhfəni anlamış olarıq. Bu ilin iyun ayından həyata keçirilən layihə çərçivəsində hansı işlər görülüb?

**Federasiyanın mətbuat xidmətinin rəhbəri Ülkər Abbasova "XQ"ya müsahibəsində layihə çərçivəsində artıq çox geniş işlərin görüldüyünü bildirdi. O, bunun həm də ictimaiyyət arasında layihəyə böyük maraq göstərilməsi ilə əlaqələndirdi:**

– "Layihə başlayanda federasiyaya şəhər, rayon və kəndlərimizdən yüzlərcə zəng gəlirdi. Valideynlər böyük həvəslə qızlarını cüdoya yazdırmaq istəyirdilər. Düzü, özümüz də regionlarda, hətta ucqar kəndlərimizdə qızlarımızın bu qədər böyük həvəslə cüdoya yazılmaq istəyinin olduğunu bilmirdik. Ötən aylar ərzində cüdo ilə məşğul olmaq istəyən qızlarla genişmiqyaslı iş aparılıb. Federasiya cüdo məktəbləri və bölmələri olan bölgələrimizdə yeni kampaniyaya start verib. 7-14 yaşlı qızların cüdoya yazılması, qeydiyyatdan keçən 1000 qız tələbəmizə isə cüdoqi dəstlərinin paylanılması və 1 ay pulsuz məşqlər nəzərdə tutulub. Federasiyanın əsas tələbi budur ki, cüdo ilə məşğul olan qızların sayını artıraq. Çünki bu idman növü ilə məşğul olanlar arasında fərq olurdu. İndi isə uşaqlar arasında bu fərq xeyli azalıb.

**Ülkər Abbasova qızlarımızın erkən yaşda ərə verilməsinin, uşaq yaşda ana olmağın ağır fəsadlarının cəmiyyətimizdə mənfi hal olduğunu qeyd etdi:**

– "Bu sosial layihə vasitəsilə qızlar arasında, həm də maarifləndirməni həyata keçiririk. Layihənin məqsədi, həmçinin qızlarımızın fiziki və mənəvi cəhətdən sağlam yetişməsi, gələcəyə əmin addımlarla irəliləməsinə nail olmaqdır.

Xatırladaq ki, gender problemi təkcə Azərbaycanda yox, bütün dünyada ciddi məsələlərdən biridir və ona qarşı sərt tədbirlər görülür. Dünyanın ən nüfuzlu idman yarışı olan Olimpiya Oyunlarında gender bərabərliyi qəti şəkildə qoyulub. Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax gender bərabərliyinin hər bir təşkilat üçün mühüm əhəmiyyətli məsələ olduğunu bildirib. O qeyd edib ki, yaşadığımız cəmiyyətin yarısını məhz qadınlar təşkil edir. Diqqət etsək, Olimpiya Oyunlarında, dünya, Avropa çempionatları və digər yarışlarda Azərbaycan "Qızlara ağ yaraşır" layihəsi artıq təkcə Azərbaycanda yox, beynəlxalq miqyasda da böyük marağa səbəb olub. Qısa müddət ərzində görülən işlər, bu istiqamətdə həyata keçirilən tədbirlər nəticəsində layihə bu günlər Mərkəzi Asiyanın ən böyük kommunikasiya festivalında – "Red Jolbors"da Qran-pri mükafatına layiq görülüb. Qran-pri ilə yanaşı, layihə, 3 qızıl, 1 gümüş və 2 bürünc mükafat də qazanıb.

Bundan əvvəl isə layihə beynəlxalq "Ad Black Sea" festivalının Qran-pri mükafatına, həmçinin 13 kateqoriya üzrə 6 mükafata layiq görülüb.

***Leyla QURBANOVA***
**XQ**

# Naftalan nefti möcüzəli məlhəmdir

## Beynəlxalq sağlamlıq turizmi bu sərvətdən böyük qazanc götürə bilər

**Naftalan Şəhər İcra Hakimiyyəti, Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, Dövlət Turizm Agentliyi, Azərbaycan Turizm Bürosu, "PMD Hospitality"nin birgə təşkilatçılığı ilə keçirilən "Naftalan – sağlamlıq və turizmin sinerji mənbəyi. Beynəlxalq turizm mərkəzinin inkişaf strategiyası" mövzusunda 2 gün davam edən beynəlxalq elmi-praktik konfrans keçirilib.**



8 xarici ölkə nümayəndələri, ümumilikdə isə 100-dən çox iştirakçının qatıldığı konfransda Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov ölkəmizdə həyata keçirilən iqtisadi islahatların, xüsusilə də sahibkarlığın, biznesin inkişafının hər zaman dövlətin diqqət mərkəzində olmasını, bu sahədə ciddi uğurlar əldə edildiyini, paytaxtda və bölgələrdə yeni sosial-iqtisadi layihələr həyata keçirildiyini vurğulayıb. Qeyd edib ki, beynəlxalq elmi-praktik konfrans işgüzarlığı və səmərəliliyi ilə qarşılıqlı əlaqələrin qurulmasına, tibbi turizmin beynəlxalq səviyyədə inkişafına öz dəyərli töhfəsini verəcək.

AMEA-nın prezidenti, deputat İsa Həbibbəyli, Səhiyyə nazirinin müavini Nadir Zeynalov, Ekologiya və təbii sərvətlər nazirinin müavini Rauf Hacıyev, Azərbaycan Turizm Bürosunun İdarə heyətinin sədri Florian Zenqştmit, SOCAR prezidentinin müşaviri Xalik Məmmədov, Türkiyə Respublikasının Gəncə şəhərindəki Baş konsulu Recep Öztop, "PMD Hospitality"nin Baş tibb inzibatçısı Çingiz Hacıyev, Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun baş direktor vəzifəsini icra edən Fərhad Quliyev, QHT-lərə dövlət dəstəyi agentliyinin icraçı direktoru Aygün Əliyeva çıxış edərək sağlamlıq və turizm fəaliyyətinin stimullaşdırılması, mövcud turizm potensialından istifadə imkanlarının qiymətləndirilməsi, turizm sənayesində maraqlı tərəflər arasında qarşılıqlı əlaqələrin qurulması, müalicəvi və tibbi, arxeo, aqro və eko turizmin inkişafı, beynəlxalq aləmdə Naftalan turizm potensialının təbliğinə və təşviqinə imkan yaradılması yollarından danışıblar.



Bildirilib ki, turist axını baxımından Naftalanın inkişafı yüksək qiymətləndirilir. Naftalan neftinin özünəməxsus müalicəvi əhəmiyyəti onu dünyada məşhur edib. Bu baxımdan Naftalan nefti barədə dünyada məlumatlılıq dərəcəsini artırmağa zərurət var.

Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyevin müvafiq tapşırığına əsasən, ölkəmizdə sağlamlıq turizminin davamlı inkişafı məqsədilə SOCAR-da Naftalan yatağının perspektivliyinin yüksəldilməsinə dair xüsusi proqram hazırlanıb. Proqramda mütərəqqi qazma üsullarından istifadə olunmaqla, yeni axtarış quyularının qazılması nəzərdə tutulur.

Litvanın Druskininkay şəhər merinin müavini Linas Urmanaviçius, Türkiyənin Yalova şəhərinin bələdiyyə sədrinin köməkçisi Fatih Şahin, Almaniya Tibbi Sağlamlıq Assosiasiyasının prezidenti Lutz Lungvits, Rusiyanın Kazan şəhərinin Turizm inkişafı komitəsinin şöbə müdiri Anna Strelkova, Qazaxıstanın Astana şəhərinin Daxili siyasət şöbəsi rəhbərinin müavini Miras Abdurahman, Özbəkistanın Tibbi Turizm Assosiasiyası prezidentinin müavini Axmad Axmedov Naftalan neftinin möcüzəvi faydalarından danışıblar.

Həmçinin "Naftalanın sağlamlıq turizmi destinasiyasının qlobal marketinq perspektivləri", "Naftalanda dayanıqlı turizm idarəçiliyi: risklərin qorunması, təhlükəsizlik, elmi araşdırmalar və keyfiyyət standartlarının tətbiqi", "Naftalan və alternativ turizm imkanları: Arxeologiya, aqroturizm və ekoturizm perspektivləri" mövzularında müzakirələr aparılıb.

Konfransdan gözlənilən nəticələr müasir dövrdə sağlamlıq turizminin müxtəlif sahələrində qarşıya çıxan problemlərin müəyyənləşdirilməsi və onların aradan qaldırılması yollarını müzakirə edərək, təklif və tövsiyələr hazırlamaq, eyni zamanda, beynəlxalq aləmdə Naftalanın turizm potensialının təbliği və təşviqinə imkanlar yaratmaqdır.

***Zərifə HÜSEYNOVA***
**XQ**

# Azərbaycanlı alimlər Bolqarıstanda





**Bolqarıstanın Müqəddəs Kliment Oxridski adına Sofiya Universitetində "Azərbaycan Avropa və Asiyanın kəsişməsində" adlı beynəlxalq elmi konfrans keçirilib.**

Ali məktəbdəki Azərbaycan Dili və Mədəniyyəti Mərkəzinin 10 illiyinə həsr olunan mərasimdə Azərbaycanın Bolqarıstandakı səfiri Hüseyn Hüseynov ölkələrimiz arasında mədəni əlaqələrinin inkişafında elm adamlarının xüsusi rolu olduğunu bildirib və onlara bu fəaliyyətlərində uğurlar arzulayıb.

Konfransda Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin elmi işlər üzrə dekan müavini, dosent Sevinc Əliyeva xaricdə yaşayan soydaşlarımızın Azərbaycanın milli-mənəvi dəyərlərinin dünyada təbliğ edilməsi missiyasının daşıyıcıları, ana dilinin isə hər bir millətin maddi və mənəvi irsini qoruyan və inkişaf etdirən güclü vasitə olduğunu söyləyib.

Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin direktoru, professor Sevinc Əliyeva, Bakı Slavyan Universitetinin prorektoru Nailə Xəndan, xalqlar arasında dostluğun möhkəmlənməsində dillərin qarşılıqlı əlaqəsinin rolundan söz açıblar. Sofiya Universitetinin "Azərbaycan dili və mədəniyyəti mərkəzinin" direktoru Sofiya Şıqayeva–Mitreskaya, Türkologiya və altayşünaslıq kafedrasının müdiri, professor İrina Sarıvanova kafedranın dosenti Milena İyordanova və başqaları Azərbaycan dilinin zənginliyindən danışıb, bolqar dili ilə müqayisəli təhlillər aparıblar.

**XQ**

**"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyəti**

"Silkway" və "Ələt" gəmilərinin baş mühərriklərinin texniki qulluğuna aid işlərin (xidmətlərin) göstərilməsi üçün

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.portofbaku.com səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Zərflərin təqdim edilməsi üçün son tarix 31 oktyabr 2023-cü il saat 17.00-dəkdir. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.
Əlaqə telefonu- +994 12 599 00 03 (daxili 3704).
Ünvan- AZ1010. Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyov küçəsi 140.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 222 (30338) 12 oktyabr 2023-cü il, cümə axşamı

İdman xəbərləri

## "Qarabağ" dünya reytinqində irəliləyib

***"Qarabağ" dünya reytinqində irəliləyib.*** Bu barədə məlumat Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyasının (İFFHS) açıqladığı yeni dünya reytinqində öz əksini tapıb.

Azərbaycanın 3 təmsilçisinin düşdüyü siyahıda 414 komanda yer alıb.

Ötən ay 64-cü pillədə qərarlaşan "Qarabağ" hesabındakı 144,5 xalla 61-ci yerə yüksəlib. Azərbaycan çempionu "Ayaks" (Niderland), "River Pleyt" (Argentina) "Çelsi", "Tottenhem" (hər ikisi İngiltərə), "Atletiko" (İspaniya) və "Marsel" (Fransa) kimi klubları qabaqlayıb.

Komandalarımız "Sabah" və "Neftçi" isə geriləyiblər. 63,5 xalı olan bakılılar 286-cı yerdən 302-ci pilləyə düşüblər. Aktivində 61,75 xal olan "Neftçi" isə 311-ci yerdən 318-ə yuvarlanıb.

Dünya reytinqində İngiltərənin "Mançester Siti" klubu (304 xal) liderlik edir. İspaniya təmsilçisi "Real" 291 xalla ikinci, İtaliya "İnter"i (254) üçüncü pillədədir.

## Futzal millimiz bu dəfə də məğlub olub



***DÇ-2024-ün elit-raund mərhələsində futzal millimiz növbəti oyununu keçirib.*** Komandamız Astanada Qazaxıstan yığması ilə üz-üzə gəlib. "Jekpe Jek" arenasında oynanılan matçda millimiz rəqibə 3:2 hesabı ilə uduzub.

Azərbaycan millisinin heyətində Amedeu və Everton Kardoso fərqləniblər.

Qarşılaşmanı sloveniyalı hakimlər Trayan Ençev, Kaloyan Kirilov və İvo Tsenov idarə ediblər.

Qeyd edək ki, 6 gün əvvəl yığmamız Bakıda rəqibinə 2:4 hesabla məğlub olmuşdu.

## Çempionlarımızı tanıyaq!

***Bakıda "Çempionlarımızı tanıyaq!" layihəsi start götürüb. Yunan-Roma güləşi üzrə 2 qat dünya, 3 qat Avropa çempionu, olimpiadanın bürünc mükafatçısı Rafiq Hüseynov layihənin ilk qonağı olub.***



Bakı Şəhər Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə Sabunçu Gənclər Evində keçirilən tədbirdə güləşçi yeniyetmə və gənclərlə görüşüb, idmanda əldə etdiyi nailiyyətlərdən danışıb. O qeyd edib ki, uğur qazanmaq üçün əzmkarlıq, qətiyyətlə yanaşı, nizam-intizam da vacibdir. Gənclərə həmişə mübariz olmağı tövsiyə edən çempion bildirib ki, insan məqsədə çatmaq üçün ciddi səy göstərməlidir.

Rafiq Hüseynov 150-dən çox yeniyetmə və gəncin iştirak etdiyi görüşdə ona ünvanlanan sualları ətraflı cavablandırıb.

*Leyla SABİRQIZI*
*XQ*

Qadın dünyası

# Payızın öz qoxusu

**Ətirlər yalnız qarşı tərəfdə xoş təəssürat yaratmaq üçün bir vasitə deyil. Eyni zamanda, təxəyyülə meydan açır, şövq yaradır, həyəcan və s. kimi bir çox duyğuları aktivləşdirir.**



Əslində, ətrin təsirindən necə faydalanmaq lazımdır? Havalar soyuduqca daha gözəl və diqqətçəkən qoxular axtaranlar üçün bir neçə təklif var...

**"Marc Jacobs Perfect Intense"** – Qovrulmuş şirin badam və məxmər kimi səndəl ağacı ilə gözəl effekt yaradan bu çiçək-odun qoxusu payız günləri üçün ən yaxşı seçimlərdən biri ola bilər. Axşamlarınız bu gözəl qoxu ilə daha da zövqlü olacaq.

**"Michael Kors Gorgeous"** – Ağ çiçək buketi və kəhrəba qarışığından yaranan "Michael Kors Gorgeous" payızın cəlbedici qoxularından biri olmağa namizəddir.

**"Versace Crystal Noir"** – Almaz daşından ilham alan, qadın hisslərini tərənnüm edən bu ətir Şərq çiçəyi qoxusuna malikdir. Bu formulun sayəsində ətrin uzunmüddətli şleyfini (qalıcılığını) də sevəcəksiniz.

**"Armani Si Intense"** – Ətir qara qarağat nektarı və qızılgüllər rayihəsi saçır. Məhz bu xüsusiyyətinə görə onunla çox maraqlanırlar.

**"Givenchy L'Interdit Edp Rouge"** – Tuberoza və sıx jasmin notlarını ehtiva edən bu ətir zəncəfil ilə qarışdırılaraq payız üçün uyğun ədviyyatlı qoxuya çevrilir.

**"Lancome İdol Aura"** – Qızılgül, parlaq jasmin və müşkü vanilin unikal birləşməsini ehtiva edir. Bütün fəsillərdə istifadə edə biləcəyiniz ətir payız günlərində də sizə xoş ovqat bəxş edəcək.

*Səadət RZAYEVA*
*XQ*

# Şabranda rənglərin sayrışması

**Şabranda oktyabrın 2-dən 9-dək müasir Azərbaycan rəssamlarının iştirak etdiyi "Təbiətin vibrasiyaları" adlı simpozium keçirilib.**



Simpozium Birləşmiş Rəssamlar Klubunun təşəbbüsü ilə "Çardaq" qrupunun art-platforması ilə əməkdaşlıq çərçivəsində Azərbaycan Rəssamlar İttifaqı və "Shabran Wellbeing Resort" otelinin dəstəyi ilə təşkil olunub. Layihənin kuratoru tanınmış rəssam Bəhram Xəlilovdur.

Tədbirdə rəssamlar Anar və Zümrüd Hüseynzadə, Elşən və Şəbnəm Qaracalar, Aydın Əsgərov, Anar və Saliha Bəylərlər, Təranə Vaqifqızı, Vəfa Yüzbaşıyeva, Nigar Familsoy, Vüsalə Ağarazıyeva iştirak ediblər. Simpoziumun konsepsiyası musiqi və təsviri sənət vasitəsilə təbiətlə ünsiyyətin ifadəsindən ibarət olub.

Simpoziumun nəticələri ilə yaxın vaxtlarda İçərişəhərdəki Müasir İncəsənət Mərkəzində keçiriləcək hesabat sərgisində tanış olmaq mümkün olacaq.

*N.AYTƏN*
*XQ*

Sənət inciləri

## Leonardo da Vinçi "Müjdə"si

**"Müjdə" əsəri rəngkarlıq tarixində və dahi rəssam Leonardo da Vinçinin yaradıcılığında xüsusi yer tutan tablolardandır.**



Tabloda əsas ideya Məryəmin Cəbrayıl mələyi ilə qarşılaşması, Cəbrayılın Məryəmin İsaya hamilə olmasını müjdələməsidir.

Əsərdə əsasən tünd və "isti" rənglərin ahənginin vəhdət təşkil etməsinə baxmayaraq, arxa fonda dağ və təbiət mənzərəsində "soyuq" rənglər nisbətən açıq boyalarla təsvir olunub. Eyni zamanda tablonu digər oradakı fərqləndirən cəhət tablodakı koloritdə işıq-kölgə effektinin daha dəqiq işlənilməsidir.

Əsərdə diqqəti cəlb edən bir məqam da burada zanbaq gülünün təsviridir. Zanbaq gülü isə Məryəmin təmizliyi və saflığının simvoludur.

*Leyla HADİ,*
*tələbə-jurnalist*

Texnologiya yenilikləri

# Türkiyə "Instagram"da ikincidir

**Yarandığı gündən etibarən istifadəçilərin diqqətini çəkən məşhur sosial media platformasi olan "İnstagram"da Türkiyə ikinci yeri tutur. "Anadolu" agentliyinin (AA) verilən məlumata görə, bu ölkə 153,6 milyon aktiv hesab sayı ilə platformada ikinci olub.**




Siyahıya 263,3 milyon hesabla Hindistan başçılıq edir, üçüncü yerdə isə 119,6 milyon aktiv hesabla Braziliya qərarlaşıb.

Dünyada ən çox ziyarət edilən "İnstagram" veb-saytının aylıq istifadəçi sayı 12,8 milyarddan çoxdur. Hər gün 500 milyon insanın daxil olduğu platformaya indiyədək təxminən 50 milyard fotoşəkil yüklənib.

Qeyd edək ki, "İnstagram" istifadəçilərinin 47,2 faizi qadın, 52,8 faizi isə kişidir. Hesab sahiblərinin 70 faizi 25-34 yaş qrupunda olan istifadəçilərdir. Onların gün ərzində platformada orta hesabla cəmi 32 dəqiqə vaxt keçirdikləri bəlli olub.

*S.FİDAN*
*XQ*

Sağlamlıq guşəsi

## Badımcan – kimə xeyirli, kimə ziyan?



***Bir çox insanlara badımcan yemək olmaz. Bu tərəvəz öd daşı xəstəliyi riskini artıra bilər. Həkim Veronika Qusakova bəzi hallarda badımcanın zərərli olduğunu deyib.***

Bildirib ki, badımcanda çox miqdarda, həm böyrək, həm öd kisəsi daşlarının tərkib hissəsi olan oksalat var. Ona görə daş xəstəliyi olanlara badımcan tövsiyə edilmir.

Eləcə də badımcan psoriaz, böyrək xəstəlikləri, artrit, podaqra xəstəliklərində də əks – göstərişdir. Badımcan qalxanvari vəzinin funksiyasına da təsir edir. Zob xəstəliyi olanlar kəskin mərhələdə badımcandan imtina etməlidir.

Təzyiq dərmanları içənlər üçün də bu tərəvəz tövsiyə edilmir. Qalan hallarda faydalı olan badımcan vitamin mənbəyi kimi hüceyrələri sərbəst toksinlərdən təmizləyir.

## Darçınlı bal – ye, sağlam qal!

***Qədim Yunanıstanda dərman kimi istifadə edilən bal və darçın qarışımını təbii antibiotik hesab edirlər. Tərkibində çoxlu vitamin və yüksək miqdarda dəmir olan qarışım orqanizmi bakteriya və viruslardan qoruyur, sidik yolları infeksiyasını müalicə edərək, mikrobları öldürür.***



Hindistan və Yaponiyada aparılan araşdırmalarla müəyyən edilib ki, bal və darçın mədə turşuluğun qarşısını alır, qazı azaldır və ən ağır yeməklərin asanlıqla həzminə kömək edir. Darçın tozu ilə balı qarışdırıb səhər yeməyində çörəklə yemək olar. Bu, pis xolesterolu azaldır və infarktın qarşısını alır. Darçınlı balın müntəzəm istifadəsi ürək döyüntüsünü nizama salır, ömrü 10 il uzadır. Yaşlandıqca elastikliyini itirən arteriya və damarları bərpa edir. Həmçinin gecə yatmazdan əvvəl bu qarışımdan bir qaşıq qəbul edən səhər daha rahat və yaxşı əhval ilə oyanar.

Xolesterol xəstəsinə 450 qram çaya iki xörək qaşığı bal və üç xörək qaşığı darçın tozu qatıb verildikdə iki saat ərzində qanda xolesterinin miqdarının 10 faiz azaldığı müşahidə edilib. Bu qarışımın gündə üç dəfə qəbulu, hətta xroniki xolesterolu da müalicə edə bilər.

*Z.HÜSEYNLİ*
*XQ*

Maraq dünyamız



## Uzaq, tənha otel

**Alyaskada yerləşən "Sheldon Shale" dünyanın ən ucqar oteli hesab olunur. Bu yaşayış obyekti buzlaqda, dəniz səviyyəsindən 1767 metr yüksəklikdə yerləşir. Buraya ancaq helikopterlə gəlmək olar. Otel "Hər şey daxil" proqramı çərçivəsində fəaliyyət göstərir. O, şəxsi aşpaz, sauna və bələdçili gəzinti turları təklif edir.**

Otel 5 ulduz kateqoriyasına malikdir və dünyanın ən bahalı otellərindən biridir. Müxtəlif vaxtlarda şahzadə Harri və Səudiyyə Ərəbistanı kral sülaləsinin üzvləri burada qalıblar.

"Sheldon Shale"in əsas rəqibi Antarktidada yerləşən "White Desert Hotel"dir. O, uçuş-enmə zolağı ilə təchiz olunub, burada istirahət edənlər paytaxt Keyptaundan təyyarə ilə çatdırılır.

*L.AZAD*
*XQ*

HAVA

# Gündüz yağıntılar kəsiləcək

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən oktyabrın 12-də Bakıda və Abşeron yarımadasında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir.**



Yarımadanın bəzi yerlərində havanın qısamüddətli leysan xarakterli olacağı, şimşək çaxacağı ehtimalı var. Səhər tədricən kəsiləcəyi, gündüz əsasən yağmursuz keçəcəyi gözlənilir. Güclü şimal-qərb küləyi əsəcək, günün ikinci yarısında mülayim şimal-şərq küləyi ilə əvəz olunacaq. Gecə 10-14°, gündüz 14-17° isti olacaq. Atmosfer təzyiqi 769 mm civə sütunundan 774 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə 70-80 , gündüz 50-60 faiz olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, şimşək çaxacağı, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gündüz yağıntılar tədricən kəsiləcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturu gecə 9-14° , gündüz 15-20° isti, dağlarda gecə 1° şaxtadan 4°-dək isti, gündüz 5-9° isti olacaq.

*Q. QASIMOV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

"Xalq qəzeti"nin kollektivi iş yoldaşları Hacı İttifaq Mirzəbəyliyə əzizi

**AZARƏT QAÇAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Şirvan şəhərindən İlqar Abbasov Rövşən və Ruslan Sadıxov qardaşlarına ataları

**OQTAY SADIXOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Dövlət Universiteti jurnalistika fakültəsinin əyani şöbəsinin 1980-ci il məzunları tələbə yoldaşları Mehman Mehmanova qardaşı

**MƏHƏMMƏDİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Məhərrəm Səfərli və Elxan İbadov ailələri ilə birlikdə Bakı Apellyasiya Məhkəməsinin hakimi Azad İmanova anası

**VALİDƏ MƏMMƏDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4818
SİFARİŞ 2621
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Vaqif Bayramov

Çapa imzalanmışdır 00:00